**YEDDİNCİ ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**VI SESSİYASI İCLASININ**

# PROTOKOLU № 66

*Milli Məclisin iclas salonu.*
*13 mart 2026-cı il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 117 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| İştirak edir | 115 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Əli Əsədov**, Azərbaycan Respublikasının Baş naziri.
**Yaqub Eyyubov**, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini.
**Şahin Mustafayev**, Azərbaycan Respublikası Baş nazirinin müavini.
**Samir Şərifov**, Azərbaycan Respublikası Baş nazirinin müavini.
**Fərid Əhmədov**, Azərbaycan Respublikasının ədliyyə naziri.
**Sahil Babayev**, Azərbaycan Respublikasının maliyyə naziri.
**Mikayıl Cabbarov**, Azərbaycan Respublikasının iqtisadiyyat naziri.
**Vüqar Mustafayev**, Azərbaycan Respublikasının müdafiə sənayesi naziri.
**Anar Əliyev**, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.
**Emin Əmrullayev**, Azərbaycan Respublikasının elm və təhsil naziri.
**Məcnun Məmmədov**, Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri.
**Teymur Musayev**, Azərbaycan Respublikasının səhiyyə naziri.
**Rəşad Nəbiyev**, Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri.
**Pərviz Şahbazov**, Azərbaycan Respublikasının energetika naziri.
**Rəşad İsmayılov**, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri.
**Adil Kərimli**, Azərbaycan Respublikasının mədəniyyət naziri.
**Fərid Qayıbov**, Azərbaycan Respublikasının gənclər və idman naziri.
**Rasim İsmayılov**, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini.
**Fərid Cəfərov**, Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini.

**Cabbar Musayev**, Naxçıvan Muxtar Respublikasının Baş naziri.
**Şahin Bağırov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.

**Azər Mursaqulov**, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri.
**Ramin Məmmədov**, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri.
**Anar Quliyev**, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri.
**Rövşən Rzayev**, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri.
**Qoşqar Təhməzli**, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri.
**Fuad Nağıyev**, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri.
**Vüsal Hüseynov**, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi.
**Zaur Mikayılov**, Azərbaycan Respublikası Dövlət Su Ehtiyatları Agentliyinin sədri.
**Səbuhi Sadıqov**, Azərbaycan Dövlət Ehtiyatları Agentliyi İdarə Heyətinin sədri.
**Zaur Əliyev**, Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri.
**Gündüz İsmayılov**, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini.
**Taleh Kazımov**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin sədri.
**İsrafil Məmmədov**, Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru.
**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.
**Rüfət Məmmədov**, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri.
**Ələsgər Ələsgərov**, Azərbaycan Respublikası Baş nazirinin Katibliyinin rəisi.
**Elman Rüstəmov**, Azərbaycan Respublikası Baş nazirinin müşaviri.
**Zakir Paşayev**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri.
**Seyfəddin Talıbov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadiyyat şöbəsi müdirinin müavini.
**Fəxri İsmayılov**, Azərbaycan Respublikası Baş nazirinin köməkçisi.
**İbrahim Məmmədov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri.
**Bəxtiyar Əsgərov**, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi nümayəndəliyinin rəhbəri.

**İclasın gündəliyinə aşağıdakı məsələ daxil idi:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı.

**Aşağıdakı məsələ müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Əsədov, Musa Quliyev, Vüqar Bayramov, Fazil Mustafa, Asif Əsgərov, Sahib Alıyev, Vasif Qafarov, Əli Əhmədov, Kamal Cəfərov, Azər Badamov, Jalə Əliyeva, Aydın Mirzəzadə, Bəhruz Məhərrəmov, Tural Gəncəliyev, İlham Məmmədov, Zaur Şükürov, Rövşən Muradov, Elman Nəsirov, Fariz İsmayılzadə, Səbinə Xasayeva, Azay Quliyev, Tahir Rzayev, Elçin Mirzəbəyli, Nurlan Həsənov, Səyyad Aran, Ceyhun Məmmədov, Vüqar İskəndərov, Rəşad Mahmudov, Qüdrət Həsənquliyev, Sadiq Qurbanov

**Təklif:** Çıxışlar 5 dəqiqə olsun

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.07 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 1 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

## ***MİLLİ MƏCLİSİN İCLASI***

*13 mart 2026-cı il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*

***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli cənab Baş nazir və hörmətli hökumət üzvləri. Xoş gördük, hörmətli həmkarlar, hörmətli media nümayəndələri.

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 115 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasa başlaya bilərik.

Xahiş edirəm, indi gündəliyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, qeyd edim ki, bugünkü iclasın gündəliyində 1 məsələ var və qanunvericiliyə uyğun olaraq,  Nazirlər Kabineti ötən ildəki fəaliyyəti barədə hesabat verəcək.

Hörmətli cənab Baş nazir və hökumət üzvləri, hörmətli deputatlar. Xanımlar və cənablar. Milli tariximizə "Konstitusiya və Suverenlik İli" kimi daxil olan 2025-ci il Azərbaycan dövlətinin siyasi və hüquqi yetkinliyinin rəmzinə çevrilmiş, eyni zamanda, ölkəmizin ardıcıl və dinamik inkişafında yeni mərhələ təşkil etmişdir. Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin uzaqgörən siyasəti həm ölkə daxilində, həm də beynəlxalq arenada çoxsaylı böyük uğurların əldə olunmasına şərait yaratmışdır.

Keçən il biz 44 günlük Vətən müharibəsində tarixi Zəfərin 5-ci ildönümünü qürurla qeyd etmişik. Azərbaycan Prezidentinin  təşəbbüsü ilə başlanmış sülh prosesinin institusional əsaslarını möhkəmləndirən, Cənubi Qafqazda yaranmış yeni reallıqları təsbit edən Vaşinqton razılaşmaları dövlətimizin növbəti diplomatik uğuru olmuşdur.

Həyata keçirilən müstəqil və düşünülmüş xarici siyasət Azərbaycanı beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaşa çevirmişdir. Bizim dövlətimiz regional və qlobal məsələlərin həllində fəal iştirak etmiş, enerji təhlükəsizliyinin təmin edilməsinə, nəqliyyat dəhlizlərinin inkişafına və beynəlxalq əməkdaşlığın genişlənməsinə dəyərli töhfələr vermişdir.

Azərbaycanın 8 böyük müsəlman ölkəsini birləşdirən D-8 beynəlxalq təşkilatına qəbul edilməsi, Orta Asiya ölkələrinin Məşvərət Şurasının tamhüquqlu üzvü olması böyük tarixi nailiyyətlərdir. İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndidə keçirilən Zirvə Görüşü dövlətimizin siyasi və iqtisadi gücünü bir daha nümayiş etdirmişdir. Türk Dövlətləri Təşkilatının

Qəbələdə keçirilən Zirvə Görüşü isə türk dünyasının inteqrasiyası yolunda mühüm addım olmuşdur.

Hörmətli cənab Baş nazir və hökumət üzvləri, hörmətli deputatlar! Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ötən il ölkəmizin sosial-iqtisadi inkişafı sahəsində böyük uğurlar əldə edilmişdir. Həyata keçirilən düşünülmüş tədbirlər nəticəsində ölkəmizdə makroiqtisadi sabitlik təmin edilmiş, irimiqyaslı infrastruktur layihələri həyata keçirilmişdir. Sənaye və energetika sektorlarında modernləşdirmə davam etdirilmiş, iqtisadiyyatın qeyri-neft-qaz sahələri daha da genişləndirilmişdir. Nəqliyyat, kənd təsərrüfatı, rəqəmsal transformasiya, turizm və innovasiyalar sahəsində önəmli tədbirlər görülmüşdür.

Hörmətli xanımlar və cənablar. Son illərdə Azərbaycan regional inkişaf sahəsində ciddi uğurlar qazanmışdır. Azad edilmiş ərazilərin bərpası və inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Bu gün Qarabağda və Şərqi Zəngəzurda “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyası reallaşdırılır, yeni iqtisadi və sosial mərkəzlər yaradılır. Böyük Qayıdış dövlət proqramı mərhələ-mərhələ həyata keçirilir.

2025-ci ildə sosial siyasətə xüsusi diqqət yetirilmişdir. Əhalinin rifahının yüksəldilməsi ilə bağlı proqramlar icra olunmuş, sosial müdafiə tədbirləri genişləndirilmiş, səhiyyə və təhsil sistemlərində təkmilləşdirmə işləri aparılmışdır.

Hörmətli cənab Baş nazir və hökumət üzvləri, hörmətli deputatlar! Ötən il ümumi daxili məhsulun artımı davam etmiş, ölkənin strateji valyuta ehtiyatları 20 faizə yaxın artaraq 85 milyard ABŞ dollarını ötmüşdür. Bu da məmnunluqla qeyd edilməlidir ki, iqtisadi artım qeyri-neft-qaz sektorunda

daha yüksək olmuş, iqtisadiyyata yönələn investisiyaların təqribən 75 faizi bu sahənin payına düşmüşdür.

2025-ci ildə biznes və investisiya mühitinin yaxşılaşdırılması, institusional islahatların aparılması, korrupsiyaya qarşı mübarizə istiqamətində zəruri tədbirlər davam etdirilmişdir.

Ötən ilin dövlət büdcəsinin icrasında da müsbət nəticələr əldə edilmişdir. Biz 2025-ci ilin dövlət büdcəsinin icrası haqqında qanun layihəsinin müzakirəsi zamanı bu məsələləri ətraflı müzakirə edəcəyik.

Hörmətli həmkarlar, qeyd edilməlidir ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin müəyyən etdiyi iqtisadi kursun həyata keçirilməsində Nazirlər Kabineti mühüm rol oynayır. Hökumətin səmərəli fəaliyyəti ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı vəzifələrin uğurla yerinə yetirilməsini təmin edir.

Hörmətli xanımlar və cənablar. Biz həmişə məmnunluqla qeyd edirik ki, Nazirlər Kabinetinin illik hesabatlarının Milli Məclisdə dinlənilməsi parlamentlə hökumət arasında təmasların artmasına şərait yaradır, iqtisadi inkişaf məsələlərinin obyektiv araşdırılmasında və həllində deputatların iştirakını təmin edir. Onu da deyim ki, ötən il Milli Məclisdə Nazirlər Kabinetinin hesabatının müzakirəsi zamanı irəli sürülmüş təklif və tövsiyələr, həmişə olduğu kimi, yenə də hökumət tərəfindən diqqətlə araşdırılmışdır. Bu təklif və tövsiyələrin icra vəziyyətinə dair ətraflı məlumat bizə təqdim edilmişdir. Eyni zamanda, artıq 6 ildir ki, hesabata ayrıca olaraq, sosial və infrastruktur obyektlərinin əsaslı təmiri və tikintisi, xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması barədə Milli Məclis deputatlarının təkliflərinin icrasına dair məlumat da daxil edilir.

Düşünürəm ki, deputatlar bu gün aparacağımız müzakirədə fəal iştirak edəcək və səmərəli təkliflər irəli sürəcəklər.

Hörmətli həmkarlar, indi isə Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatını təqdim etmək üçün Azərbaycan Respublikasının Baş naziri çox hörmətli cənab Əli Əsədova söz verirəm.

Əli müəllim, buyurun kürsüyə.

**Əli Əsədov,** *Azərbaycan Respublikasının Baş naziri.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Ənənəvi olaraq bu gün Nazirlər Kabineti 2025-ci ildəki fəaliyyətinə dair geniş hesabatla Milli Məclis qarşısında çıxış edir. Bu cür hesabatlılıq hökumətlə Milli Məclis arasında səmərəli və işgüzar əməkdaşlığın möhkəmlənməsinə, görülmüş işlərin və qarşıda duran vəzifələrin birgə müzakirəsinə əlverişli şərait yaradır. Eyni zamanda, bu proses şəffaflığın və qarşılıqlı məsuliyyət prinsipinin daha da güclənməsinə xidmət edir.

Hörmətli deputatlar, 2025-ci il Azərbaycan üçün siyasi sabitliyin daha da gücləndiyi və iqtisadi inkişafın ardıcıl şəkildə həyata keçirildiyi mühüm mərhələ kimi yadda qaldı. “Konstitusiya və Suverenlik İli” elan edilən 2025-ci il dövlət suverenliyinin möhkəmləndirilməsi, bərpa olunan ərazilərin reinteqrasiyası və milli iqtisadiyyatın yeni inkişaf mərhələsinə keçidi baxımından mühüm siyasi mərhələ kimi qiymətləndirilə bilər.

İl ərzində ölkəmiz qlobal və regional platformalarda təşəbbüskar mövqeyini daha da möhkəmləndirmiş, sülh və əməkdaşlıq gündəliyinin təşviqi istiqamətində fəal səy göstərmişdir. Bu baxımdan 2025-ci il avqustun 8-də Azərbaycan, Amerika Birləşmiş Ştatları və Ermənistan liderlərinin iştirakı ilə Vaşinqtonda baş tutmuş Zirvə Görüşü bölgəmizdə

yeni geosiyasi reallıqların formalaşmasına, regionda dayanıqlı sülh və inkişaf üçün əlverişli şəraitin yaranmasına imkan vermişdir.

Vaşinqton Sülh Sammitinin ən mühüm nəticələrindən biri də "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu"nun (TRIPP) – Zəngəzur dəhlizinin əsasının qoyulması olmuşdur. Bu multimodal marşrut Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqəni təmin edəcək və eyni zamanda, ölkəmiz üzərindən keçən beynəlxalq nəqliyyat və tranzit marşrutlarının şaxələndirilməsinə xidmət edəcəkdir.

2025-ci ildə əldə edilmiş mühüm diplomatik uğurlar sırasında Azərbaycanın Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın bu quruma tamhüquqlu üzv kimi qəbul edilməsi ölkəmizin regionda etibarlı tərəfdaş və sabitlik amili kimi rolunun beynəlxalq səviyyədə tanındığını göstərir.

Hesabat ilində Azərbaycan ümumi əhalisi bir milyarddan artıq, ümumi iqtisadi potensialı isə 4 trilyon ABŞ dollarından çox olan D-8 təşkilatına üzv qəbul olunmuşdur.

Eyni zamanda, ötən il ölkəmizdə bir sıra mühüm beynəlxalq tədbirlər keçirilmişdir. Bu tədbirlər sırasında, təbii ki, Xankəndi şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Zirvə Görüşünü və Qəbələdə təşkil olunan Türk Dövlətləri Təşkilatının Zirvə Görüşünü xüsusi qeyd etmək lazımdır.

Ölkəmiz cari ildə də bir sıra mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edəcəkdir. Onların sırasında BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası xüsusi əhəmiyyət kəsb edir. Əminəm ki, bu

mötəbər tədbir müasir şəhərsalma yanaşmaları və beynəlxalq təcrübə mübadiləsi baxımından qlobal əhəmiyyətə malik platformaya çevriləcək.

Cənab Prezidentin 2025-ci il 22 dekabr tarixli Sərəncamı ilə 2026-cı ilin ölkəmizdə “Şəhərsalma və Memarlıq İli” elan edilməsi bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin ardıcıl xarakter daşıdığını əyani şəkildə göstərir.

Hörmətli deputatlar, bu gün regionda cərəyan edən mürəkkəb geosiyasi proseslər, artan gərginlik və risklər fonunda cənab Prezidentin ardıcıl və praqmatik xarici siyasət kursu, uzaqgörən strateji baxışı və milli maraqlara əsaslanan prinsipial mövqeyi nəticəsində Azərbaycan Respublikasının suverenliyi və sərhədlərinin toxunulmazlığı etibarlı şəkildə təmin olunmaqdadır.

Məlum olduğu kimi, ötən həftə İran ərazisindən Azərbaycanın Naxçıvan Muxtar Respublikasının ərazisində pilotsuz uçuş aparatlarının istifadəsi ilə bağlı hadisə baş vermişdir. Baş verən bu xoşagəlməz hadisə fonunda Azərbaycan cəmiyyəti və beynəlxalq ictimaiyyət bir daha əmin oldu ki, Prezident İlham Əliyev xalqının təhlükəsizliyini qoruyan və hər zaman öz xalqının arxasında duran güclü liderdir.

Onu da əlavə edim ki, son dövrlərdə regionda cərəyan edən hadisələr Azərbaycanın quru sərhədlərinin bağlı saxlanılması qərarının nə qədər əsaslı və zəruri olduğunu göstərir, eyni zamanda, cənab Prezidentin uzaqgörən və müdrik dövlətçilik siyasətinin növbəti təsdiqidir.

Hörmətli deputatlar, 2025-ci ilin yekunlarına dair yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibədə cənab Prezident ötən ilin iqtisadi inkişafından razılığını bildirmiş, iqtisadiyyatımızın özünü təmin etdiyini və güclü dayanıqlılıq nümayiş etdirdiyini demişdir.

Hörmətli deputatlar, hesabat ilində ölkədə ümumi daxili məhsulun real həcmi əvvəlki illə müqayisədə 1,4 faiz artaraq 129,1 milyard manat olmuşdur. Qeyri-neft sektoru isə real ifadədə 2,7 faiz artaraq 92,3 milyard manata çatmışdır. İqtisadiyyatda ümumi əlavə dəyərin 72 faizi məhz qeyri-neft sektorunda yaranmışdır. Qeyri-neft-qaz sənayesində 5,5 faiz artım olmuşdur. Neft-qaz sektorunda isə 1,6 faiz azalma olmuşdur. Neft hasilatının azalması fonunda ümumi iqtisadi artımın qorunması məhz qeyri-neft sektorunun genişlənməsi hesabına mümkün olmuşdur.

Xarici ticarətdə 6,4 milyard dollarlıq müsbət saldo və qeyri-neft ixracının 8 faizdən çox artaraq 3,6 milyard dolları üstələməsi ixrac potensialımızın genişləndiyini və beynəlxalq rəqabət qabiliyyətinin yüksəldiyini göstərir.

Hesabat dövründə strateji valyuta ehtiyatları ilin əvvəlindən təqribən 14,1 milyard dollar və ya 20 faiz artaraq 85 milyard dolları keçmişdir. Hazırda bu rəqəm bu gün 91 milyard dollardır. Bu, ÜDM-dən 12 faiz çoxdur və dünyada adambaşına düşən ehtiyatlara görə ən yüksək göstəricilərdən biridir. Bu göstərici xarici dövlət borcunu 18 dəfəyədək üstələyir.

2025-ci ildə inflyasiya hədəf diapazonunda olmuşdur. Belə ki, illik inflyasiya 5,2 faiz, orta illik inflyasiya isə 5,6 faiz təşkil etmişdir.

Makroiqtisadi idarəetmənin keyfiyyəti maliyyə intizamı və fiskal dayanıqlılıq göstəricilərində də aydın görünür. 2025-ci ildə dövlət büdcəsinin gəlirləri təqribən 39,2 milyard manat və ya 5,4 faiz çox, xərcləri isə 38,6 milyard manat və ya 2,4 faiz çox icra olunmuşdur.

Prezident İlham Əliyevin cari il yanvarın 21-də Davos Forumunda vurğuladığı kimi, qlobal qeyri-müəyyənliyin artdığı bir dövrdə Azərbaycanın

əsas prioriteti makroiqtisadi sabitliyin qorunması, fiskal intizam və iqtisadiyyatın neftdən kənar sahələr üzrə şaxələndirilməsi və inkişafıdır.

Hesabat ilində institusional sahədə islahatlar davam etmiş, sahibkarlığın inkişafı, biznes və investisiya mühitinin yaxşılaşdırılması, korrupsiya ilə mübarizə və kölgə iqtisadiyyatının məhdudlaşdırılması, şəffaflıq və dövlət maliyyəsi istiqamətində tədbirlər həyata keçirilmişdir.

Cənab Prezidentin 2025-ci il 25 avqust tarixli Fərmanı dövlət maliyyəsinin səmərəli idarə olunmasında rəqəmsal həllərin genişləndirilməsini hədəfləyir. Bu məqsədlə yaradılan “Rəqəmsal dövlət maliyyəsi” informasiya sistemi büdcə proseslərinin, maliyyə nəzarətinin, xəzinədarlıq, eləcə də dövlət qurumları arasında maliyyə sənədlərinin elektron mübadiləsini təmin edəcəkdir.

Hörmətli deputatlar, 2025-ci ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsi və sosial rifah halının yaxşılaşdırılması üçün sosial siyasət tədbirləri davam etdirilmişdir. Əhalinin real gəlirlərinin yüksəldilməsi məqsədi ilə sosial ödənişlərin artırılması ilə bağlı bir sıra mühüm qərarlar qəbul olunmuşdur. 2025-ci ildə əhalinin nominal gəlirləri və orta aylıq əməkhaqqı artımı illik inflyasiya səviyyəsini üstələmişdir.

2025-ci il dövlət büdcəsi xərclərinin 39,5 faizi və ya 15,3 milyard manatı sosialyönlü xərclərin maliyyələşdirilməsinə yönəldilmişdir. Bu, 2024-cü illə müqayisədə 600 milyon manat və ya 4,1 faiz çoxdur.

Son 7 il ərzində 4 milyon insanı əhatə edən 5 sosial islahat paketi icra edilmişdir ki, bu məqsədlərə təqribən 8 milyard manat məbləğində vəsait ayrılmışdır. Təkcə keçən il 1,4 milyard manat büdcə vəsaiti bu məqsədlər

üçün xərclənib. Maaşlar, pensiyalar, müavinətlər müntəzəm olaraq artırılır, pensiyalar indeksləşdirilir.

Təhsil, səhiyyə və sosial müdafiəyə ayrılan vəsaitlərin artımı isə iqtisadi inkişaf üçün dayanıqlı insan kapitalı bazası yaradır. Dövlət büdcəsindən təhsil və elm xərclərinə 4,8 milyard manatdan artıq vəsait ayrılmışdır, artım 5,1 faizdir.

2025-ci ildə 31 təhsil müəssisəsində işlər yekunlaşdırılmış, 97 təhsil müəssisəsində tikinti-quraşdırma işləri davam etdirilir. Eyni zamanda, 959 təhsil müəssisəsində, o cümlədən 10 peşə, 4 kollec, 185 məktəbəqədər və 760 ümumtəhsil müəssisəsində cari təmir işləri aparılmışdır. Bu işlər mərhələli şəkildə davam etdiriləcəkdir.

Hesabat ilində əhalinin sağlamlığının qorunması, səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması və əlçatanlığın təmin olunması məqsədi ilə səhiyyə xərcləri sahəsinə büdcədən təxminən 1,3 milyard manat vəsait ayrılmışdır.

Prezident cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət və qayğısı ilə son illərdə 16 min şəhid ailəsinə və müharibə əlilinə, onların ailələrinə dövlət tərəfindən mənzillər verilmişdir. Müharibə zamanı 500-dən artıq əlil olmuş hərbçi dövlət tərəfindən ən müasir protezlərlə təmin edilmişdir.

Ümumiyyətlə, 2025-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 21,2 milyard manat investisiya vəsaiti yönəldilmişdir. İnvestisiyanın 74,8 faizi qeyri-neft-qaz sektoruna, 25,2 faizi neft-qaz sektoruna yönəldilmişdir.

Hörmətli deputatlar, 2025-ci ilin dövlət büdcəsində də müdafiə və milli təhlükəsizlik xərcləri artırılmışdır. Bu, ölkəmizin suverenliyinin, ərazi bütövlüyünün və milli təhlükəsizliyinin təmin olunmasının dövlət siyasətinin

əsas prioritetlərindən biri olduğunu nümayiş etdirir. Bu məqsədlə 2025-ci ilin dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik xərclərinə 8,1 milyard manat vəsait ayrılmışdır. 2024-cü illə müqayisədə 1,5 milyard manat və ya 23 faiz çoxdur.

Ötən il Azərbaycanda 1,4 milyard manat dəyərində hərbi təyinatlı məhsul istehsal edilib. Bu gün Azərbaycan 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsul ixrac edir.

Mövcud geosiyasi şərait nəzərə alınaraq, əldə olunmuş nəticələrin qorunmasına, o cümlədən təhlükəsizliyin möhkəmləndirilməsinə, müdafiə qabiliyyətinin artırılmasına, sərhədlərin toxunulmazlığına, milli maraqların müdafiəsinə bundan sonra da ardıcıl diqqətin göstərilməsi olduqca mühüm əhəmiyyət kəsb edir.

Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə mövcud infrastrukturun bərpası və yenisinin inşası, yaşayış məntəqələrinin yenidən qurulması və sosial-iqtisadi həyatın canlandırılması istiqamətində genişmiqyaslı işlər uğurla davam etdirilir.

Hesabat ilinin sonuna işğaldan azad edilmiş bölgələrdə yaşayan, məskunlaşan, işləyən və oxuyan əhalinin sayı təqribən 75 min nəfər təşkil etmişdir. İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2020–2025-ci illərdə dövlət büdcəsindən 22 milyard manat, o cümlədən 2025-ci ildə 4,4 milyard manat vəsait ayrılmışdır. 2026-cı ildə bu istiqamətdə 3,5 milyard manat vəsaiti də nəzərə alsaq, toplam olaraq bu istiqamətə 25,5 milyard manat büdcə vəsaiti ayrılmışdır.

Eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə geniş minatəmizləmə işləri davam etdirilir. Azad edilmiş ərazilərdə 2025-ci ildə 69,2 min hektar, ümumilikdə, 2020-ci ildən 249 min hektara yaxın ərazi

minalardan və partlamamış hərbi sursatlardan təmizlənmişdir. Ümumilikdə, tapıntılar 237 min ədəd təşkil edir. Bu, minalar və partlamamış hərbi sursatlardır. Bu rəqəmləri səsləndirərək deyə bilərəm ki, bu, ümumi təmizlənməsi nəzərdə tutulan ərazilərin üçdə bir hissəsidir. 2026-cı ildə 65 min hektardan artıq ərazinin minalardan təmizlənməsi planlaşdırılır.

Bununla yanaşı, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in əsas məqsədlərindən biri də paytaxt və regionların tarazlı inkişafıdır. 2025-ci ildə ölkədə 9 sənaye parkı və 6 sənaye məhəlləsi fəaliyyət göstərmişdir ki, burada 179 rezident və qeyri-rezident qeydiyyatdan keçmiş, 103 müəssisə istehsal fəaliyyətinə başlamışdır.

2025-ci ildə sənaye zonalarında 3,3 milyard manat dəyərində məhsul istehsal olunmuş, ondan 1,2 milyard manat həcmində məhsul ixrac edilmişdir.

Hesabat ilində torpaq və su ehtiyatlarının mühafizəsi gücləndirilmiş, su problemlərinin həlli istiqamətində müvafiq tədbirlər görülmüşdür.

Prezidentin 2026-cı il 12 yanvar tarixli Sərəncamı ilə “Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026−2035-ci illər üçün Dövlət Proqramı” təsdiq edilmişdir.

2025-ci ildə kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün 504 milyon manat vəsait ayrılmışdır. Ölkə ərazisində mövcud olan su ehtiyatlarından səmərəli istifadə edilməsi, fermerlərin suvarma suyu ilə təchizatı, suvarma sahələrinin genişləndirilməsi və digər tədbirlərin maliyyə təminatı üçün 539 milyon manat məbləğində vəsait ayrılmışdır. Bu, keçən illə müqayisədə 23 faiz çoxdur.

Hörmətli deputatlar, Prezident İlham Əliyevin Davos platformasında vurğuladığı kimi, nəqliyyat, rəqəmsal infrastruktur, yaşıl enerji və hasilat sənayesinin yeni mərhələsi Azərbaycanın müasir inkişaf modelinin əsas sütunları kimi çıxış edir.

Hesabat ilində xüsusi ilə nəqliyyat, logistika və informasiya, rabitə sahələrində müşahidə olunan dinamika iqtisadiyyatın yeni artım mənbələrinin formalaşdığını göstərir.

2025-ci ildə qeyri-neft ÜDM-nin 13 faizi bu sahələrin hesabına formalaşdırılır. Yük və sərnişin daşımalarının artması Azərbaycanın regional tranzit rolunun möhkəmləndiyini təsdiqləyir və Orta Dəhliz strategiyasının real prosesə çevrildiyini göstərir.

İnformasiya və rabitə xidmətləri sektorunun genişlənməsi iqtisadiyyatın texnoloji komponentinin gücləndiyini, məhsuldarlığın fiziki kapitalla yanaşı, bilik, rəqəmsallaşma və innovasiya vasitəsi ilə artdığını göstərir. Ötən ildə Rəqəmsal İnkişaf Konsepsiyası və 2025–2028-ci illəri əhatə edən Süni İntellekt Strategiyası təsdiq edilmişdir.

Cənab Prezidentin 2025-ci il 30 yanvar tarixli Sərəncamı ilə “Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı” təsdiq olunmuşdur. Proqram çərçivəsində dayanıqlı nəqliyyat sisteminin qurulması, xidmət keyfiyyətinin artırılması, nəqliyyatda rəqəmsal texnologiyaların və innovativ həllərin tətbiqi əsas istiqamətlər kimi müəyyən edilmişdir.

Ötən il ölkədə avtomobil və dəmir yollarının, həmçinin yol infrastrukturunun tikintisi, yenidən qurulması və bərpası davam etdirilmişdir. 2025-ci il ərzində ölkədə 539 kilometr, o cümlədən regionlarda

332 kilometr respublika və yerli əhəmiyyətli avtomobil yolu tikilmiş, yenidən qurulmuş və əsaslı təmir olunmuşdur. 84 kilometr dəmir yolu xətti yenidən qurulmuş, 7 dəmir yolu tuneli və körpüsü tikilmiş və əsaslı təmir olunmuşdur.

Hesabat ilində energetika sahəsində infrastrukturun modernizasiyası, enerji təhlükəsizliyinin təmin edilməsi, ölkənin enerji sisteminə yeni generasiya güclərinin daxil edilməsi, habelə yaşıl enerjinin tətbiqi istiqamətində tədbirlər davam etdirilmişdir.

2025-ci ildə enerji istehsalı 28,6 milyard kilovat-saat, istehlak həcmi isə 24,7 milyard kilovat-saat olmuşdur. Hazırda hökumətin əsas vəzifəsi enerji mənbələrinin qəbuletmə imkanlarını genişləndirmək və enerji sistemimizi gücləndirməkdir.

Mövcud planlara görə biz 2032-ci ilə qədər alternativ enerji mənbələrindən 6–8 qiqavat elektrik enerjisi əldə etməyi gözləyirik. Bərpa olunan enerji sahəsində böyük potensialımızın reallaşdırılması məqsədi ilə dünyanın aparıcı ölkələrinin şirkətləri ilə səmərəli əməkdaşlıq qurulub. Bu əməkdaşlıq çərçivəsində həyata keçirilən layihələr ölkəmizin enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə, enerji mənbələrinin şaxələndirilməsinə və dayanıqlı inkişafın təmin olunmasına xidmət edir.

Bununla yanaşı, qaz təchizatı coğrafiyasının genişləndirilməsi və yeni ixrac marşrutlarının inkişafı istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirilir. 2025-ci il ərzində ixrac boru kəmərləri vasitəsi ilə, ümumilikdə, 25,2 milyard kubmetr qaz ixrac edilmişdir. Avropa bazarları ilə yanaşı, yeni istiqamətlər üzrə əməkdaşlıq inkişaf etdirilmiş və ilk dəfə olaraq Azərbaycan qazı Suriyaya tədarük edilmişdir.

Ötən il Azərbaycan qazını alan ölkələrin sayı artaraq 14-ə yüksəlmişdir. Hazırda bu ölkələrin sayı 16-dır.  Bu ildən başlayaraq Almaniya və Avstriyaya qaz tədarükünə başlanılmışdır.

Hörmətli deputatlar, növbəti ortamüddətli dövr dünyada və regionda cərəyan edən geosiyasi vəziyyət, geoiqtisadi amillər və hazırkı inkişaf meylləri baxımından ölkə qarşısında yeni strateji çağırışlar və hədəflər formalaşdırır.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və onun əsasında hazırlanan 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası hazırda uğurla davam etdirilir. Strategiyanın davamı olaraq 2025-ci il 30 may tarixində cənab Prezident tərəfindən imzalanmış Sərəncamdakı tapşırığa əsasən, yeni çağırışları və hədəfləri əhatə edərək 2027–2030-cu illərin sosial-iqtisadi inkişaf strategiyası və Böyük Qayıdışa dair II Dövlət Proqramının layihəsi hazırlanmış, İqtisadi Şurada müzakirə olunmuş və hər iki sənəd hazırlanaraq hökumət tərəfindən cənab Prezidentə təqdim  edilmişdir.

2025-ci ilin yekunları üzrə göstəricilər bir daha sübut edir ki, Prezident İlham Əliyevin formalaşdırdığı iqtisadi və sosial idarəetmə modeli neft gəlirlərinin səmərəli idarə olunmasına, qeyri-neft sektorunun inkişafına, insan rifahının yüksəldilməsinə və dövlətin strateji gücünün artırılmasına əsaslanır. Mövcud iqtisadi artım bazası isə məhsuldarlıq, xidmətlərin ixracı və texnologiya əsaslı dərinləşmə üçün əlverişli şərait yaradır.

Hörmətli xanım sədr, hörmətli deputatlar! Hökumət üzvləri adından və şəxsən öz adımdan əminliklə bildirirəm ki, cənab Prezident tərəfindən hökumət qarşısında müəyyən edilmiş bütün hədəflər və verilən tapşırıqlar

bundan sonra da tam şəkildə, vaxtında və yüksək keyfiyyətlə yerinə yetiriləcəkdir.

2026-cı ildə qanunvericilik sahəsindəki məsuliyyətli fəaliyyətinizdə hər birinizə yeni uğurlar arzulayıram. Həmçinin, hörmətli deputatlar, qarşıdan gələn Novruz və Ramazan bayramları münasibəti ilə hər birinizi ürəkdən təbrik edir, cansağlığı və xoşbəxtlik arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Hörmətli həmkarlar, biz indi hesabatın müzakirəsinə başlayırıq. Xahiş edirəm, yazılın.

Hörmətli həmkarlar, 58 nəfər yazılıb. Musa Quliyev. Musa müəllim, buyurun. Sualınız var? Təklifdir, sualdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**Musa Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir. Mənim bir təklifim var. Bu gün həm hökumətin, həm də parlamentin həyatında əlamətdar bir gündür. 2025-ci ildə hökumətimizin fəaliyyəti barədə hesabatı müzakirə edəcəyik. Bizə olduqca ətraflı, geniş təhlilə əsaslanan həm geniş, həm də icmal hesabat təqdim olunubdur. Cənab Baş nazirin olduqca mükəmməl nitqini də dinlədik. Mən təklif edirəm ki, müzakirələr üçün çıxışlar zamanı 5-7 dəqiqə vaxt ayrılsın ki, deputatlarımız daha çox hökumətimizin fəaliyyəti barədə fikirlərini bölüşsünlər və öz seçicilərinin qaldırdıqları məsələləri hökumətə çatdırsınlar. Çıxışları 5-7 dəqiqə arasında təklif edirəm. Sağ olun.

**Sədrlik edən.** Hörmətli həmkarlar, Musa müəllim təklif etdi. Musa müəllim, əslində, ya 5, ya 7 dəqiqə.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təklif olunur ki, 5 dəqiqə. Mən təklifi səsə qoyuram, səs çoxluğu ilə qəbul ediləcək. Bugünkü iclasımız çox mühümdür, ona görə də, xahiş edirəm, əgər 5 dəqiqəyə razısınızsa, səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Səs çoxluğu ilə bizim bugünkü reqlamentimiz 5 dəqiqədir.

Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov**. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli millət vəkilləri və hörmətli qonaqlar. Mən də Nazirlər Kabinetinin 2025-ci ildəki fəaliyyəti ilə bağlı hesabatı məqbul hesab edirəm və səs verəcəyəm. Hörmətli cənab Baş nazirə çox ətraflı çıxışına görə də minnətdaram.

Hörmətli cənab Baş nazirin qeyd etdiyi kimi, 2025-ci ildə qlobal iqtisadiyyatdakı volatilliyin yüksək olmasına baxmayaraq, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar 2025-ci ildə ölkəmizdə iqtisadi artım tempinin qorunub saxlanılmasına imkan verdi. İqtisadi islahatlarda və xüsusən də 2025-ci ilin yekunlarında ən vacib məqamlardan biri məhz iqtisadi artımın qeyri-neft sektoru hesabına formalaşmasıdır. Belə ki, 2025-ci ildə neft-qaz sektorunda əlavə dəyər 1,6 faiz azalsa da, qeyri-neft-qaz sektorunda 2,7 faiz artım, bütövlükdə, ümumi iqtisadiyyatdakı artım tempinin qorunub saxlanılmasına imkan verdi. Bu isə

ondan xəbər verir ki, 2025-ci ildə iqtisadi artımda qeyri-neft-qaz sektoru drayverə çevrilmişdir.

Çox müsbət məqamlardan biri sənayedə qeyri-neft-qaz sektorunun payının yüksək olması və artım tempinin fərqlənməsidir. Belə ki, 2025-ci ildə sənayenin qeyri-neft-qaz sektorunda 5,5 faiz artım qeydə alınıb. Biz ümumi iqtisadi artımı, eyni zamanda, hətta qeyri-neft-qaz ÜDM-dəki artımla müqayisə etsək, bu, kifayət qədər ciddi bir rəqəmdir. Bu, eyni zamanda, ondan xəbər verir ki, 2025-ci ildə ekosistemin inkişafı iqtisadiyyatın strukturunun daha da təkmilləşdirilməsinə və sənaye sektorunun və xüsusən də sənayedə qeyri-neft-qaz sektorunun aparıcı istiqamətə çevrilməsinə imkan yaratdı. Təbii ki, 2025-ci ildə əldə edilən uğurlar 2026-cı ildə iqtisadiyyatın diversifikasiyası ilə bağlı siyasətin davam etdirilməsinə və fiskal gəlirlərdə, həm də ÜDM-də qeyri-neft-qaz sektorunun payının daha da artmasına imkan verəcək. Belə ki, 2026-cı ildə büdcə gəlirlərində qeyri-neft-qaz sektorunun payı 57 faiz, ÜDM-də qeyri-neft-qaz sektorunun payı isə 70 faizdən çox olacaq. Bu isə ondan xəbər verir ki, məhz 2025-ci ilin yekunları cənab Prezident tərəfindən müəyyənləşdirilmiş iqtisadiyyatın diversifikasiyası ilə bağlı hədəflərin 2026-cı ildə də uğurla davam etdirilməsinə imkan yaradacaq.

Hörmətli xanım sədrin, eləcə də cənab Baş nazirin qeyd etdiyi kimi, 2025-ci il, eyni zamanda, valyuta ehtiyatlarımızın artımı ilə müşahidə olundu. Cənab Prezidentin də qlobal forumun açılışı nitqində qeyd etdiyi kimi, məhz Azərbaycan rezervlərini daha risksiz və gəlirli sektorlara yönəldən, həm də dövlət rezervlərinin artım tempini qoruyub saxlayan ölkələrdəndir. 2025-ci ildə dövlət rezervlərimizin 20 faizə yaxın artması, 85,1 milyard dollara çatması, eyni zamanda, indi müşahidə edilən və

xüsusən 2025-ci və 2026-cı illərin geridə qalan aylarındakı qlobal və eləcə də regional geosiyasi təhdidlərin artması fonunda, həm də Azərbaycan iqtisadiyyatı üçün məhz iqtisadi baxımdan "təhlükəsizlik yastığı" formalaşdırır. Çünki Azərbaycan ÜDM-nin ümumi rezervlərdəki ümumi payından daha çox və ümumi rezervlərin ÜDM-dəki payına nisbətən daha yüksək nəticəyə malik olan azsaylı ölkələrdəndir. Belə ki, Azərbaycanda ümumi rezervlərin valyuta ehtiyatlarının ÜDM-ə nisbətən payı 12 faiz çoxdur. Bu da, təbii ki, "təhlükəsizlik yastığı" baxımından çox vacibdir. Cənab Baş nazirin qeyd etdiyi kimi, 2025-ci il həm də Qarabağın və Şərqi Zəngəzurun bərpası və eyni zamanda, intensiv məskunlaşma ilə yadda qaldı. O cümlədən, mənim təmsil etdiyim Füzuli rayonunda da bərpa, yenidənqurma işləri və bu istiqamətdə dövlət dəstəyinin artırılması intensiv şəkildə müşahidə olundu. Təbii ki, bu, həm də artıq 75 minə yaxın vətəndaşımızın işğaldan azad olunmuş ərazilərdə məskunlaşması anlamına gəlir.

Qeyd olunduğu kimi, 2026-cı il cənab Prezident tərəfindən "Şəhərsalma və Memarlıq İli" kimi qeyd olunub. O baxımdan xüsusən nəzərə alsaq ki, Bakının Baş Planına uyğun olaraq, Bakının yeniləşməsi və yenidənqurma işləri davam edir. O baxımdan həm də mən bu istiqamətdə kompensasiyaların verilməsində diferensial yanaşmanın nəzərə alınmasını və nisbətən az sahəsi olan evlərə kompensasiya ödənilən zaman fərqli əmsallardan istifadə edilməsini təklif etmək istərdim. Eləcə də cənab Baş nazirə minnətdarlığımı bildirmək istərdim ki, Füzuli rayonunda keçirilən illik hesabatda qeyd edilən bir sıra məqamlar, o cümlədən qayıdış qəsəbələrinin içməli su təminatı ilə bağlı məsələlər hökumətin

diqqətindədir. Xahiş etmək istərdim ki, bu istiqamətdə proseslərin daha da sürətlənməsi həyata keçirilsin.

Bütövlükdə, hesabatı dəstəkləyirəm və hökumətin işinə uğurlar arzulayıram. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Fazil Mustafa. Buyurun.

**Fazil Mustafa.** Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, media nümayəndələri. Bu hesabatla tanış oldum, yetərincə əhatəli bir sənəddir, hətta daha dəqiq anlaşılsın deyə, ayrıca icmal hesabat da hazırlanmışdır və bu da görülən işlərin mahiyyətini anlamaq baxımından bizim işimizi xeyli asanlaşdırır.

Öncə mən məhz böhran vəziyyətinin idarə olunmasında çevikliyə görə cənab Baş nazirə və bütün müvafiq icra qurumlarının rəhbərlərinə, əməkdaşlarına təşəkkürümü bildirmək istəyirəm. Naxçıvana İrandan pilotsuz uçuş aparatları ilə hücum baş verən kimi həm Bakıda, həm də Naxçıvanda bütün icra orqanları dərhal səfərbər oldular. Xüsusi ilə Naxçıvanda yerli icra hakimiyyəti orqanlarının hədəf olaraq seçilən ərazilərdə əhalinin çevik təxliyyəsi və resursların intizamlı səfərbərliyi istiqamətində fəaliyyəti olduqca təqdirəlayiqdir. Bu hadisə Azərbaycan cəmiyyətinə bir daha göstərdi ki, ölkəmizin ən prioritet məsələsi məhz təhlükəsizlikdir və onun da təmin olunmasında ölkə Prezidentinin kompromis qətiyyəti əsas rol oynayır. Hər dəfə 5 minillik tarixi ilə öyünən dövlətlərin ağıllı diplomatiya və xarici siyasət kursu aparmaması səbəbindən illərdir, formalaşdırdıqları hərbi və iqtisadi infrastrukturu bir neçə günün içində darmadağın edildi. Cəmi 35 illik müstəqillik tarixi olan bir dövlət isə öz məhdud resursları ilə həm ərazisini işğaldan azad etdi, həm

Amerika Birləşmiş Ştatları, Çin, Avropa Birliyi kimi dünya nəhəngləri ilə bütün layihələrdə boy göstərdi, həm də xaosa bürünmüş dünyada təhlükəsizliyini təmin edə bildi.

Vaxt amilini nəzərə alaraq, təmsil etdiyim seçki dairəsinin problemlərini önə çəkməyi zəruri hesab edirəm. Qeyd edim ki, ötən il qaldırdığım bir sıra məsələlərlə bağlı hörmətli Baş nazirin diqqətlə yanaşmasını və müvafiq göstərişlər verməsini də təqdirlə qarşılayıram. Təmsil etdiyim Sabunçu rayonunun Bakıxanov qəsəbəsində və eləcə də digər qəsəbələrində zirzəmisi su ilə dolu olan binalarla bağlı müəyyən işlər görülsə də, amma ciddi irəliləyiş baş vermədi. Qəzalı vəziyyətdə olan yüzlərcə binanın taleyi ilə bağlı müəyyən addımlar atılsa, müəyyən köçürmələr olsa da, amma yenə də əsas işin ağırlığı başqa vaxta, növbəti illərə ertələndi. Əminəm ki, dövlət büdcəsindən bircə manat vəsait xərcləmədən, özəl sektoru bürokratik basqıdan qorumaq şərti ilə yaxın 5 il müddətində ölkə ərazisində qəzalı bina söhbətinə son qoyula bilərdi. Sabunçu qəsəbəsinin kanalizasiya sistemi yetərli səviyyədə olmadığına görə, güclü yağış yağan kimi televiziyalar artıq tərəddüd etmədən kameralarını bu rayona göndərirlər. Avtomobil yolunun üzərində əməlli-başlı müştərək Balaxanı–Zabrat gölü yaranır. Drenaj yox, nə yağırsa, yolun üstünə toplanır və Allahın günəşi qurutmayınca insanlar günlərcə palçığa bulaşmış səkilərdə yürüyürlər.

Qeyd edim ki, Dövlət Neft Şirkətinə məxsus ərazilərin böyük əksəriyyəti Sabunçu rayonu ərazisindədir. Müstəqilliyimizi qazandığımız gündən başlayaraq bu ərazilərdə xeyli qanunsuz evlər, obyektlər tikilib. Ərazilərin boş qalmış xeyli hissəsində də artıq neft  çıxarılmır. Adətən biz büdcəyə vəsait qazandırmağın ən bəsit yolu olan vətəndaşın və sahibkarın

hesabına cərimə növlərinin genişləndirilməsi və məbləğinin artırılmasına üz tuturuq. Halbuki artıq neft çıxmayan ərazilərdə qanunsuz tikilmiş evlərin və obyektlərin özəlləşdirilməsindən büdcəyə daha əhəmiyyətli vəsait cəlb edə bilərik və vətəndaşın da, bütövlükdə, problemi həll edilmiş olar.

Artıq uzun müddətdir ki, burada nə torpağın təmizlənməsi gerçəkləşdirilir, nə 20–30 ildən artıq məskunlaşmış insanların evlərinin özəlləşdirilməsi həyata keçirilir, nə də o torpaqlarda geniş park massivi salınmasına təşəbbüs göstərilir. Aldığım məlumata görə yeni çəkilən Dərnəgül–“Sea Breeze” yolunun Balaxanıya yaxın hissəsində böyük bir park kompleksinin salınması nəzərdə tutulur. Əlbəttə, bu ideyanı alqışlayıram.  Eyni parkdan Balaxanı ilə Zabrat arası yolun sol tərəfində boş qalmış, neft çıxarılmayan geniş ərazidə də salınması imkanlarına baxılmasını hökumətdən xahiş edirəm. Real olaraq 150 minə yaxın əhalisi olan Zabrat qəsəbəsində nümunə göstərməyə bircə park tapa bilməzsiniz. Həm də bunu dövlətin maliyyə vəsaiti hesabına deyil, sahibkarları stimullaşdırmaqla etmək olar. Hər ərazidə sahibkara bir obyekt, bir müəssisə tikməyə, yaxud da bir iaşə müəssisəsi qurmağa imkan verilsə, o, həm parkı saxlayacaq, həm də büdcədən vəsait xərcləmək hesabına orada əhalinin də yaxşı istirahətini təmin edə biləcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Asif Əsgərov. Buyurun.

**Asif Əsgərov**. Çox hörmətli  xanım sədr, çox hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, həmkarlarım və media nümayəndələri. Bu gün biz Azərbaycan Respublikası hökumətinin 2025-ci il üzrə büdcə icrası və fəaliyyəti haqqında hesabatını dinlədik. 2025-ci il üzrə hökumətin fəaliyyət

hesabatı Azərbaycanın daha qüdrətli və iqtisadi baxımdan tam suveren dövlət modelinə keçidinin uğurlu mənzərəsini yaradır. Bu nailiyyətlərin əsas təməli xalqımızı bir yumruq kimi birləşdirən, hər bir iqtisadi və siyasi addımı milli maraqlarımızın zirvəsinə hesablanan möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik və uzaqgörən rəhbərliyidir. Dövlət başçısının həyata keçirdiyi müasir dövlətçilik kursu Azərbaycanı qlobal qeyri-müəyyənliklər dövründən inkişaf və sabitlik mərkəzi kimi dünyaya təqdim etmişdir.

Cənab Prezidentin rəhbərliyi ilə 2025-ci il ölkəmiz üçün həm beynəlxalq nüfuzun möhkəmlənməsi, həm də azad olunmuş torpaqlarımızın iqtisadi inteqrasiyası baxımından növbəti bir zəfər mərhələsi olmuşdur. Hesabatda öz əksini tapan yüksək göstəricilər və şaxələndirilmiş inkişaf dinamikası dövlət rəhbərinin müəyyən etdiyi strateji yol xəritəsinin hökumət tərəfindən böyük məsuliyyətlə icra olunmasının nəticəsidir.

Bu hesabat Azərbaycanın öz daxili gücü ilə nələrə qadir olduğunun bariz nümunəsidir. Məhz cənab Prezidentin fəaliyyəti sayəsində Azərbaycan bu gün dünyada öz iqtisadi modelini yaradan, heç bir xarici maliyyə institutundan asılı olmadan, nəhəng quruculuq işləri aparan qüdrətli bir dövlətdir.

Hesabatda nümayiş etdirilən maliyyə intizamı və şəffaflıq göstərir ki, hökumət dövlət başçısının tapşırıqlarını 2025-ci ildə də yüksək peşəkarlıqla icra etmiş, ölkəmizin həm iqtisadi, həm də strateji suverenliyini daha da möhkəmləndirmişdir.

Hörmətli həmkarlar, çıxışımda hesabatın bir neçə konseptual və strateji istiqamətinə toxunmaq istəyirəm. İlk olaraq diqqətinizi milli təhlükəsizlik və müdafiə sahəsinə yönəltmək istəyirəm. 2025-ci ilin hesabatında müdafiə xərclərinin səmərəli icrası diqqət çəkir. 44 günlük Vətən müharibəsində və

antiterror əməliyyatında əldə etdiyimiz şanlı Zəfər 2025-ci ildə həm də iqtisadi müstəvidə qorunmuşdur. Ordumuzun ən müasir texnologiyalar və hərbi sənaye kompleksimizin yeni istehsal sahələri hesabına genişlənməsi bizim qürur mənbəyimizdir. Hərbi qulluqçularımızın sosial təminatının daha da yaxşılaşdırılması istiqamətindəki ardıcıl addımlar hökumətin bu sahəni hər zaman diqqətdə saxladığını göstərir.

Digər məsələ Böyük Qayıdış və iqtisadi yenidənqurmadır. Ötən il azad olunmuş ərazilərdə icra olunan layihələr strateji əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş torpaqlarımızın – Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması bu gün Azərbaycan dövlətinin şərəf işidir. Biz orada, sadəcə, binalar ucaltmırıq, biz orada yeni həyat, yeni iqtisadi ekosistem yaradırıq. İcra olunan infrastruktur layihələri, “ağıllı kənd” və “ağıllı şəhər” konsepsiyaları, yeni açılan iş yerləri və təhsil ocaqları dövlətimizin iqtisadi qüdrətinin dünyaya nümayişidir. Heç bir kənar donor yardımı olmadan bu miqyasda quruculuq işləri aparmaq hər dövlətin gücü daxilində deyil.

Hesabatda yer alan mühüm fəaliyyət istiqamətlərindən biri də insan kapitalının inkişafı və sosial rifahdır. 2025-ci ilin hesabatında təhsil sahəsindəki islahatların davamlılığı xüsusi qeyd olunmalıdır. Müəllimlərin sertifikasiya prosesinin genişləndirilməsi, əməkhaqqı artımlarının tətbiqi, həmçinin xaricdə təhsil üzrə dövlət proqramlarının yeni mərhələsi gənclərimizin qlobal rəqabətə hazırlanması baxımından mühümdür. Sosial müdafiə xərclərinin hər il artırılması və pensiyaların indeksləşdirilməsi mexanizminin uğurlu icrası dövlətimizin vətəndaşına olan qayğısının real ifadəsidir.

Regional inkişaf və infrastruktur. Regionların sosial-iqtisadi inkişafı da aydın şəkildə diqqətə çatdırıldı. Dövlət investisiya proqramları çərçivəsində

paytaxtla yanaşı, bölgələrimizin də inkişafı balanslı şəkildə davam etdirilir. Seçicilərimin nümayəndəsi kimi mən də regionlarda gedən bu müsbət dəyişiklikləri yaxından müşahidə edirəm. Bilirik ki, dövlətimiz hər bir yaşayış məntəqəsinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün addım-addım planlar icra edir. Bu prosesin davamı olaraq, inanıram ki, cari büdcə ilində Zaqatala sakinləri üçün həyati əhəmiyyət kəsb edən qazlaşdırma prosesi, Kəpənəkçi kəndində qəzalı vəziyyətdə olan orta məktəbin tikintisi, Aşağı Tala kəndində Fövqəladə Hallar Nazirliyinin xüsusi sığınacağında yerləşən uşaq bağçasının inşası kimi məsələlər də öz müsbət həllini tapacaqdır.

Son olaraq qeyd etmək istəyirəm ki, dövlət başçısının müəyyən etdiyi "Güclü Azərbaycan" konsepsiyası hesabatda əks olunan hər bir rəqəmin, reallaşan hər bir infrastruktur layihəsinin və sosial islahatın əsas hərəkətverici qüvvəsidir.

2025-ci ilin hesabatında yer alan peşəkarlıq və maliyyə intizamı əminlik yaradır ki, formalaşmış idarəetmə təcrübəsi 2026-cı ildə də büdcənin səmərəli icrasını təmin edəcək.

Hörmətli plenar iclasın iştirakçıları, yaradılmış imkandan istifadə edib mənəvi dəyərlərimizin simvolu olan müqəddəs bayramlarımız münasibəti ilə hər birinizi təbrik edirəm. Novruz bayramı, mübarək Ramazan bayramı xalqımıza sülh, dövlətimizə tərəqqi və hər bir ailəyə bol ruzi-bərəkət gətirsin.

**Sədrlik edən.** Sağ olun.

Sahib Alıyev. Buyurun.

**Sahib Alıyev**. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, dəyərli hökumət üzvləri və həmkarlar. Bəşər tarixi üçün çox qısa sayılan müddətdə

formasiya, quruluş, hətta dövlət dəyişikliyi, məğlubiyyət və qələbə görən, fərqli geosiyasi reallıqlarla üzləşən biriləri olsaq da, son dörd ildə baş verənlər bizi belə heyrətləndirməyə bilmir. Beynəlxalq hüquq tam iflic vəziyyətdədir. Bir sıra dövlətlər sanki yarışa çıxıblar, kimin gücü nə qədər çatırsa, bir o qədər onu ayaq altına salıb tapdamağa çalışır ki, hazırda ən pis örnəklərini izləməkdəyik. Qonşumuzdakı iki böyük dövlət fərqli mahiyyət daşıyan savaş aparır, yaxud da ona cəlb edilib. Belə bir dönəmdə öz təhlükəsizliyini təmin etməklə yanaşı, regiona sülh gətirmək fantasmaqorik görünsə də, bu, reallıqdır. Bu reallığı XIII Qlobal Bakı Forumundakı çıxışında "regional təhlükəsizlik Azərbaycan üçün hər zaman bir nömrəli məsələ olub" deyən dövlətimizin başçısı cənab İlham Əliyev yaradıb. Ona görə də mən də hökumətin ötənilki fəaliyyətini qiymətləndirərkən ilk növbədə təhlükəsizlik məsələsinin üzərində dayandım.

Belə bir reallıq ortada ikən, yəni dünyanın bir-birinə dəydiyi vaxtda Azərbaycan Prezidenti ötən il sentyabrın 25-də BMT kürsüsündən deyirdi ki, uzun illər buradan ölkəmizə qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlikdən danışıb. Amma artıq Azərbaycan müharibəni udduğu kimi, sülhü də qazanıb və biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq.

Bəli, məhz ötən il Azərbaycan tarixinə sülhün qazanıldığı il kimi düşəcək. Bu sülhün qazanılması ilk baxışda Ermənistan üzərində tamamlayıcı qələbə təsiri bağışlasa da, əslində, burada məğlubiyyətə uğradılanlar regionda sülhdə qətiyyən maraqlı olmayan böyük dövlətlər idi. O böyük dövlətlərdən birinin Prezidentinin şahidliyi ilə ötən ilin avqustunda Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi paraflandı ki, bu, uğurlu xarici siyasətin əsl düsturudur.

Hökumətin hesabatında da əksini tapdığı kimi, məhz ikinci böyük güc – Çinlə hərtərəfli strateji tərəfdaşlıq anlaşmasından sonra Vaşinqtonun regionda sülhə verdiyi dəstək və Azərbaycan–ABŞ Strateji Tərəfdaşlıq Xartiyası üzərində işə başlanması dövlətimizin yeritdiyi xarici siyasətdə prioritetlərin, tərəfdaşların və zaman ardıcıllığının necə uğurla seçildiyinin növbəti təsdiqidir.

Məhz bu uğurlu xarici siyasətin nəticəsində Azərbaycan ötən il iki ayrı-ayrı dövlətlər birliyinin adına, belə demək mümkündürsə, bir növ düzəliş etdi. Söhbət bizim D-8-ə və C5-ə üzvlüyümüzdən gedir. D-8-ə 1997-ci ildən üzü bəri iqtisadi potensialı da, əhalisi də bizdən xeyli, hətta qat-qat çox olan dövlətləri deyil, nədən Azərbaycanı qəbul etmələrinin bir sirri var. O da uğurlu xarici siyasət və lider faktorudur.

Hökumətin fəaliyyətinin digər sahələri, iqtisadi və sosial sahələrlə bağlı dəyərli həmkarlarım danışdığından, mən ona toxunmayacağam və bütövlükdə, deyilənləri dəstəkləyirəm. Bir neçə kəlmə də rayonun problemləri haqqında danışmaq istəyirəm.

Hökumətin hesabatında göstərilir ki, ötən il, bütövlükdə, kənd təsərrüfatı bitkilərinin əkin sahəsi 2,8 faiz, dənli paxlalı bitkilərinki isə 4,2 faiz azalıb. Burada şoranlaşmanın rolu nə qədərdir və ümumiyyətlə, varmı, bilmirəm. Amma Ağdaşın timsalında dəqiq bilirəm ki, əkinə yararlı, sadəcə, su çatışmazlığından əl dəyilməyən 15,8 min hektardan artıq torpaq var. Həmin torpaqların suvarılması üçün cənab Prezidentin 2017-ci ildə verdiyi Sərəncama görə 24 milyon 791 min 195 manat vəsaitin ayrılması nəzərdə tutulmuşdu. Onun tən yarısı 6 il bundan öncə xərclənib və xeyli iş görülüb. Amma digər hissə ayrılmadığından, hər şey yarımçıq qalıb. Neçə ildir ki, milyonlarca vəsait xərclənən borular, nasos stansiyaları baxılmaz bir

vəziyyətdə al günün altında eroziyaya uğrayır. Ona görə də cənab Baş nazirdən xahişim budur ki, bu layihənin başa çatdırılması üçün lazım olan vəsaitin ayrılmasına dəstək versin.

Diqqətinizə görə təşəkkür edirəm. Digər məsələləri mən stenoqrama yazacağam.

**Sədrlik edən.** Çox sağ olun.

Vasif Qafarov. Buyurun.

**Vasif Qafarov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli Baş nazir, hökumət üzvləri və həmkarlar. Hörmətli Baş nazirin hesabatından da göründüyü kimi, 2025-ci il Azərbaycan üçün uğurlu bir il olub. Əlbəttə ki, əldə edilən bütün bu uğurların mərkəzində möhtərəm Prezidentimiz cənab İlham Əliyev dayanır. O, siyasi iradəsi, qətiyyətli mövqeyi, diplomatik çevikliyi və əzmkarlığı sayəsində yalnız Azərbaycanın deyil, bütün Cənubi Qafqazın taleyini və inkişaf perspektivini dəyişib. Dövlət başçımız ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etməklə yanaşı, Cənubi Qafqazda sülhün memarı, ədalətin təminatçısı və gələcəyin qurucusu olaraq müdrik lider adını tarixə qızıl hərflərlə yazıb.

Həmçinin Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan genişmiqyaslı islahatlar və həyata keçirilən kompleks tədbirlər nəticəsində ölkəmizdə makroiqtisadi sabitlik qorunub saxlanılıb, iqtisadi və sosial proqramlar icra edilib, iqtisadi artım təmin edilib və strateji valyuta ehtiyatları artıb.

2025-ci ildə ölkədə 129,1 milyard manat məbləğində ÜDM istehsal olunub. Orta illik inflyasiya 5,6 faiz olub. Ölkənin strateji valyuta ehtiyatları 2025-ci ildə 20 faizə yaxın artaraq 85,1 milyard ABŞ dollarını ötüb. Ölkənin strateji valyuta ehtiyatları xarici borcu 17 dəfədən çox üstələyib, əhalinin gəlirləri, pensiyalar artıb, rifah səviyyəsi yüksəlib. İşğaldan azad edilmiş

ərazilərin yenidən qurulması və bərpası istiqamətində böyük işlər görülüb. Bütün bunlar təqdirəlayiqdir. Hökumətin fəaliyyəti uğurlu olub.

Burada hökumətin hesabatı haqqında səslənən bütün müsbət fikirlərlə həmrəy olduğumu bildirirəm və təmsil etdiyim Lerik və Astara rayonlarında vətəndaşlar tərəfindən qaldırılan bir neçə məsələni diqqətinizə çatdırmaq istəyirəm.

Birinci, bildiyiniz kimi, Lerik və Astara rayonlarının böyük turizm potensialı var və bu potensial əsas etibarı ilə bu rayonların meşə fondu ərazilərində yerləşir. Hazırda meşə fondu ərazilərində yeni sahibkarlıq subyektlərinin fəaliyyətinə lisenziyaların verilməsi dayandırılıb. Bu da bölgədə yeni turizm obyektlərinin açılmasının qarşısını alır və bölgənin böyük turizm potensialının reallaşmasına imkan vermir. İndiyədək bu bölgədə fəaliyyət göstərən turizm obyektləri əhalinin məşğulluğunun təmin edilməsinə və ölkə iqtisadiyyatına mühüm töhfələr verib. Bunu nəzərə almağınızı və bölgədə turizm sahəsinə yeni investisiyaların cəlb edilməsi üçün meşə fondu ərazilərində yeni sahibkarlıq subyektlərinin fəaliyyətinə lisenziyaların verilməsini təmin etməyi xahiş edirəm.

İkinci, 1996-cı ildə həyata keçirilən aqrar islahat zamanı Astara rayonunun Pensər, Siyaku, Kakalos və Suparibağ ərazi inzibati dairələri üzrə 400 hektardan artıq ərazi 5000-ə yaxın ailə arasında bölüşdürülüb. Hər bir ailəyə 1–5 sot, bəzi hallarda 10 sota qədər torpaq sahəsi düşüb. Ən problemli məsələlərdən biri də odur ki, 1–5 sot torpaq alan ailəyə bu torpaq elə bir şəkildə ayrılıb verilib ki, bu torpaqdan istifadə etmək faktiki olaraq qeyri-mümkündür. 30–50 santimetr, ya 1 metr enində və 100, 150, 200 metr uzunluğunda, velosiped zolaqları şəklində verilən bu torpaq sahələrindən kəndli faktiki olaraq istifadə edə bilmir. Bu, mümkün də deyil.

Bu torpaqların hansısa bir sahibkar tərəfindən satın alınması da mümkün olmayıb. Nəticədə 30 ildir ki, bu torpaqlar istifadəsiz qalıb. Yaxşı olardı ki, bu torpaqların səmərəli istifadə olunması və əkin dövriyyəsinə qaytarılmasından ötrü onlar dövlət tərəfindən kompensasiya ödənilməklə torpaq sahiblərindən alınaraq dövlət mülkiyyətinə qaytarılsın və sahibkarlara icarəyə verilsin. Bu addımla 30 ildir, istifadəsiz qalan həmin torpaqlar əkin dövriyyəsinə qaytarıla bilər və ölkəyə fayda təmin edilə bilər.

Üçüncü, təmsil etdiyim Lerik rayonunda mövcud olan 3 ailə sağlamlıq mərkəzi, 39 tibb məntəqəsi və 22 həkim məntəqəsindən cəmi 2-si yeni tikilən binalarda yerləşir. Digərləri, demək olar ki, hamısı istismar müddətləri başa çatmış və qəzalı vəziyyətdə olan binalardır. Astara rayonunun Kakalos kənd tibb məntəqəsi də eyni vəziyyətdədir. Həmçinin Lerik rayonunda nəinki idman kompleksi, ümumiyyətlə, hansısa bir idman mərkəzinin olmaması, Lerik şəhər stadionunun da istifadəyə yararsız halda olması qəbullarda vətəndaşlar tərəfindən mütəmadi olaraq qaldırılan məsələlər sırasında yer alır.

Hörmətli Baş nazirdən növbəti illərin investisiya proqramlarında bu məsələlərin diqqətdə saxlanılmasını xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Vasif müəllim, Sizin o velosiped yollarına oxşatdığınız torpaq zolaqları, bu ölçülər dəqiqdir?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, təqdim edərsiniz sonra.

Hörmətli Əli müəllim söz istəmişdi. Əli müəllim, buyurun.

**Əli Əhmədov.** Çox sağ olun, Sahibə xanım. Hörmətli Baş nazir, nazirlər, hökumət üzvləri. Hər bir dövlətin və hökumətin vətəndaşlar

qarşısında öz üzərinə götürdüyü öhdəliklər sırasında ölkənin sabitliyinin, təhlükəsizliyinin və eyni zamanda, ictimai rifahın təmin edilməsi xüsusi rol oynayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda həm ölkənin, həm də vətəndaşın təhlükəsizliyinin təmin edilməsi istiqamətində səmərəli fəaliyyət və siyasət uğurla həyata keçirilməkdədir. İndiki narahat dünyamızda təhlükəsizliyin və sabitliyin nə qədər böyük dəyər kəsb etdiyini sübut etməyə heç bir ehtiyac yoxdur. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycan bir sabitlik adası statusunu və adını qürurla daşıyır və güman edirəm ki, bundan sonra da daşıyacaqdır.

İctimai təhlükəsizliyin və rifahın təmin edilməsi məsələsinə gəldikdə isə, səmimi şəkildə qeyd etmək istəyirəm ki, 2025-ci ildə Azərbaycan hökumətinin apardığı siyasətin nəticəsində Azərbaycan vətəndaşlarının rifah səviyyəsinin təmin edilməsi istiqamətində əhəmiyyətli işlər görülmüşdür və hökumətin bu sahədəki fəaliyyətini mən xüsusi fədakarlıq kimi qiymətləndirmək istərdim.

İndiki qlobal qeyri-müəyyənlik və qiymətlərin artması şəraitində əməkhaqlarının və pensiyaların artımını, eyni zamanda, iqtisadi sabitliyi təmin etmək heç də asan məsələ deyildir. Mən hesab edirəm ki, Azərbaycan hökumətinin əhalimizin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirdiyi siyasətin ən vacib istiqamətlərindən biri Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması və Böyük Qayıdış siyasətidir. Bu layihələrin həyata keçirilməsi nəticəsində Azərbaycan vətəndaşlarının böyük kəsiminin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşmaqdadır ki, bu da, bütövlükdə, əhalimizin həyat səviyyəsi

göstəricilərinin yüksəlməsində ifadəsini tapmış olur. Bütün bunlar, eyni zamanda, Nazirlər Kabinetinin bizə təqdim etdiyi hesabatda əksini tapmış göstəricilər, fəaliyyətin nəticələri 2025-ci ildə Azərbaycan hökumətinin kifayət qədər səmərəli fəaliyyət göstərməsi və fəaliyyətinin müsbət qiymətləndirilməsi üçün əsaslar verir. Güman edirəm ki, Milli Məclisin hər bir üzvü  hökumətin hesabatının qəbul olunması üçün səsini verəcəkdir.

Mən hörmətli Baş nazir, Sizin və hökumət üzvlərinin burada olmasından istifadə edərək vacib hesab etdiyim bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Məlum olduğu kimi, son bir neçə il ərzində Azərbaycanda əhalinin artım tempində bir azalma müşahidə olunmaqdadır. 2015-ci ildə Azərbaycanda 160 mindən çox uşaq doğulduğu halda, 2025-ci ildə bu göstərici 100 minin altında olubdur. 2015-ci ildə Azərbaycan məktəblərində 1,5–1,6 milyon uşaq təhsil alırdısa, güman edirəm ki, bu temp davam etsə, bir neçə ildən sonra bizim məktəblərimizdə oxuyanların sayı təxminən 1 milyon olacaq və bu da 50 minə yaxın müəllimin ixtisarı riskini yaradır.  Bir neçə 10 ildən sonra isə yəqin pensiyada olan əhali ilə iş qabiliyyətində olan əhali arasında nisbətdə ciddi dəyişikliklər baş verəcəkdir ki, bu da həm iqtisadiyyatımıza, həm də sosial siyasətimizə ciddi təsir göstərə bilər. Güman edirəm ki, 2026-cı ildə və ondan sonrakı illərdə, Əli müəllim, Sizin başçılığınızla hökumətimizin demoqrafik məsələlərə diqqəti artırılmış olacaqdır.

Fürsətdən istifadə edib bir məsələni də qısaca diqqətinizə çatdırmaq istəyirəm. Əli müəllim, təxminən 35–40 il bundan əvvəl Azərbaycanda Bakı şəhərində  kooperativ evlər tikilibdir və bu evlərə quraşdırılan liftlərin istismar müddəti çoxdan keçibdir. Bu cür quraşdırılan liftlərin sayı min ədəddir. Bu binalarda yaşayan insanların həmin liftləri dəyişdirməyə

imkanları çatmadığından, hesab edirəm ki, hökumət bu məsələyə müdaxilə etməsə, həmin liftlərin dəyişdirilməsi çox çətin bir problemə çevriləcəkdir. Eyni zamanda, çox qısa bir vaxtda risklər yarana bilər. Mən xahiş edirəm, bu məsələ vəsait tələb etsə də, 5 illik, ola bilər ki, 10 illik proqram çərçivəsində reallaşması üçün hökumət bir addım atsın. Güman edirəm, atacaqdır.

İnanıram ki, 2026-cı ildə hökumətimizin fəaliyyəti daha səmərəli olacaqdır, daha böyük nailiyyətlər əldə ediləcəkdir və bu istiqamətdə sizin hər birinizə uğurlar arzu edirəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim.

Kamal Cəfərov. Buyurun.

**Kamal Cəfərov.** Çox sağ olun. Hörmətli xanım sədr, cənab Baş nazir, hökumət üzvləri, əziz həmkarlar. Mən də hökumətin 2025-ci il üzrə hesabatını müsbət qiymətləndirirəm və hesabatda rəqəmsal inkişafla bağlı görülən işlərə siyasi qiymət vermək istəyirəm.

Rəqəmsal inkişaf və sosial innovasiyalar uzun müddətdir, Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub. Həm dövlət xidmətləri, həm də elektron xidmətlər sahəsində ciddi nailiyyətlərimiz olub. 2024-cü ildən başlayaraq rəqəmsal inkişaf Azərbaycanın strateji hədəflərindən biri kimi müəyyən edilmişdir. 2024-cü ildə Prezident və parlament seçkilərindən sonra cənab Prezident İlham Əliyev məhz burada rəqəmsal inkişafı və savadlılığı hətta milli ideoloji inkişaf səviyyəsinə qaldıraraq gələcəyə baxışını açıqladı. 2025-ci ildə Rəqəmsal İnkişaf Konsepsiyası təsdiq edildi.

Əlbəttə, bu gün Azərbaycanın süni intellekt əsaslı rəqəmsal inkişaf üçün çox böyük üstünlükləri və ciddi imkanları var. Ən birinci üstünlüyümüz Azərbaycan Prezidenti cənab İlham Əliyevin uzaqgörən və qətiyyətli liderliyidir, strateji sabitliyimizdir. Necə ki, vaxtında onun soyuqqanlı və strateji qərarları nəticəsində Azərbaycanın coğrafi yerləşməsini və milli resurslarımızı strateji üstünlüyünə çevirdi, ölkəmizi, dövlətçiliyimizi gücləndirdi, torpaqlarımızı işğaldan azad etdi və bu gün də qarşıya qoyduğumuz bütün hədəflərimizə çatmağımızı şərtləndirən ən birinci və mühüm amil onun liderliyi və xalq–iqtidar birliyidir.

İkinci üstünlüyümüz qlobal korporasiyalarla əməkdaşlıq təcrübəmizdir. Bizim süni intellekt və texnologiya nəhəngləri ilə işləmək üçün kifayət qədər böyük institusional bazamız var. Xüsusi ilə neft və enerji sektorunda transmilli şirkətlərlə 30 illik uğurlu əməkdaşlıq təcrübəmiz bu gün rəqəmsal transformasiya sahəsinə də öz müsbət təsirini göstərir.

Üçüncü üstünlüyümüz Azərbaycanda olan müsbət investisiya mühitidir. Son 20 il ərzində ölkəmizə yatırılan 350 milyard ABŞ dolları məbləğində sərmayə Azərbaycanın necə etibarlı bir tərəfdaş olduğunun ən əyani və beynəlxalq göstəricisidir.

Ciddi imkanlarımız isə süni intellekt arxitekturasına hazırlığımızla bağlıdır. Süni intellekt arxitekturası 5 əsas qatdan ibarətdir: enerji, hesablama çipləri, virtual yaddaş, süni intellekt modelləri və tətbiqlər. Bu zəncirin ən həlledici və təməl həlqəsi məhz enerji məsələsidir. Bu gün qürurla deyə bilərik ki, regionda Azərbaycan özünü enerji ilə tam təmin edən, qonşu və Avropa ölkələrinə enerji ixrac edən yeganə dövlətdir. Vaxtında Azərbaycanın bərpa olunan yaşıl enerjiyə qoyduğu böyük

investisiyalar bizim bu gün və gələcək texnoloji və rəqəmsal uğurlarımızı şərtləndirəcək əsas amillərdən biridir.

Məlumatların təhlükəsizliyi məsələsinə gəldikdə isə, ölkəmizdə artıq milli "Hökumət buludu" fəaliyyət göstərir. Bu da rəqəmsal suverenliyimizin təminatıdır.

Digər qatları təşkil edən süni intellekt modelləri və tətbiqləri üzrə isə aparıcı, qlobal, xüsusən də Amerika şirkətləri ilə sıx əməkdaşlıq edirik. Təsadüfi deyil ki, ABŞ ilə imzaladığımız Strateji Tərəfdaşlıq haqqında Xartiyanın ən mühüm istiqamətlərindən biri məhz süni intellektin inkişafı məsələsidir. Eyni zamanda, Çin və İsrail ilə imzaladığımız sənədlər də süni intellektlə bağlı gördüyümüz işlərə böyük töhfə verə bilər.

Əlbəttə, bütün bu infrastrukturun mərkəzində insan faktoru dayanır. Yeni dövrün çağırışlarına cavab verən, rəqəmsal savadlı Azərbaycan gəncliyi bu arxitekturanın əsas hərəkətverici qüvvəsi olacaq. Bütün bunlardan çox aydın görünür ki, süni intellekt əsaslı rəqəmsal transformasiya üçün ciddi siyasi iradəmiz, strateji üstünlüklərimiz və imkanlarımız var. Bu nəhəng potensialın vahid dövlət siyasəti çərçivəsində, sinxron və sürətlə idarə olunması əsas tələbdir. Məhz bu məqsədlə Rəqəmsal İnkişaf Şurası yaradılıb və bu şuraya Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanımın sədr təyin edilməsi isə rəqəmsallaşmanın ən yüksək icra səviyyəsinə qaldırılmasıdır.

Əminəm ki, Mehriban xanımın rəhbərliyi ilə fəaliyyət göstərən bu şura ölkəmizdə innovasiya ekosistemini tamamilə yeni mərhələyə daşıyacaq. Həm Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, həm də digər məsul qurumlar birgə əməkdaşlıq şəraitində çalışaraq iqtisadiyyatımızın, dövlətçiliyimizin

rəqəmsal dövrdə toxunulmazlığını, rəqabətə davamlılığını və qüdrətini təmin edəcək.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Azər Badamov. Buyurun.

**Azər Badamov.** Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, hörmətli cənab Baş nazir, hökumət üzvləri və həmkarlar. Cənab Baş nazirə hesabatı ətraflı təqdim etdiyinə görə təşəkkür edirəm.

Bəli, ölkəmizin iqtisadi dayanıqlılığı qlobal iqtisadi və geosiyasi gərginliklər fonunda təmin olunur. Belə ki, son illərdə dünya iqtisadiyyatında müşahidə olunan qeyri-sabitlik, enerji bazarlarında dəyişkənlik və regional gərginliklər bir çox ölkələrdə iqtisadi riskləri artırmışdır. Bu çətin şəraitdə Azərbaycan iqtisadiyyatı makroiqtisadi sabitliyi qorumaq, dövlət büdcəsinin dayanıqlılığını təmin etmək və sosial proqramları icra etmək baxımından müsbət nəticələr göstərmişdir. Təbii ki, iqtisadiyyatın davamlı inkişafının qorunması və planlaşdırılmış bütün proqramların icrası ölkədə aparılan iqtisadi siyasətin uğurudur.

Hörmətli həmkarlar, hesabatı dəstəkləməklə yanaşı, təmsil olunduğum Qusar rayonunda icra olunan mühüm sosial-iqtisadi layihələrə görə aidiyyəti sahələrin rəhbərlərinə öz təşəkkürümü bildirmək istəyirəm. 2025-ci ildə Qusar rayonunda çoxdan həlli gözlənilən elektrik şəbəkəsinin yenidən qurulması, qaz çəkilişi, yol infrastrukturunun yaxşılaşdırılması və təhsil müəssisələrinin modernləşdirilməsi üzrə əhəmiyyətli layihələr icra olunub və davam etdirilir.

Rayon əhalisi Qusarın inkişafına olan xüsusi diqqət və qayğıya görə cənab Prezident İlham Əliyevə öz təşəkkürünü bildirir.

Hörmətli həmkarlar, iclasımızda hörmətli hökumət üzvlərinin olduğunu nəzərə alaraq, bir neçə vacib məsələni də diqqətinizə çatdırmaq istəyirəm.

Birinci məsələ Qusarda yerləşən "Bənövşə gölü" su anbarı ilə bağlıdır. Qaldırdığımız bu məsələyə müsbət yanaşıldı və bu gün anbarın yenidən qurulması və bərpası işləri sürətlə aparılır. Təşəkkürümü bildirirəm. Amma su anbarı doldurulandan sonra Qusar şəhəri ətrafındakı 7 kəndin 11 min sakininin su təminatı həyata keçirilməlidir. Layihəni vaxtında başa çatdırıb sakinləri su ilə təmin etmək üçün su anbarından həmin kəndlərə xətlərin çəkilməsinin də plana salınması vacibdir.

Digər bir məsələ Qusar şəhər stadionunun yenidən qurulması ilə bağlıdır. Stadionla bağlı məsələnin həll olunması üçün çoxlu müraciətlər etmişdik və hökumətin iclaslarında diqqətinizə çatdırmışdıq. Nəhayət, hüquqi şəxs tərəfindən özəlləşdirilmiş stadion Gənclər və İdman Nazirliyinin balansına qaytarıldı. Məlumat üçün bildirim ki, stadionun yenidən qurulması, bərpası işləri, demək olar, əsasən, beton karkas işləri başa çatıb.  Hörmətli gənclər və idman naziri də yerindəcə baxış keçirərək vəziyyətlə tanış olub. Amma müəyyən səbəblər üzündən tikintinin davam etdirilib başa çatdırılması üçün işlərə başlanılması gecikir. Qusar rayonunun futbolsevərləri və sakinləri stadionun yenidən qurulub bərpa olunmasını gözləyirlər və hər dəfə qəbullar və görüşlərimiz zamanı bu məsələni qaldırırlar.

Hörmətli cənab Baş nazirdən Qusarla bağlı bu iki məsələnin də həll olunmasına köməklik göstərilməsini  xahiş edirəm.

Hörmətli həmkarlar, həm də hörmətli səhiyyə nazirinin iclasda iştirakını nəzərə alaraq, tibb sahəsi üzrə çoxsaylı müraciətlər olunan bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm.

Müəyyən səbəblərə görə qonşu ölkələrdən pənah gətirmiş və ölkəmizdə işləmək arzusunda olan yüzlərcə həkim işlə təmin olunmaqda problem yaşayır. Çünki ixtisas diplomlarının tanınması üçün Səhiyyə Nazirliyinə təqdim ediləndə klinik ordinatura pilləsinin bizim təhsil sistemimizlə uyğun gəlmədiyi bildirilir. Amma bu gün ölkədə işləyən, orta yaş həddindən yuxarı yaşda olan həkimlərin əksəriyyəti ordinatura təhsillidir və çox yaxşı mütəxəssislər kimi fəaliyyət göstərirlər. Bir tərəfdən, Azərbaycanda həkim çatışmazlığı var, digər tərəfdən isə, peşəkar həkimlər işlə təmin oluna bilmirlər. Təklif edirəm ki, burada xüsusi bir humanist yanaşma edilərək, həmin həkimlərin peşə ixtisasına yiyələnmə səviyyəsi imtahanla yoxlanılaraq diplomları tanınsın. Həm də ixtisasları klinik ordinatura səviyyəsində olduğuna görə işləməyə icazə verilmədiyindən, 8 il təhsil almış bir həkimə işləmək üçün yenidən 5 il oxumaq tələb olunur. Halbuki onların 2 illik ordinatura təhsili var və yenidən rezidentura pilləsini oxuduqda oxuduqları həmin ordinatura pilləsinin 2 ilinin, heç olmasa, nəzərə alınması vacibdir. Çünki rezidenturada 2 illik ordinatura proqramını yenidən, təkrarən oxumalı olurlar. Bu da eyni fənlərin təkrarlanması və illərin əlavə itirilməsi deməkdir.

Sonda qaldırdığımız məsələlərə həssaslıqla yanaşdığına görə cənab Baş nazirə, hökumət üzvlərinə bir daha təşəkkür edirəm və fəaliyyətlərində uğurlar arzulayıram. Həm də qarşıdan gələn bayramlar münasibəti ilə...

**Sədrlik edən.** Sağ olun.

Jalə Əliyeva. Buyurun.

**Jalə Əliyeva.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, hörmətli həmkarlar və hörmətli media nümayəndələri. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2025-ci

ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş hesabatı ölkəmizin inkişaf strategiyasının ardıcıl və məqsədyönlü şəkildə həyata keçirildiyini bir daha nümayiş etdirir. Hesabatda təqdim olunan faktlar göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət Azərbaycanın dayanıqlı inkişafını, iqtisadi gücünün möhkəmlənməsini və sosial rifahın yüksəlməsini təmin edir.

2025-ci ilin nəticələri Azərbaycan iqtisadiyyatının qlobal iqtisadi çətinliklərə baxmayaraq, sabit inkişaf trayektoriyasını qoruyub saxladığını bir daha nümayiş etdirir. Ümumi daxili məhsulun artımı, qeyri-neft sektorunun genişlənməsi və investisiya mühitinin yaxşılaşması ölkənin iqtisadi dayanıqlılığının əsas göstəricilərindəndir. Xüsusi ilə qeyri-neft sənayesinin və kənd təsərrüfatının inkişafı iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurlu nəticələrini ortaya qoyur.

Hesabatda diqqətçəkən əsas məqamlardan biri sosial siyasətin gücləndirilməsi ilə bağlıdır. Əhalinin sosial müdafiəsinin artırılması, əməkhaqlarının və pensiyaların yüksəldilməsi, yeni sosial proqramların həyata keçirilməsi və məşğulluq imkanlarının genişləndirilməsi dövlət siyasətinin mərkəzində, hər zaman olduğu kimi, insan amilinin dayandığını göstərir. Bu istiqamətdə aparılan islahatlar vətəndaş rifahının yüksəldilməsinə mühüm töhfə verir.

2025-ci ilin hesabatında işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işləri də xüsusi yer tutur. Bu proseslər yalnız Qarabağın və Şərqi Zəngəzurun yenidən dirçəldilməsi deyil, bu, həm də ölkənin ümumi iqtisadi inkişafına yeni imkanların yaranması deməkdir. İnfrastruktur layihələrinin fasiləsiz həyata keçirilməsi, davamlı olaraq yeni yaşayış məntəqələrinin salınması, iqtisadi fəaliyyətin sürətlə bərpası

sayəsində həmin ərazilərimiz nəhəng bir inkişaf, bərpa və quruculuq yolu keçməkdədir.

Hesabatda enerji siyasəti də mühüm istiqamətlərdən biri kimi təqdim olunur. Azərbaycanın enerji təhlükəsizliyində oynadığı rol getdikcə daha da güclənir. Xüsusi ilə yaşıl enerji sahəsində həyata keçirilən layihələr ölkəmizin gələcək inkişaf modelində mühüm yer tutur və Azərbaycanın beynəlxalq enerji tərəfdaşlığında mövqeyini daha da möhkəmləndirir.

Təqdim edilən hesabatda rəqəmsallaşma, innovasiya və texnoloji inkişaf da hökumətin prioritet istiqamətləri sırasında qeyd olunmuşdur. Dövlət xidmətlərinin elektronlaşdırılması, rəqəmsal iqtisadiyyatın inkişafı və yeni texnologiyaların tətbiqi idarəetmənin səmərəliliyini artırmaqla yanaşı, vətəndaş məmnuniyyətini də durmadan yüksəltməkdədir.

2025-ci ilin hesabatı, əslində, yalnız görülən işlərin xronikası deyil, həm də Azərbaycanın gələcək inkişaf yolunun aydın xəritəsidir. Bu hesabat dövlət idarəçiliyinin effektivliyinin, həyata keçirilən islahatların nəticəliliyinin və ölkəmizin strateji inkişaf istiqamətlərinin və bütün bölgələrimizin dirçəlişinin aydın güzgüsüdür.

Yeri gəlmişkən, mən təmsilçisi olduğum Zərdab, Kürdəmir və Ucar rayonları ilə bağlı təkliflərimizə, müraciətlərimizə həssas yanaşdıqlarına və önümüzdəki illərdə həyata keçiriləcək layihələrdə həmin məsələlərin bir hissəsini nəzərə aldıqlarına görə hökumətimizə, əlaqədar təşkilatlara təşəkkür etmək istəyirəm. Əminik ki, hələlik həllini gözləyən digər məsələlərimiz də yaxın vaxtlarda öz müsbət həllini tapacaqdır. Qətiyyətlə deməliyik ki, həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan bundan sonra da regionun güclü və sürətlə inkişaf edən dövlətlərindən biri kimi mövqeyini daha da möhkəmləndirəcəkdir.

Mən bu əhəmiyyətli hesabatı dəstəkləyirəm, ona səs verəcəyimi bildirirəm. Eyni zamanda, qarşıdan gələn əziz bayramlarımız – Novruz və Ramazan bayramları münasibəti ilə hər birinizi təbrik edir, müzəffər Prezident İlham Əliyevin rəhbərliyi ilə getdiyimiz zəfər yolunda ölkəmizə və xalqımıza daim uğur, əmin-amanlıq, sabitlik, firavanlıq arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Nazirlər Kabinetinin, hökumətin parlament qarşısında hesabatı artıq parlamentimizin və dövlətçiliyimizin çox gözəl bir ənənəsinə çevrilib. Əslində, parlamentlə hökumətin əlaqələri çox sıxdır. İl ərzində 3 dəfə biz hökumətlə tam tərkibdə görüşürük – büdcə müzakirəsində, hökumətin hesabatında, ilin axırında ötən ilə yekun vurulmasında.

Digər tərəfdən, deputatlar vaxtaşırı birbaşa Nazirlər Kabinetinə və yaxud ayrı-ayrı nazirlərə müraciət edib bu və ya digər məsələnin həllinə də çalışırlar. Göründüyü kimi, hökumət və parlament çox sıx şəkildə işləyirlər.

Bizə verilən hesabatda, eyni zamanda, hörmətli Əli müəllimin qarşımızdakı çıxışında biz ayrı-ayrı rəqəmlər eşitdik. Mən hesab edirəm ki, bu rəqəmlər cənab Prezidentin iqtisadi siyasətinin uğurlu olduğunun, ölkəmiz qarşısında duran məsələlərin mərhələ-mərhələ həll edildiyinin bir daha göstəricisidir. Nəticələr isə siyasi cəhətdən çox uğurlu görünə bilər.

Azərbaycan ayaq üstündə möhkəm dayanıb. Azərbaycan heç bir ölkənin ciddi dəstəyi olmadan özü öz problemlərini həll edə bilir. Ümumi daxili məhsulumuz ildən-ilə artır. Hansı ölkə istəməz ki, onun bu rəqəmdə yüksək göstəriciləri olsun? Xaricə ixracımızda qeyri-neft sektorunun payı

durmadan artır. Büdcəyə daxilolmada qeyri-neft sektorunun payı durmadan artır. Hansı ölkə istəməzdi ki, bunlar olsun? Amma bunlar həyata keçir.

Azərbaycanın milli valyutası olan manat stabildir. Bunun özü də çox ciddi bir göstərici sayıla bilər. Hər il həm pensiyalar, həm də əməkhaqqının artımı barəsində biz məlumatlar eşidirik və bu, real həyatda da görünür. İstənilən ölkə, o cümlədən Azərbaycanın qarşısında duran məsələlər də uğurla həll edilir. Bizim üçün əsas məsələ suverenliyimizin, təhlükəsizliyimizin təmin edilməsidir. Ölkəmizin həm şimalında, həm də cənubunda hərbi əməliyyatlar getdiyi halda Azərbaycanda təhlükəsizlik var, Azərbaycanda sabitlik var. Bir çox ölkələr bu gün İrandan öz səfirliklərini çıxararaq Bakıda fəaliyyət göstərmələrini Azərbaycandan xahiş etmişlər. Minlərcə digər ölkə vətəndaşlarının, – axırıncı rəqəm 60-dan çox idi, – Azərbaycan vasitəsi ilə təhlükəsiz keçməsi təmin edilib. Dünənə qədər bizi bəzən əsassız tənqid edən ölkələrin nümayəndələri Azərbaycana müraciət edərək öz vətəndaşlarının təhlükəsizliyinin təminatçısı olmasını xahiş edirlər və bu da həyata keçirilir.

Ən vacib məsələlərdən biri işğaldan azad olunan ərazilərin bərpa edilməsi və keçmiş məcburi köçkünlərin geri qayıtmasıdır. Qısa zamanda artıq 75 minə qədər insan ya geri qayıdıb, ya da orada işləyir. Nəzərə alsaq ki, ilk illərdə bütün fəaliyyət, əsasən, infrastrukturun yenidən qurulmasına, minalardan təmizlənməyə gedirdisə, bundan sonra artıq insanların sürətlə geri qayıtması baş verəcəkdir.

Səhiyyədə ciddi dəyişikliklər var. İldən-ilə tibbi sığortanın əhatə etdiyi müalicə kateqoriyası artır. Bu da, əlbəttə ki, insanların sağlamlığının təmin edilməsinə, insan ömrünün uzadılmasına səbəb olur.

Təhsildə müəyyən nəticələr var. Artıq 9 universitetimiz dünyanın ən yaxşı min universitetinin siyahısındadır. İnanıram ki, nə vaxtsa bu gün Azərbaycan təhsilinin flaqmanı olan ADA Universitetinin, eyni zamanda, qürur yerimiz olan Qarabağ Universitetinin də adı nəinki min universitetin arasında çəkiləcək, gələcəkdə bizim daha böyük məqsədlərimiz var ki, bəlkə də onlara çatacağıq.

Ümumən götürdükdə, hökumətin işlədiyini, cənab Prezidentin qarşıya qoyduğu məqsədlərin yerinə yetirilməsində fəaliyyətini görürük. Mən bu fəaliyyətə görə hörmətli cənab Baş nazirimiz Əli müəllimə təşəkkür edirəm, hökumət üzvlərinə təşəkkür edirəm və qarşıda duran məsələlərin həllində onlara daha böyük uğurlar arzu edirəm.

**Sədrlik edən.** Sağ olun.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Hörmətli sədr, çox sağ olun. Cənab Baş nazir, əziz həmkarlar, hörmətli hökumət üzvləri və qonaqlar. Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti istər büdcə intizamı, istər iqtisadiyyatın şaxələndirilməsi, istər elektron xidmətlər, rəqəmsallaşma və süni intellekt məzmunlu müasir standartlara keçid, istər sosial islahatlar, istərsə də strateji planlaşma baxımdan kifayət qədər yüksək qiymətləndirilməlidir.

Düzdür, müzakirələrdə hökumətin gəlir və xərclərinin uğurla realizə edilməsi, fiskal siyasətin təkmilləşdirilməsi, maliyyə-kredit və pul siyasətinin, iqtisadi və sosial təminat proqramlarının həyata keçirilməsi kimi məsələlərə haqlı olaraq xüsusi köklənirik. Amma həm də nəzərə alaq ki, Prezidentin icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədi ilə yaradılmış yuxarı icra orqanı kimi Nazirlər Kabinetinin iş qaydasını dövlət başçısı müəyyənləşdirir və hökumətin fəaliyyəti qiymətləndirilərkən

möhtərəm Prezidentin çoxvektorlu xarici siyasət kursundan ölkədə siyasi və bütövlükdə, sosial mühitə, sabitliyə, ordu quruculuğundan mədəni-humanitar fəaliyyətin bütün aspektlərinə qədər əhatələmək mümkündür.

Hörmətli iclas iştirakçıları, beynəlxalq hüquq qaydalarının işləmədiyi, müharibələrə münaqişələrin həlli üsulu kimi baxıldığı bir dövrdə sülhün, ictimai qaydanın və ölkə daxilində sabitliyin təmin olunduğu təhlükəsiz şəraitə nail olmadan, hər hansı iqtisadi inkişafın əhəmiyyətindən bəhs oluna bilməz.

Düzdür, Azərbaycanda ictimai-siyasi sabitlik Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra, anarxiya və özbaşınalığa, ölkəni parçalama cəhdlərinə son qoyması ilə uzun bir dövrdür ki, təmin olunub. Sonrakı periodlarda isə cənab İlham Əliyevin qətiyyəti ilə “ərəb baharı” və “rəngli inqilablar” kimi mənfur niyyətlərin qarşısının alınması ilə təhlükəsizliyi daha da möhkəmləndirmişik. Lakin etiraf edək ki, müharibə şəraitinin davam etməsi hər zaman daxili sabit mühit üçün təhdid yaradıb. Üstəlik, ölkə daxilində xarici dövlətlərin kəşfiyyat xidmətlərinin alətinə çevrilmiş radikal ünsürlərin, söyüşü alnına yazılmış “mühacir müxalifət”in anti-Azərbaycan fəaliyyəti sistemli şəkildə mütəmadi davam edib.

Eyni zamanda, Ermənistan hətta kapitulyasiya aktından sonrakı beş il belə sülhdən yayınmağa çalışıb. Lakin cənab İlham Əliyevin formulu, XIII Qlobal Bakı Forumunda da ifadə etdiyi kimi, çox sadədir, “sülh və ədalət uğrunda güclü siyasi iradə, cəsarət və sadiqlik nümayiş etdirmək kifayətdir ki, məqsədə nail olunsun”.

Bu mənada 2025-ci il iqtisadi inkişafın, ictimai-siyasi sabitliyin dayanıqlılığının daha etibarlı təmini üçün keçid dövrü olub. Məhz ötən il cənab İlham Əliyevin şərtləri əsasında formalaşmış sülh sazişinin mətninin

Vaşinqtonda paraflanması ilə de-fakto sülh dövrünə qədəm qoymaqla Azərbaycan bütöv bir eranı arxada qoymuş oldu. Ermənistanla düşmənçilik ritorikasının ticari tərəfdaşlıqla əvəz olunmasına yönələn cəsarətli bir yol, bütövlükdə, regionun taleyini dəyişməkdədir.

Üstəlik, əvvəlki dövrlərdən fərqli olaraq dünyanın Birləşmiş Ştatlar kimi super gücü artıq Azərbaycan qarşısında dayanmayıb. O cümlədən iki gün öncə Avropa İttifaqı Şurasının Prezidentinin səfəri çərçivəsində qəbul edilən bəyanatın məzmunu da göstərir ki, artıq avrostrukturlar da Azərbaycanla əməkdaşlığın anti-Azərbaycan davranışlardan daha faydalı olması reallığını başa düşüblər. Həmçinin iki gün öncə Rusiya Prezidentinin Azərbaycan Prezidentinə zəng etməsi və müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətin gələcək inkişafında qarşılıqlı niyyətin təsdiqlənməsi bizdən qaynaqlanmayan daha bir problemin arxada qalması kimi qiymətləndirilə bilər. Əlbəttə, bütün bunlar cənab İlham Əliyevin milli maraqların təmin olunması ilə müşayiət olunan növbəti böyük zəfəridir.

Amma qeyd olunanlar fonunda hərdən mediada, sosial mediada elə uğursuz yanaşmalara şahidlik edirik ki, insan, sadəcə, təəssüf edir. Çox təəssüf ki, bu gün bəzən siyasi səviyyədə belə sağlam tənqidi bir çox hallarda siyasi qeybət və ucuz qisasçılıq əvəz edir. Kim törətdiyi əməllərə görə mühakimə olunur, kim həyatda, siyasətdə özünü sübut edə bilmir, kim müstəqil görünmək arzusundadır, hakimiyyəti hədəf alır. Amma müasir reallıqda tənqid müstəqil və cəsarətli şəxs olmaq göstəricisi sayıla bilərmi?

Bu gün bir azərbaycanlı üçün ən cəsarətli davranış açıq formada təqdir etməyi bacarmaqdır. Bir çox hallarda xarici xüsusi xidmət orqanlarının tezislərindən asılı olan siyasi dairələrin populizmi, o cümlədən sosial media qaragüruhunun sürü təfəkkürü ilə hücumları fonunda öz dövlətinin yanında

dayandığını açıq formada ifadə edə bilmək, Zəfərin, sabitliyin, təhlükəsizliyin önəmini etiraf edə bilmək, inkişafı, tərəqqini görmək və dilə gətirə bilmək, əslində, ən böyük cəsarətdir.

Hörmətli iclas iştirakçıları, qeyd edilənlər fonunda hesabatı dəstəklədiyimi bildirirəm və növbəti fəaliyyət dövründə hökumətə fəaliyyətində uğurlar arzu edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Tural Gəncəliyev. Buyurun.

**Tural Gəncəliyev.** Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli millət vəkilləri və hökumət üzvləri. 2025-ci il Azərbaycanın həm beynəlxalq siyasətində, həm də ölkədaxili inkişaf sahələrində önəmli uğurlar əldə etdiyi bir il kimi yadda qalmışdır.

Ölkənin həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində bir sıra mühüm diplomatik nailiyyətlər əldə edilmişdir. 2025-ci il avqustun 8-də ABŞ tərəfi, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Baş nazirinin iştirakı ilə keçirilən Vaşinqton Sammiti, bütövlükdə, Cənubi Qafqaz üçün çox önəmli idi. Sammitdə Azərbaycan və Ermənistan arasında sülh sazişinin mətninin ilkin olaraq razılaşdırıldığı və paraflandığı elan edildi və bu, münaqişənin həlli istiqamətində mühüm addım hesab olunur. Tərəflər həmçinin ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılması ilə bağlı birgə müraciət etməyə razılaşdılar və bu da Qarabağ münaqişəsi dövrünün siyasi mexanizmlərinin faktiki olaraq bağlanması deməkdir.

Sammitdə regionda nəqliyyat və kommunikasiya xətlərinin açılması, xüsusi ilə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında əlaqənin təmin olunması məsələsi dəstəkləndi. Ümumilikdə, Vaşinqton Sammiti Azərbaycan üçün həm Ermənistanla sülh prosesinin irəliləməsi, həm də

ABŞ ilə siyasi və strateji əməkdaşlığın yeni mərhələyə keçməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

2025-ci ildə, eyni zamanda, Azərbaycan ilə Çin Xalq Respublikası arasında münasibətlərin daha da möhkəmləndirilməsi istiqamətini qeyd etmək lazımdır. Bu baxımdan mühüm addımlar atıldı. Hərtərəfli strateji tərəfdaşlıq haqqında birgə bəyannamə imzalandı. İki ölkə arasında iqtisadi əməkdaşlıq genişlənmiş, xüsusi ilə nəqliyyat-logistika, enerji sahələrində tərəfdaşlığın inkişafına xüsusi diqqət yetirilmişdir.

2025-ci ildə Azərbaycan, eyni zamanda, beynəlxalq siyasi və iqtisadi platformalarda mövqeyini daha da gücləndirərək uğurlara imza atmışdır. Bu nailiyyətlərdən biri ümumi əhalisi, – artıq həmkarlarım tərəfindən qeyd edildiyi kimi, – 1 milyarddan çox və ümumi iqtisadiyyatı 4 trilyon ABŞ dolları olan D-8 təşkilatına üzv olmağımızdır. D-8 təşkilatı və yaxud C5 əməkdaşlıq platformalarına qoşulması Azərbaycan üçün yeni bazarlara çıxış imkanlarını genişləndirir, iqtisadi tərəfdaşlığı gücləndirir və ölkənin beynəlxalq iqtisadi platformalarda rolunu artırır.

Eyni zamanda, çox önəmli bir məsələ ondan ibarətdir ki, təmsil etdiyim Xankəndi şəhəri regionda və ümumilikdə, qlobal çərçivədə diplomatik mərkəzə çevrilmişdir. Keçən il ərzində Xankəndi şəhərində çox önəmli siyasi, diplomatik, iqtisadi tədbirlər keçirilmiş və eyni zamanda, digər önəmli məsələ ondan ibarətdir ki, Böyük Qayıdış proqramı çərçivəsində şəhər sakinləri artıq öz doğma torpaqlarına geri dönməyə başlamışdır.

Hesabat ilində həyata keçirilən balanslı xarici siyasət, məqsədyönlü makroiqtisadi tədbirlər nəticəsində Azərbaycanın siyasi və iqtisadi sabitliyi qorunub saxlanmışdır. Ölkəmiz üçün makroiqtisadi göstəricilər baxımından çox önəmli il kimi tarixə düşmüşdür.

Hesabat ili ərzində həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, bərpası istiqamətində genişmiqyaslı layihələr həyata keçirilmişdir ki, bu hamımızı sevindirir. Keçən il ərzində artıq ölkə büdcəsindən 4,4 milyard manat vəsaitin ayrılmasını və bu tədbirləri biz işğaldan azad edilmiş ərazilərimizdə sosial-iqtisadi inkişafı sürətləndirmək və ölkənin ümumi potensialının gücləndirilməsinə mühüm töhfə verməsi kimi qiymətləndirməliyik.

Həmçinin artıq qeyd olunduğu kimi, 2025-ci ildə dövlət proqramı çərçivəsində 16 min nəfərə yaxın sakin yenidən Qarabağa, Şərqi Zəngəzura geri dönmüşdür. Xüsusi ilə də cənab Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın iştirakı ilə Xankəndi şəhərində Zəfər parkının təməlqoyma mərasiminin keçirilməsi və eyni zamanda, Ağdərə rayonunda Suqovuşan kəndində məscidin, Şuşada tarixi Çöl Qala, Daşaltı kənd məscidinin, Ağdam Muğam Mərkəzinin açılışında iştirak etmələri bütün Azərbaycan xalqının ürəyincə olmuşdur.

2025-ci ildə, qeyd etdiyim kimi, istər beynəlxalq arenada, istərsə də ölkədaxili sahələrdə həyata keçirilən uğurlu layihələr Azərbaycanın məqsədyönlü və balanslaşdırılmış siyasətinin nəticəsi kimi qiymətləndirilə bilər.

Mən 2025-ci ilin hesabatını məqbul hesab edirəm və lehinə səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

İlham Məmmədov. Buyurun.

**İlham Məmmədov.** Hörmətli xanım sədr, söz verdiyiniz üçün çox sağ olun. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, millət vəkilləri. Nazirlər Kabinetinin fəaliyyəti haqqında hörmətli

cənab Baş nazir Əli Əsədov tərəfindən təqdim olunmuş hesabat ölkəmizin 2025-ci ildə keçdiyi inkişaf yolunun nəticələrini əks etdirən və yüksək peşəkarlıqla hazırlanan mühüm bir sənəddir. Ancaq qlobal dünya üçün 2025-ci il tarixin ən çətin ili, bu gün gördüyümüz dəhşətli mənzərənin aktiv fazaya keçdiyi il kimi yadda qalmışdır.

Bu gün sərhədlərimizin şimalında, cənubunda qanlı müharibələr gedir. Qlobal təchizat zənciri dağıdılıb, dünyanın ən zəngin körfəz ölkələri iflic vəziyyətindədir. Enerji təhlükəsizliyi təhlükə altındadır. Ancaq dünya belə bir şəraitdə Azərbaycanın nə qədər əhəmiyyətli bir ölkə olduğunu sanki yenidən gördü. Gəlin açıq deyək ki, bu gün dünyanın gözü Azərbaycandadır. Azərbaycan bu gün alternativ logistika mərkəzidir, enerji təhlükəsizliyini təmin edən ixrac boru kəmərləri, təchizat mərkəzidir, etibarlı sığınacaq və dostlar mərkəzidir. Dünyanın bugünkü dəhşətli mənzərəsində, bax, budur, Azərbaycan reallığı.

Heç şübhəsiz ki, belə qlobal, iqtisadi, hərbi, siyasi qeyri-müəyyənliklərin mövcud olduğu bir dövrdə ölkəmizin iqtisadi, hərbi, siyasi sabitliyinin qorunub saxlanması və inkişaf etdirilməsi 2025-ci ildə hökumətimizin ən böyük uğurudur. Mən hökumətin hesabatının qəbul olunmasına səs verəcəyəm və deputat həmkarlarımı da buna səsləyirəm.

Xüsusi olaraq qeyd etmək istəyirəm ki, hesabatda təqdim olunan uğurların əldə olunmasında böyük zəhmət və böyük fədakarlıq sərf olunub. Bu fədakarlığın əsas müəllifi məhz möhtərəm Prezidentimiz cənab İlham Əliyevdir. Bu mürəkkəb dünyada, bugünkü reallıqda biz bunu xüsusi ilə deməliyik və minnətdarlıq hissi ilə xalqımızın adından bəyan etməliyik. Ətrafımızda bu od-alovun içərisində Ali Baş Komandan yenə də xalqını, dövlətini cəsarətlə qoruyur, inkişafını təmin edir.

Möhtərəm cənab Prezidentimiz İlham Əliyevlə yanaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ölkəmizin sosial siyasəti, əhalimizin rifahı, sağlamlığı və milli-mədəni inkişafı üçün fədakar əməyi nəticəsində əldə olunan göstəricilər 2025-ci ildə hökumətin hesabatında bu sahədə əks olunan uğurlarımızı şərtləndirən ən əsas amillərdən biri olmuşdur.

2025-ci ildə regional inkişaf proqramı da uğurla davam etdirilmişdir. Yenə də bu proqramın uğurla icrası əhalimizin rifah səviyyəsinin yüksəlməsinə xidmət etmişdir ki, bu da dövlət siyasətinin ən əsas istiqamətlərindən biridir.

Hesabat ilində cənab Prezident regionlara 130-dan artıq səfər etmiş, müxtəlif təyinatlı obyektlərin açılışında iştirak etmişdir. Onu da deyim ki, cənab Prezident mənim də təmsil olunduğum Yevlax şəhərində 22 iyun və 27 sentyabr tarixlərində səfərdə olmuş, orada Olimpiya İdman Kompleksinin, idman kompleksi ilə şəhəri birləşdirən müasir yeraltı keçidin, sutəmizləyici qurğunun, 110/35 kilovatlıq Yevlax yarımstansiyasının, “Azərişıq”ın Aran Regional İdarəetmə Mərkəzinin, 2000 hektar ərazidə Yevlax pilot aqroparkının açılışlarını etmişdir. Təkcə pilot layihənin açılışında 500 nəfər daimi, mindən yuxarı isə mövsümi iş yeri açılmış, sutəmizləyici qurğu isə 66 min əhalinin içməli su təchizatının təmin edilməsini yaxşılaşdırmışdır.

Yevlaxlılar hər zaman məndən xahiş edirlər ki, yaranan ilk imkanda bizim hörmət və ehtiramımızı, təşəkkürlərimizi cənab Prezidentimizə çatdırın. Əlbəttə, hesab edirəm ki, bu, təkcə Yevlaxa xas deyil, bütün ölkəmiz üçün xarakterik bir haldır. Axı, bu inkişaf və bu tərəqqi göz qabağındadır.

Hökumətin 2025-ci ildəki uğurlu fəaliyyətində səhiyyə sahəsinin də daha dolğun əks olunmasını arqument kimi göstərə bilərəm. Azərbaycan səhiyyəsi bu gün uğurla inkişaf edir. Səhiyyə Nazirliyi tərəfindən bu uğurların gələcək inkişaf perspektivləri üçün uğurlu səhiyyə islahatları davam etdirilir. Əhalimizin sağlamlığının daha etibarlı və keyfiyyətli qorunması üçün yeni meyarlar işlənib hazırlanır, dövlət proqramları uğurla icra olunur. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sosial siyasətinin nəticəsi olaraq icbari tibbi sığorta bu gün ölkədə uğurla davam etdirilir.

Hesab edirəm ki, bütün bu əlamətlər, görülən bütün bu işlər ölkəmizin gələcək inkişaf tempini sürətləndirəcək.

Hörmətli cənab Baş nazir, Sizin rəhbərliyinizlə hökumətə bundan sonrakı fəaliyyətində də uğurlar arzu edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Zaur Şükürov. Buyurun.

**Zaur Şükürov.** Təşəkkür edirəm, çox hörmətli xanım sədr. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli deputatlar və hökumət üzvləri, media nümayəndələri. İlk öncə Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyətinə dair ətraflı çıxışa görə cənab Baş nazirə minnətdarlığımı bildirirəm və hökumətin 2025-ci ildəki fəaliyyəti haqqında hesabatı müsbət qiymətləndirərək lehinə səs verəcəyimi diqqətinizə çatdırmaq istərdim.

Artıq qeyd edildiyi kimi, həqiqətən də, 2025-ci il “Konstitusiya və Suverenlik İli” kimi ölkəmizdə sosial-iqtisadi inkişafa nail olunması, qeyri-neft sektorunun inkişafı, makroiqtisadi, maliyyə sabitliyinin, əhalinin maddi rifah halının yüksəldilməsi məqsədi ilə sosial layihələrin həyata

keçirilməsində davamlılığın təmin edilməsi, işğaldan azad olunmuş torpaqlarımıza Böyük Qayıdış planı çərçivəsində bu ərazilərimizdə dünya miqyasında nümunəvi olan sürətli bərpa və quruculuq işlərinin həyata keçirilməsi, strateji valyuta ehtiyatlarımızın 20 faizədək artaraq 85 milyard dollara çatması, xarici ticarət dövriyyəsində müsbət saldo əldə edilməsi, xüsusi ilə də beynəlxalq müstəvidə mühüm siyasi, diplomatik uğurlara nail olunması baxımından tarixi əhəmiyyətli bir il olmuşdur.

2025-ci ildə beynəlxalq münasibətlər sistemində müşahidə edilən gərginlik və çağırışlar fonunda, sürətlə dəyişən geosiyasi və geoiqtisadi şəraitdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin liderliyi ilə ölkəmizdə sabitliyin qorunması, istər ikitərəfli, istərsə də çoxtərəfli platformalarda milli maraqlarımıza xidmət edən, bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlığın davam etdirilməsi xüsusi önəm kəsb edən məqamlardandır.

Məhz bütün bunların nəticəsidir ki, Azərbaycanın irəli sürdüyü sülh təşəbbüsü və 5 baza prinsipi əsasında 2025-ci ildə avqust ayında Vaşinqtonda dünyanın lider dövləti ABŞ-nin Prezidentinin iştirakı və şahidliyi ilə Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında sazişin paraflanmasına, beynəlxalq təşkilatların vasitəçilik missiyası tarixində səmərəsiz fəaliyyəti ilə yadda qalan ATƏT-in Minsk qrupu və əlaqəli orqanların ləğvinə, Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında multimodal maneəsiz bağlantısının təmin edilməsinə və nəhayət, Azərbaycanla Ermənistan arasında de-fakto sülhün əldə edilməsinə imkan verən razılaşmaya nail olunmuşdur.

Torpaqlarımız işğal altında olduğu dönəmdə davamlı olaraq ikitərəfli və çoxtərəfli beynəlxalq platformalarda diqqətə çatdırdığımız haqlı mövqeyimiz Prezidentimizin dünya miqyasında heyrətamiz liderlik bacarığı və milli maraqlarımıza cavab verən uzaqgörən siyasəti sayəsində, nəhayət, 2025-ci ildə dünyanın aparıcı dövlətinin paytaxtında, ardınca isə beynəlxalq ictimaiyyət tərəfindən qəbul və təsdiq edildi.

Hesabat ili ərzində Prezident cənab İlham Əliyevin 14 ölkəyə dövlət, rəsmi və işgüzar səfərlər həyata keçirməsi, 20 ölkənin yüksək səviyyəli nümayəndə heyətlərinin Azərbaycana dövlət, rəsmi və işgüzar səfərlərinin gerçəkləşdirilməsi, ikitərəfli və çoxtərəfli əsasda, ümumilikdə, 41 dövlət ilə 191 sənəd imzalanması, müxtəlif ölkələrlə 32 hökumətlərarası komissiya və işçi qruplarının iclaslarının keçirilməsi beynəlxalq əməkdaşlığımızın genişləndirilməsi məqsədi ilə vacib və əhəmiyyətli hadisələrdir.

Diqqətə çatdırmaq istədiyim məqamlardan biri də Milli Məclislə Nazirlər Kabineti arasında ənənəvi səmərəli və işgüzar əməkdaşlığın hesabat ili ərzində də davam etdirilməsidir. Belə ki, 2025-ci il ərzində təmsil etdiyim 47 saylı Sumqayıt–Abşeron–Qaradağ seçki dairəsi üzrə müraciət və məktublarımıza aidiyyəti qurumlarımız tərəfindən müvafiq cavablar təqdim olunmuş, bir sıra məsələlərin həlli istiqamətində zəruri addımlar atılmışdır.

Bir məqamı da xüsusi olaraq vurğulamaq istərdim ki, deputatların təklif və tövsiyələrinin icrası ilə bağlı məlumatların artıq bir neçə ildir, hökumətin hesabatlarının müvafiq bölməsinə daxil edilməsi təqdirəlayiqdir. Hesab edirəm, bu yanaşma istər ölkə vətəndaşlarının, istərsə də deputatların müraciətlərinə göstərilən yüksək diqqətin göstəricisidir.

Bu xüsusda qeyd etmək istərdim ki, Sumqayıt şəhərinin Corat qəsəbəsində XVI və XVII əsrə aid olduğu ehtimal edilən hamamların

daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilməsi məqsədi ilə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən müvafiq işlər görülməkdədir.

Corat qəsəbəsinin kanalizasiya infrastrukturunun yenidən qurulması istiqamətində Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən lazımi işlərə start verilmişdir.

Abşeron rayonunun həssas təbəqələrinin yaşadığı Şəfəq qəsəbəsində sakinlərin sosial evlərdə qeydiyyata düşməsi ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Daxili İşlər Nazirliyi və Abşeron Rayon İcra Hakimiyyəti tərəfindən lazımi tədbirlər davam etdirilir.

Qaradağ rayonunun Qızıldaş qəsəbəsində 2026-cı ildə 6 küçədə 2200 metr uzunluğunda yolun asfaltlanmasının nəzərdə tutulması da hesabatın müvafiq bölməsində öz əksini tapır.

Qeyd olunanlarla əlaqədar, vətəndaşların qaldırdıqları məsələlərin həllində dəstəyə görə Azərbaycan Respublikasının Baş nazirinə, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Daxili İşlər Nazirliyinə, Mədəniyyət Nazirliyinə, həmçinin nazirlik yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə dərin təşəkkürümü bildirirəm.

Çıxışımı yekunlaşdıraraq vurğulamaq istərdim ki, hökumətin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mükəmməl liderliyi, uzaqgörən, praqmatik və milli maraqlarımıza xidmət edən siyasəti sayəsində...

**Sədrlik edən.** Zaur müəllim, üzr istəyirəm, ancaq vaxtınız qurtardı. Mən Sizə imkan verdim ki, nöqtəni qoyasınız.

Rövşən Muradov. Buyurun.

**Rövşən Muradov.** Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli həmkarlar və media nümayəndələri. Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında bizə təqdim edilmiş geniş hesabata dair ətraflı və məzmunlu çıxışına görə hörmətli Əli müəllimə təşəkkür edirəm.

Hesabat struktur və məzmun baxımından çoxşaxəli olmaqla mükəmməl hazırlanmış dövlət sənədidir və dövlət başçısının dəqiq müəyyənləşdirdiyi strategiyanı özündə ehtiva etməklə, hökumətin qarşısında qoyulan vəzifə və tapşırıqların uğurla yerinə yetirildiyini göstərir.

Belə ki, möhtərəm cənab Prezidentin rəhbərliyi ilə bütün sahələrdə aparılan uğurlu siyasət 2025-ci ildə də ölkəmizin hərtərəfli tərəqqisinə və güclənməsinə, onun sosial-iqtisadi sahədə davamlı inkişafının təmin olunmasına, makroiqtisadi sabitliyinin qorunub saxlanılmasına, regional mövqeyinin möhkəmləndirilməsinə və beynəlxalq aləmdə artan rolunun daha da yüksəlməsinə xidmət etmişdir.

Hesabat ilində dünya neft bazarlarında müşahidə edilən qeyri-müəyyənliklərə və ölkəmizdə neft hasilatının aşağı düşməsinə baxmayaraq, ümumi daxili məhsul real ifadədə 1,4 faiz artaraq 129,1 milyard manat və ya 75,9 milyard dollar təşkil etmişdir. Strateji valyuta ehtiyatlarımız isə 19,8 faiz artaraq, ümumi daxili məhsulun həcmini 9,1 milyard dollar üstələməklə 85,1 milyard dolları ötmüş və 2026-cı ilin əvvəlinə adambaşına 470 dollar olmaqla, yaranmış 4,8 milyard dollarlıq xarici dövlət borcumuzu 17 dəfədən çox üstələmişdir. 2025-ci ildə ölkədə orta illik inflyasiya 5,6 faiz, işsizlik isə 5,2 faiz olmuşdur.

Bildiyiniz kimi, hesabat ilində əhalinin rifah halının yaxşılaşdırılması və həyat səviyyəsinin yüksəldilməsi sahəsində sosial siyasət tədbirləri davam etdirilmişdir. Belə ki, ötən ilin dövlət büdcəsi xərclərinin 39,5 faizi və ya 15,3 milyard manatı sosialyönlü xərclərin maliyyələşdirilməsinə sərf edilmişdir. Bu isə 2024-cü illə müqayisədə 602 milyon manat və ya 4,1 faiz çoxdur.

Ümumiyyətlə, son 7 ildə ölkə əhalisinin 40 faizini əhatə edən 8 milyard manat həcmində 5 sosial islahat paketi icra edilmiş, özünüməşğulluq proqramının icrası davam etdirilmiş, 16 mindən çox şəhid ailəsinə, müharibə əlillərinə, onların ailələrinə dövlət tərəfindən mənzil və avtomobillər verilmiş, tibbi bərpa, reabilitasiya və sair xidmətlər göstərilmişdir.

Məlumdur ki, işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq və yüz minlərcə məcburi köçkünün əvvəlki yaşayış yerlərinə qaytarılması, əhalinin təhlükəsiz və ləyaqətli yaşayışının təmin edilməsi məqsədi ilə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilib reallaşdırılması üçün “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” və Böyük Qayıdışa dair I Dövlət Proqramı qəbul edilmişdir. Sözügedən strategiyanın həyata keçirilməsinə dövlət büdcəsindən bu günədək 7 milyard manatdan çox, Böyük Qayıdışa dair I Dövlət Proqramının icrasına isə 2026-cı il də daxil olmaqla 25,5 milyard manatdan çox vəsait ayrılmışdır.

Bu gün cənab Prezidentin birbaşa iştirakı və rəhbərliyi ilə Qarabağda və Şərqi Zəngəzurda sürətli yenidənqurma və bərpa işləri davam etdirilir. İndiyə kimi azad edilmiş bölgələrdə yaşayan, məskunlaşan, işləyən və

oxuyan əhalinin sayı 74750 nəfər təşkil edir. Xərclənən bütün büdcə vəsaitlərinin ölkə iqtisadiyyatı üçün yaradacağı əlavə dəyər isə orta və uzunmüddətli dövrdə gözlənilir.

Hesabatdan görünür ki, 2025-ci ildə də Milli Məclislə Nazirlər Kabineti arasında ənənəvi işgüzar əməkdaşlıq davam etdirilmişdir. Bu xüsusda təmsil etdiyim Laçın rayonu ilə bağlı təklif və tövsiyələrin icrası barədə hesabatda ətraflı məlumat verilmişdir. Bununla əlaqədar olaraq dövlət başçısına, cənab Baş nazirə və Kabinetin bütün üzvlərinə seçicilərim adından öz minnətdarlığımı bildirirəm.

Çıxışımın sonunda hesabatı müsbət qiymətləndirir və deputat həmkarlarımı sənədi dəstəkləməyə çağırıram. Digər deputat həmkarlarımın da bayramlarla bağlı təbriklərinə qoşuluram. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, fasilə elan edilir. Biz işimizə saat 3-də davam edəcəyik.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Hörmətli həmkarlar, biz işimizə davam edirik. Növbəti çıxış. Elman Nəsirov. Elman müəllim, buyurun.

**Elman Nəsirov**. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli həmkarlar, əziz media nümayəndələri. Bu gün biz Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında cənab Baş nazirin çox geniş, çox əhatəli bir hesabatını dinlədik. Mükəmməl hazırlanıb, bitkin bir hesabatdır. Həm nəzəri-konseptual, həm də empirik yanaşmalar var, bu hesabat çoxsaylı faktlarla, arqumentlərlə əsaslandırılıb.

Mən hesabatla çox yaxından tanışam və xeyli də qeydlərim var idi. Ancaq öz-özümə sual verdim ki, əgər cənab Baş nazir bu qədər geniş, bu qədər ətraflı məlumat veribsə, yenidən eyni faktların üzərində dayanmağa lüzum görmədim.

Hesab edirəm ki, 2025-ci ilin ən böyük nailiyyəti odur ki, biz belə qəliz bir ildə, dünya üçün olduqca mürəkkəb bir ildə ictimai-siyasi sabitliyi qoruyub saxlamışıq. İctimai-siyasi sabitlik olmayanda nə iqtisadi inkişafdan, nə də təhlükəsizlik mühitindən danışmaq mümkündür. Mən bir anlıq təsəvvür edirəm ki, ictimai-siyasi sabitliyin olmadığı ölkələrdə, – yeri gəlmişkən, onların sayı kifayət qədər çoxdur, – Baş nazirlərin verdiyi hesabatlar hansı vəziyyətdə olur, bunu təsəvvür etmək elə də çətin deyil. Ona görə də ictimai-siyasi sabitliyi biz göz bəbəyi kimi qorumalıyıq və 2025-ci ilin də ən böyük nailiyyətlərindən biri bunu hesab edirəm. İctimai-siyasi sabitlik o zaman mümkün olur ki, o zaman xalq ilə hakimiyyət arasında bir monolit birlik olsun, xalq öz Prezidenti ətrafında bir qüvvə kimi birləşsin və bu da o halda olur ki, ölkənin Prezidenti məhz xalqının milli mənafeyindən irəli gələn bir siyasət həyata keçirir. Bu gün Azərbaycan xalqı ona görə öz Prezidentini sevir, ona görə onun ətrafında bir monolit qüvvə kimi birləşib ki, cənab Prezident yeritdiyi siyasət sayəsində xalqımızı bütün bəlalardan, təhlükələrdən, təhdidlərdən xilas edə, hifz edə bilib. Bunu bütün dünya görür və dövlətimizin başçısına beynəlxalq aləmdə olan yüksək etimadın kökündə dayanan fundamental səbəblərdən biri də məhz bununla bağlıdır.

Cənab Baş nazir ilə, nazirlərlə, hökumət üzvləri ilə görüş bizim üçün həm də o baxımdan əhəmiyyətlidir ki, təmsil etdiyimiz bölgələrin üzləşdiyi müəyyən problemləri dilə gətiririk.

Cənab Baş nazir, onu qeyd edim ki, keçən dəfə bizim qaldırdığımız bir çox məsələlər öz müsbət həllini tapıb. Məsələn, Cəlilabadda son illərdə 35 kənddə elektrik təsərrüfatı kökündən dəyişilib, tamamilə yenilənib. Bu il, 2025-ci ildə 27 kənddə bu proses gedir və yekunlaşmaq üzrədir. 2026-cı ildə isə daha 10 kənd siyahıya salınıb. Mən ancaq özümün təmsil etdiyim seçki dairəsi ilə bağlı bunları söyləyirəm. Yəni bu işlər “Azərişıq”la bizim birgə fəaliyyətimizin nəticəsidir və qurulmuş əməkdaşlığın əsasında xeyli nailiyyətlərimiz var.

İndi fürsətdən istifadə edib mən Cəlilabadın İranla sərhəd kəndlərinin üzləşdiyi mavi qaz problemini dilə gətirmək istəyirəm. Bu gün Azərbaycanın qazla təminat səviyyəsi 96,6 faizdir. Bölgələrdə bu, 94,7 faizdir. Yüksək nəticədir. Hətta mən deyərdim, Azərbaycan dünyada əhalinin təbii qazla təminatı nöqteyi-nəzərindən birinci onluqda deyil, hətta birinci yerdədir. Bunu fakt kimi deyirəm, amma bu, bir həqiqətdir.

Sadəcə, Cəlilabadla bağlı müəyyən məqamları dilə gətirmək istəyirəm ki, Cəlilabadın 118 kəndi var. Amma orada 60-a yaxın kənddə, – düzdür, onu da etiraf edim ki, onların bir çoxu kiçik kəndlərdir, bəzən rentabelli olmadığı söylənilib, – qazın çəkilişində problemlər var. Amma bütövlükdə, 5429 abonentin bu günə kimi qaz təminatı yoxdur. Mən seçicilərimizlə görüşəndə də həmişə bunu dilə gətirirlər. Cənab Baş nazirdən, hökumətimizin üzvlərindən çox xahiş edirəm ki, İranla sərhəd kəndlərin sosial-iqtisadi inkişafı ilə bağlı hər hansı bir layihə həyata keçirilsin. Çünki həmin ərazilərdən əhalinin boşalmasına imkan vermək olmaz. Bu bizim üçün həyati əhəmiyyətli məsələlərdir. İmkan verməyək ki, bax, belə sərhədyanı ərazilərimizdə əhalinin sayı azalsın.

Təşəkkür edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Fariz İsmayılzadə. Buyurun.

**Fariz İsmayılzadə**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli həmkarlar və hökumət üzvləri. İlk öncə ətraflı hesabata və 2025-ci ildə məhsuldar fəaliyyətə görə, cənab Baş nazir, Sizə və digər hökumət üzvlərinə təşəkkür bildirmək istərdim. Dünyada baş verən çoxsaylı müharibələr və geosiyasi rəqabət fonunda Azərbaycanın sabitlik, firavanlıq və inkişaf edən bir ölkə kimi qalması, şübhəsiz, Prezident İlham Əliyevin uzaqgörən siyasəti və hökumətin effektiv işinin nəticəsidir.

Ötən il ölkəmizdə bütün sahələr kimi təhsildə də bir neçə istiqamətdə ciddi irəliləyişlər olmuşdu. O cümlədən işğaldan azad olunmuş ərazilərdə 21 yeni məktəbin, 14 bağçanın tikintisi, bakalavr proqramlarına qəbulun son 5 ildə 18 faiz artması, magistratura proqramlarına qəbulun 37 faiz artması, 21 yeni peşə məktəbinin tikintisi barədə cənab Prezidentin 5 dekabr tarixli sərəncamı, “Scopus” və “Web of science” elmi data bazalarda azərbaycanlı alimlərin elmi məqalələrinin müvafiq olaraq 30 faiz və 23 faiz artması kimi nümunələr gətirmək olar.

Hörmətli cənab Baş nazir, bir il bundan öncə Sizin diqqətinizə iki məsələni çatdırmışdım. Xarici universitetlərlə birlikdə ikili diplom proqramlarını davam etdirmək zərurəti və tədqiqatlar üçün vəsaitləri artırmaq zərurəti. Təşəkkür edirəm ki, ötən ildə hər iki məsələ öz müsbət həllini tapdı və hazırda minlərcə azərbaycanlı gənc xarici universitetlərlə birgə aparılan ikili diplom proqramlarında keyfiyyətli təhsil ala bilir. Tədqiqat və işləmələrə çəkilmiş dövlət xərcləri ötən illə müqayisədə 2,1 dəfə artaraq 262 milyon manat təşkil etmişdir. Ötən ildə Qarabağ Universiteti və İtaliya–Azərbaycan Universitetinin fəaliyyəti tam şəkildə qurulmuşdur. Xaricdə

dövlət təhsil proqramı çərçivəsində 500 azərbaycanlı gənc dünyanın 14 ölkəsinin 65 nüfuzlu universitetində təhsil almağa göndərilmişdir. Belə tələbələrin ümumi sayı 1794-ə çatmışdır.

Nailiyyətlərlə yanaşı, gənc nəslin tərbiyə edilməsində ciddi çağırışlarla da üzləşirik. Onlardan biri sosial şəbəkələrin nəzarətsiz vəziyyətdə olması və gənclərin tərbiyəsinə və təhsilinə təsiridir. Müasir gənc indiki zamanda yalnız müəllimdən öyrənmir, eyni zamanda, sosial şəbəkələrdə saatlarla vaxt keçirib, oradan külli miqdarda zərərli məzmun alır. Bu, eyni zamanda, ideoloji baxımdan da ölkəmiz üçün çox təhlükəli bir fenomendir. Təhsilimizin məzmununu və pedaqogikasını ciddi şəkildə dəyişməyə ehtiyac yaranmışdır. Dərsin məzmununu gənclərə interaktiv, maraqlı yolla çatdırmalıyıq ki, gənclər sosial şəbəkələrdə çox vaxt keçirməsinlər. Düşünürəm ki, bununla bağlı, cənab Baş nazir, Sizin rəhbərliyiniz altında dövlət proqramı həyata keçirilməlidir.

Hesabatı dəstəkləyirəm, ona səs verəcəyəm. Diqqətiniz üçün təşəkkür edirəm və fürsətdən istifadə edərək bütün hökumət üzvlərini qarşıdan gələn bayramlarla bağlı təbrik etmək istərdim.

**Sədrlik edən.** Sağ olun.

Səbinə Xasayeva. Buyurun.

**Səbinə Xasayeva**. Təşəkkür edirəm, xanım sədr. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli həmkarlar, hökumət üzvləri və media nümayəndələri. 2025-ci il Azərbaycan üçün ölkənin siyasi, iqtisadi və sosial sahələrində əhəmiyyətli irəliləyişlərlə yadda qalan bir il olmuşdur. Bu dövrdə aparılan islahatlar və beynəlxalq əməkdaşlığın genişləndirilməsi Azərbaycanın inkişaf yolunda davamlı addımlar atdığını göstərmişdir. Eyni zamanda, iqtisadi sabitliyin qorunması və sosial rifahın artırılması

istiqamətində görülən tədbirlər ölkənin uzunmüddətli strateji hədəflərinə nail olmaq potensialını gücləndirmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci ildəki fəaliyyəti haqqında hesabatdan aydın olur ki, həyata keçirilən siyasət ölkənin hərtərəfli inkişafının təmin edilməsi, dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi kimi geniş və strateji məqsədlərə yönəlmişdir. Bu müddət ərzində həyata keçirilən layihələr və tədbirlər iqtisadiyyatın müxtəlif seqmentlərində sabitliyi gücləndirmiş, sosial sahələrdə islahatların tətbiqinə dəstək olmuş və ölkənin strateji inkişaf prioritetlərinin reallaşmasına əhəmiyyətli töhfələr vermişdir.

Hesabatdan aydın olur ki, 2025-ci il “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın həyata keçirilməsi baxımından mühüm mərhələlərdən biri olmuşdur. Həmin dövrdə strategiyada müəyyən edilmiş prioritet istiqamətlər üzrə tədbirlər davam etdirilmiş, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun genişləndirilməsi, investisiya mühitinin daha da təkmilləşdirilməsi və regionların inkişafının gücləndirilməsi sahəsində əhəmiyyətli irəliləyişlər əldə edilmişdir. Belə ki, 2025-ci ildə qeyri-neft sektorunda məhsul istehsalı üzrə 5,5 faiz artım müşahidə edilmişdir. Görülən işlər ölkədə iqtisadi inkişafın sabit əsaslar üzərində qurulmasına, sahibkarlığın inkişafına və əhalinin sosial rifahının yüksəldilməsinə müsbət təsir göstərmişdir. Bu proseslər Azərbaycanın dayanıqlı və rəqabətqabiliyyətli iqtisadi modelinin formalaşdırılması istiqamətində ardıcıl şəkildə irəlilədiyini nümayiş etdirir.

Diqqətçəkən məqamlardan biri də 2025-ci ildə Azərbaycan elektroenergetika sahəsində əhəmiyyətli inkişaf mərhələsinə keçmişdir. Ölkənin enerji təminatının dayanıqlılığını və təhlükəsizliyini gücləndirmək

üçün infrastruktur modernləşdirilmiş, qabaqcıl texnologiyalar tətbiq edilmişdir. Xüsusi ilə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” çərçivəsində yaşıl enerji ölkənin strateji hədəfləri arasında əsas yerlərdən birini tutur. Bu sahədə görülən işlər karbon emissiyalarının azaldılmasına, ətraf mühitin qorunmasına və davamlı enerji resurslarına keçidin sürətləndirilməsinə xidmət etmişdir. Beləliklə, həyata keçirilən tədbirlər enerji sisteminin həm etibarlı, həm də ekoloji baxımdan dayanıqlı olmasını təmin edərək Azərbaycanın uzunmüddətli inkişaf strategiyasına mühüm töhfə vermişdir.

2025-ci ildə ölkədə Böyük Qayıdışın təmin edilməsi və regionların davamlı inkişafı ilə bağlı mühüm irəliləyişlər əldə olunmuş, sosial-iqtisadi layihələr vasitəsi ilə bölgələrdə yasayış şəraitinin yaxşılaşdırılması və iqtisadi fəallığın artırılması sahəsində əhəmiyyətli nəticələr əldə edilmişdir.

Bununla yanaşı, regionların inkişafı məqsədi ilə növbəti illərdə Lökbatan, Xocahəsən, Sulutəpə, 28 May qəsəbələrində, xüsusən yeni yaşayış massivlərində mərkəzi kanalizasiya sisteminin qurulmasının sakinlərin rifah halının daha da yüksəldilməsinə kömək edəcəyinə inanıram.

Sonda bir daha vurğulamaq istərdim ki, 2025-ci il ərzində Nazirlər Kabinetinin fəaliyyəti haqqında hesabatda qeyd olunan məlumatlar göstərir ki, əldə olunan nəticələr ölkənin iqtisadi inkişaf perspektivlərinə böyük töhfə vermişdir. Ümid edirəm ki, 2026-cı ildə qarşıya qoyulmuş strateji hədəflər tam şəkildə həyata keçiriləcək və ölkənin sosial-iqtisadi inkişafı daha da güclənəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Musa Quliyev. Musa müəllim, buyurun.

**Musa Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, hörmətli həmkarlar! Hökumət tərəfindən hazırlanmış və bizə təqdim edilmiş çox geniş, dərin təhlilə və iqtisadi reallıqlara əsaslanan dolğun hesabat və cənab Baş nazirin mükəmməl məruzəsi bir daha göstərir ki, 2025-ci il ictimai-siyasi baxımdan əlamətdar, sosial-iqtisadi cəhətdən uğurlu il olmuşdur.

2025-ci ildə iqtisadiyyatımız daha da böyümüş, iqtisadi müstəqilliyimiz möhkəmlənmiş, əhalinin sosial rifah halı daha da güclənmişdir. Hesabat ilində ümumi daxili məhsulun artım tempi saxlanılmış, valyuta ehtiyatımız 18 faiz artaraq 85 milyard dollara çatmış, adambaşına düşən gəlir 8,8 min ABŞ dolları təşkil etmiş, xarici valyuta borcumuz minimal hədd – ümumi daxili məhsulun cəmi 6,3 faizini təşkil etmişdir.

Hesabat ilini əhalinin sosial müdafiəsi baxımından da əlamətdar dövr kimi qiymətləndirmək lazımdır. Məhz 2025-ci ildə cənab Prezident İlham Əliyevin sərəncam və tapşırıqlarına uyğun olaraq, 5-ci dərin sosial islahatlar zərfi qəbul edilmiş, minimum pensiya 14,3 faiz artaraq 320 manata, minimum əməkhaqqı 16 faiz artaraq 400 manata çatdırılmış, bütün vətəndaşların maaşlarında və pensiyalarında artım qeydə alınmış, 3 milyondan çox vətəndaşımızın sosial rifah halının yüksəlməsi məhz bu sonuncu islahatlar zərfi ilə təmin edilmişdir.

Ümumiyyətlə, 2019-cu ildən başlayaraq ölkəmizdə cənab Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, 5 dərin sosial islahatlar zərfi qəbul edilmişdir. Bu paketlərin illik maliyyə dəyəri 8 milyard manatdan çoxdur və 4 milyon vətəndaşın sosial təminatının yaxşılaşdırılmasına xidmət edir.

Hesabat ilində orta aylıq əməkhaqqı 9,3 faiz artaraq 1103 manata çatmış, orta aylıq pensiya 540 manat, yaşa görə əmək pensiyası isə 576 manat təşkil etmişdir.

2025-ci ildə inflyasiya 5,6 faiz olmuşdur. Onu da vurğulamaq lazımdır ki, ötən ildə maaşların, pensiyaların və əhalinin digər gəlirlərinin artım tempi inflyasiya göstəricilərini üstələmişdir.

Hesabat ilində 189 min nəfər münasib işlə təmin olunmuş, 18 min nəfər peşə hazırlığı kurslarına, 16 min 800 nəfər isə özünüməşğulluq proqramına cəlb edilmiş, 11 min nəfər işsiz şəxsə işsizlikdən sığorta müavinətləri verilmişdir.

Xüsusi olaraq qeyd etmək istəyirəm ki, son illərin ən uğurlu aktiv sosial müdafiə layihələrindən biri olan özünüməşğulluq proqramı ilə əhatə olunan şəxslərin sayı 2017–2026-cı illər üzrə 110 min nəfərdən çox olacaqdır.

Ötən ildə pensiya təminatı, müavinət, təqaüdlərin ödənişi, ünvanlı dövlət sosial yardımının verilməsi, əlilliyin ekspertizası və reabilitasiya, övladlığa götürmə və sosial xidmət sahəsində görülən işlərin miqyası və keyfiyyətinin yüksəlməsini də qeyd etmək lazımdır. Postmüharibə dövründə şəhid ailələrinə, qazilərə, veteranlara və digər zərər çəkmiş şəxslərə göstərilən dövlət qayğısı ötən il də uğurla davam etmişdir.

Sosial xidmətlərin elektronlaşdırılması sahəsində 2025-ci ildəki uğurlu fəaliyyəti də qeyd edərək bildirmək istəyirəm ki, hesabat dövründə vətəndaşlarımıza 150 istiqamətdə göstərilən sosial xidmətlərdən 90 faizindən çoxu artıq elektronlaşdırılmışdır, 52 xidmət isə proaktiv qaydada həyata keçirilir.

Böyük Qayıdışın təmin olunması və daha geniş miqyasda davam etdirilməsi məqsədi ilə birinci dövlət proqramı başlayandan dövlət

büdcəsindən 25 milyard manatdan çox vəsait ayrılmışdır. Hazırda 70 mindən artıq soydaşımız Qarabağın və Şərqi Zəngəzurun 40-a yaxın şəhər və qəsəbəsində, kəndlərdə məskunlaşıblar, orada yaşayır və işləyirlər.

Mən hökumətimizin 2025-ci ildəki fəaliyyətini qənaətbəxş hesab edirəm, hökumətimizə bu mürəkkəb və məsuliyyətli dövrdə uğurlar arzulayır, inanıram ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi altında ilə biz qısa müddət...

**Sədrlik edən.** Sağ olun.

Azay Quliyev. Buyurun.

**Azay Quliyev**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, dəyərli hökumət üzvləri və millət vəkilləri. Dünyada baş verən mürəkkəb proseslərə, artan münaqişələrə və geosiyasi kataklizmlərə baxmayaraq, 2025-ci il Azərbaycanın siyasi və diplomatik həyatında böyük tarixi əhəmiyyətə malik hadisələrlə zəngin oldu.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan son 80 ildə ərazi bütövlüyünü öz gücü ilə bərpa edən yeganə ölkə kimi avqustun 8-də Vaşinqton Sammitində ABŞ Prezidenti Donald Trampın iştirakı ilə sülhün də əldə olunmasına nail oldu. Məhz dövlət başçısının apardığı qətiyyətli siyasət nəticəsində Ermənistanla milli maraqlarımızı özündə əks etdirən sülh sazişinin mətni paraflandı, keçmiş münaqişənin həllinin beynəlxalq müstəvidə təsdiqi kimi ATƏT-in Minsk qrupu və ona bağlı strukturlar birdəfəlik ləğv edildi. Bəzi region dövlətlərinin əsassız müqavimətinə baxmayaraq, Zəngəzur dəhlizinin açılması və onun tərkib hissəsi olan “TRIPP” layihəsi haqqında razılıq əldə olundu, Ermənistana işğal dövründən bəri tətbiq olunan tranzit məhdudiyyətləri

aradan qaldırıldı və beləliklə, regionumuzda de-fakto sülhün bərqərar olunması təmin edildi.

Bundan başqa, 2025-ci ildə Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın hazırlanması və bu ilin 10 fevral tarixində Bakıda imzalanması, Çin ilə hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyanatın qəbulu, ölkəmizin D-8 təşkilatına və Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv olması, habelə Türk Dövlətləri Təşkilatının güclənməsinə yönəlik təşəbbüslər ölkəmizin beynəlxalq mövqeyini daha da möhkəmləndirdi.

Cənab Prezidentin milli maraqlarımızın qorunması istiqamətində həyata keçirdiyi bu siyasətin, xüsusi ilə sülh gündəliyinin nə qədər uzaqgörən və həyati əhəmiyyət daşıdığının hazırda davam edən ABŞ–İsrail–İran müharibəsinin yaratdığı real təhlükəsizlik riskləri fonunda bir daha şahidi olduq. Hesab edirəm ki, təkcə elə bu nailiyyətlərə, belə mürəkkəb beynəlxalq şəraitdə ölkəmizdə sabitliyin və təhlükəsizliyin qorunmasına nail olduğuna görə hökumətin fəaliyyətini yüksək qiymətləndirməli və təqdim olunan hesabata müsbət rəy verməliyik.

Hörmətli həmkarlar, Nazirlər Kabinetinin iqtisadi və sosial sahədəki fəaliyyəti haqqında deyilən müsbət fikirlərə mən də qoşuluram və hesab edirəm ki, bütün obyektiv çətinliklərə baxmayaraq, hökumət 2025-ci ildə qarşısında duran əsas vəzifələrin öhdəsindən layiqincə gəlmişdir. Bu baxımdan xüsusi ilə qeyd edilməlidir ki, ötən il ölkənin maliyyə dayanıqlığı qorunmuş, vergi və gömrük daxilolmaları proqnozlaşdırıldığından daha yüksək səviyyədə təmin edilmiş, eyni zamanda, bizim üçün prioritet sayılan qeyri-neft-qaz sektorunda nəzərdə tutulan əhəmiyyətli artım əldə olunmuşdur.

Təqdirəlayiq haldır ki, hesabat ilində əhalinin sosial rifahının yüksəldilməsi, təhsil və səhiyyənin inkişaf etdirilməsi hökumətin ən çox diqqət yetirdiyi sahələrdən biri olmuş, pensiyaların, sosial müavinətlərin və əməkhaqlarının artırılması, sosial dəstəyə ehtiyacı olan insanlara, xüsusi ilə şəhid ailələrinə və müharibə əlillərinə dövlət qayğısının daha da gücləndirilməsi məqsədi ilə zəruri tədbirlər görülmüşdür.

Hörmətli cənab Baş nazir, çıxışımı yekunlaşdırmamışdan öncə əvvəllər də qaldırdığım bir məsələ – 6-cı mikrorayonda yerləşən və uzun müddətdir, istismara yararsız vəziyyətdə olan 27 saylı poliklinikanın binasının sökülərək yerində yeni Ailə Sağlamlıq Mərkəzinin tikilməsi ilə bağlı yaranmış vəziyyət haqqında sizə məlumat vermək istərdim. Keçən il sağlamlıq mərkəzinin tikintisi üçün layihə-smeta sənədlərinin hazırlanmasına maliyyə vəsaiti ayrılmış, elektron tender keçirilmiş və qalib təşkilat müəyyən edilmişdir. Fürsətdən istifadə edib həm İqtisadiyyat, həm də Səhiyyə Nazirliyinə bu məsələdə göstərdikləri dəstəyə görə təşəkkürümü bildirirəm.

Lakin buna baxmayaraq, poliklinikanın torpaq sahəsinin bir hissəsinin müəssisənin balansından çıxarılması səbəbindən layihə-smeta sənədlərinin hazırlanması prosesini tam başa çatdırmaq və müvafiq standartlara uyğun tikinti işlərinə başlamaq mümkün olmamışdır. Ona görə də, hörmətli cənab Baş nazir, Sizdən xahiş edirəm ki, bu məsələnin həllinə və Ailə Sağlamlıq Mərkəzinin tikintisi ilə bağlı işlərin tamamlanmasına köməklik edəsiniz.

Sonda isə Nazirlər Kabinetinin 2025-ci ildəki fəaliyyəti haqqında hesabatın nəzərə alınmasını təklif edir və hökumətə çağırışlarla dolu bu çətin dönəmdə uğurlar arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Tahir Rzayev. Tahir müəllim, buyurun.

**Tahir Rzayev.** Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, hörmətli Baş nazir, hökumət üzvləri, deputat həmkarlarım və media nümayəndələri. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəyə rəhbərliyi ilə sübut etdi ki, dövlətin gücü və qüdrəti, inkişafı ölkənin böyüklüyündə, əhalinin sayında, milli sərvətlərində deyil, rəhbərin düşünülmüş siyasətində, iradəsində, bəşəri dəyərlərə sadiqliyindədir. Bu gün əhalisi, ərazisi, təbii sərvətləri Azərbaycandan qat-qat çox olan bir çox ölkələrdə hökm sürən iqtisadi, siyasi böhran, acınacaqlı həyat şəraiti, qarşıdurmalar bu qənaətə gəlməyimizə əsas verir.

Qarabağ Zəfəri dünyaya sübut etdi ki, dayanıqlı sülh yalnız ədalət üzərində qurula bilər. İşğala son qoyulması yalnız ölkəmizin ərazi bütövlüyünü bərpa etmədi, həm də Cənubi Qafqazda uzun illər davam edən münaqişəyə son qoydu. Vaşinqton Sammiti, 907-ci düzəlişin dayandırılması, Azərbaycanın Amerika, eləcə də digər ölkələrlə münasibətlərinin yaxşılaşdırılması diplomatiyamızın, beynəlxalq nüfuzumuzun dünyada uğurudur, qələbəsidir.

Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatında əksini tapan müsbət nəticələr, uğurlar məhz cənab İlham Əliyevin səyləri sayəsində ölkədə yaradılan ictimai-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin, həm də hökumətin ən mühüm məsələlərə – ölkənin milli təhlükəsizlik, müdafiə qüdrətinin gücləndirilməsinə, sosial həyatın yaxşılaşdırılmasına, ölkə ərazisində aparılan quruculuq, tikinti-abadlıq işlərinə işgüzar münasibətinin ifadəsidir.

Son illərdə 4 milyon insanı əhatə edən 5 sosial islahat paketinin uğurlu icrası, 16 mindən çox şəhid ailəsinə və müharibə əlilinə, onların ailələrinə mənzillərin verilməsi, işğaldan azad olunmuş ərazilərdə möhtəşəm tikinti-abadlıq, quruculuq tədbirlərinin həyata keçirilməsi, keçən il büdcə xərclərinin böyük bir hissəsinin sosial yönümlü xərclərə yönəldilməsi, pensiyaların, əməkhaqlarının, müavinətlərin artırılması, Azərbaycan iqtisadiyyatının davamlı və dayanıqlı olması hökumətin bu sahələrdə səmərəli fəaliyyətinin nəticəsi kimi qiymətləndirilməlidir.

Hökumətin ölkənin kənd təsərrüfatı sahəsində həyata keçirdiyi tədbirlər öz bəhrəsini verir. Əkin və məhsul subsidiyalarının ödənilməsi, güzəştlərin tətbiqi, sahibkarlara qayğı və diqqət, vacib pilot layihələrin həyata keçirilməsi ilin ən yüksək pambıq, dənli, dənli paxlalı bitkilər, üzüm, heyvandarlıq məhsulları istehsalına nail olmağa imkan yaratmışdır.

Su təminatı xeyli yaxşılaşmış, texniki təminat ödənilmiş, güzəştli kreditlər artırılmışdır. Dövlət rəhbəri tərəfindən qarşıya qoyulan vəzifələrə hökumətin böyük önəm verməsi, təşkilati işləri təqdirəlayiqdir. İşğaldan azad olunan ərazilərdə yüz min hektarlarla torpağın yararlaşdırılıb əkin dövriyyəsinə daxil edilməsi, doğma yurd-yuvalarına qayıdan insanlara icarə qaydası ilə torpaqların ayrılması kənd təsərrüfatının gələcək inkişafına təkan verəcəkdir.

Nazirlər Kabinetinin sosial, iqtisadi, mədəni və digər sahələrdə fəaliyyəti uğurludur və gələcək inkişafa zəmin yaradır. Mən müəyyən məsələlərə də öz münasibətimi bildirmək istərdim.

Cənab Prezidentin yeni iş yerlərinin yaradılmasına böyük önəm verdiyi, bu sahədə mühüm tədbirlər gördüyü bir vaxtda bəzi vəzifə sahiblərinin yeni iş yeri yaratmaq əvəzinə, iş yerlərini məhdudlaşdırmaq, yaşına,

təcrübəsinə, ailə vəziyyətinə baxmadan, əsassız ixtisarlar etməklə insanları işsiz qoymaq  təşəbbüsləri narahatlıq doğurur və hər birimiz bu məsələnin fərqində olmalıyıq.

Bazarda bəzi kənd təsərrüfatı məhsullarının, xüsusi ilə ətin bahalaşması əlavə tədbirlərin görülməsini zərurətə çevirir. Bu istiqamətdə hər bir nazirliyin, komitənin, agentliyin yardımçı təsərrüfatının yaradılması faydalı ola bilər. Hər bir müəssisə, təşkilat müəyyən hektar torpaq sahəsi götürüb orada kənd təsərrüfatı məhsulları yetişdirilməsinə imkan yaradarsa, bu, həm bazarda qiymətlərin aşağı salınmasına, həm xeyli insanın işlə təmin edilməsinə, həm də həmin təşkilatlarda çalışan işçilərin ucuz kənd təsərrüfatı məhsulları ilə təmin olunmasına kömək etmiş olar.

Şəhərdə tıxac probleminin aradan qaldırılması sahəsində mühüm tədbirlər həyata keçirilsə də, məsələ hələ tam həllini tapmamışdır. Bizə adi görünən vətəndaşların yolu keçmək qaydalarında müəyyən düzəlişin tətbiqi əhəmiyyətli ola bilər. Yolu keçən hər bir adama görə maşının saxlanılması  yolverilməzdir və elə bilirəm, 8–10 nəfər insan yol kənarında toplaşdıqdan sonra belə keçidə icazə verilməlidir.

Mən Nazirlər Kabinetinin illik hesabatını yüksək səviyyədə hazırlanmış, reallıqları əks etdirən bir sənəd kimi qiymətləndirirəm, ona səs verəcəyəm və deputat həmkarlarımı da səs verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Elçin Mirzəbəyli. Buyurun.

**Elçin Mirzəbəyli.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, dəyərli həmkarlar, media nümayəndələri.  Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında təqdim olunan hesabat ölkəmizin sosial-iqtisadi inkişafının əsas

istiqamətlərini, həyata keçirilən proqramları və əldə olunan nəticələri geniş şəkildə əks etdirir. Hesabatdan göründüyü kimi, ötən ildə ölkəmizdə iqtisadi sabitliyin qorunması, sosial müdafiə tədbirlərinin genişləndirilməsi, infrastruktur layihələrinin həyata keçirilməsi, azad olunmuş ərazilərin bərpası və digər istiqamətlərdə mühüm işlər görülüb.

Hökumətin hesabatını dəstəkləyir və görülən işlərə görə təşəkkürümü bildirirəm. Bununla yanaşı, hörmətli cənab Baş nazirin və hökumət üzvlərinin diqqətini vətəndaşlarla görüşlər zamanı onların müraciətlərində yer alan və təsdiqini tapmış bəzi məqamlara yönəltmək istəyirəm.

Ağsu şəhərində içməli su təminatı uzun müddətdir ki, sakinləri narahat edən problemlərdən biridir və xüsusi ilə yay aylarında daha qabarıq şəkildə özünü göstərir. Bu baxımdan şəhərin dayanıqlı içməli su ilə təmin olunması üçün yeni su mənbələrinin müəyyənləşdirilməsi, mövcud su şəbəkəsinin yenilənməsi və bu istiqamətdə kompleks layihələrin həyata keçirilməsi perspektivinin mövcud imkanlar və reallıqlar çərçivəsində nəzərdən keçirilməsini xahiş edirəm.

Diqqət çəkmək istədiyim digər məqam 2019-cu ilin fevralında baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlıdır. Həmin dövrdə aparılan qiymətləndirmələr zamanı 2175 evin təmirə ehtiyacı olduğu müəyyən edilib. Dövlət dəstəyi və yerli imkanlar hesabına müxtəlif mərhələlərdə, ümumilikdə, 1698 fərdi yaşayış evi təmir olunaraq sakinlərin istifadəsinə verilib. Lakin vəsait çatışmazlığı səbəbindən hazırda 477 evdə təmir işləri aparılmamış qalır və ötən illər ərzində zədələr daha da dərinləşərək sakinlər üçün əlavə çətinliklər yaradıb. İnsanların bir hissəsi təhlükəli şəraitdə yaşamaq məcburiyyətində qalıblar. Ümid edirəm,

hökumət yaranmış vəziyyətin təhlilini və qeyd olunan istiqamətdə problemlərin aradan qaldırılmasını diqqətdə saxlayacaq.

Nəzər salmaq istədiyim digər istiqamət məşğulluqla bağlıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qeyd etdiyim istiqamətdə davamlı tədbirlər həyata keçirilir. Bununla yanaşı, qənaətimə görə özünüməşğulluq proqramları çərçivəsində həm proqrama cəlb edilən şəxslərin məsuliyyətinin artırılması, həm də motivasiya xarakterli addımların atılması zəruridir. Təəssüf ki, bir sıra hallarda, – belə halların sayı az deyil, – müəyyən bir zaman kəsiyindən sonra vətəndaşlara verilən iri və xırda buynuzlu heyvanlar, həmçinin avadanlıqlar satılır və bununla da özünüməşğulluq proqramlarının əsas hədəfi, məşğulluğun davamlılığının təmin edilməsi elə başlanğıc mərhələdə sıradan çıxmış olur. Bu baxımdan bu sahədə həm fərdi hüquqi öhdəliklərin müəyyənləşməsinin, həm də öz işinə vicdanla yanaşan şəxslərə təsərrüfatlarını genişləndirmək üçün davamlı dəstək verilməsinin vacib olduğunu düşünürəm. Çox yaxşı olardı ki, özünüməşğulluq proqramlarının icrası prosesində müvafiq sahələr üzrə ayrı-ayrı dövlət qurumları, iri kənd təsərrüfatı subyektləri, banklar və digər təsisatlar da koordinasiyalı şəkildə hərəkət etsinlər, proqrama cəlb edilən, təsərrüfatlarını, iş yerlərini inkişaf etdirməyə çalışan vətəndaşlara özləri yeni iş yerləri açmaq üçün imkan yaratsınlar. Bu, çox vacib faktorlardan biridir. Bu, həm davamlılığın təmin edilməsinə kömək edə bilər, həm də bir nümunə, presedent formalaşdırar.

Toxunmaq istədiyim başqa bir məsələ həm rayonun özü, həm də ətraf rayonlar üçün əhəmiyyət kəsb edən Ağsu–Çaparlı–Bağırlı magistral yolunun vəziyyəti ilə bağlıdır. Yolun əsaslı təmir edilməsi ilə əlaqədar hörmətli cənab Baş nazirə ünvanladığım müraciətə diqqətlə yanaşıldığı

üçün təşəkkürümü bildirirəm və ümid edirəm ki, magistral yolun əsaslı təmiri istiqamətində müvafiq addımlar atılacaq. Bu, həm Ağsu sakinlərinin gündəlik həyatlarının yaxşılaşdırılması, həm də rayonun iqtisadiyyatının inkişafı üçün də mühüm əhəmiyyətə malikdir.

Eyni zamanda, Nazirlər Kabinetindən perspektiv imkanlar və reallıqlar çərçivəsində rayonun İlxıçı, Padarqışlaq və Daşdəmirbəyli kəndlərində yeni məktəblərin inşa edilməsi ilə bağlı olduqca mühüm əhəmiyyət kəsb edən məsələləri də nəzərdən keçirməyi xahiş edirəm.

Bir daha hökumətin 2025-ci il üzrə hesabatını dəstəklədiyimi bildirir, cənab Baş nazirə və hökumət üzvlərinə fəaliyyətlərində uğurlar diləyirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Nurlan Həsənov. Buyurun.

**Nurlan Həsənov.** Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hökumət nümayəndələri, hörmətli deputat həmkarlar. 2025-ci il bir çox əlamətdar hadisələrlə yadda qalmışdır. Hesabat göstərir ki, ötən il ərzində hökumətin fəaliyyəti bir çox istiqamətlər üzrə, xüsusi ilə regionumuzda təhlükəsizliyin təmin olunması, Ermənistanla sülh prosesinin davam etdirilməsi, Cənubi Qafqazda sülhün davamlılığının bütün dünyaya qəbul etdirilməsi, enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, nəqliyyat və logistika imkanlarının genişləndirilməsi, eləcə də beynəlxalq əməkdaşlığın inkişafı istiqamətində uğurlu nəticələr vermişdir.

Dünyanın böyük bir enerji böhranı yaşadığı dövrdə ölkəmiz öz enerji təhlükəsizliyini tam təmin etməklə bərabər, eyni zamanda, Avropa və bir çox region ölkələri üçün etibarlı enerji tərəfdaşına çevrilmişdir. Xüsusi ilə qaz ixracının genişləndirilməsi, enerji infrastrukturunun modernləşdirilməsi

və bərpa olunan enerji layihələrinin inkişafı Azərbaycanın enerji xəritəsində rolunu daha da gücləndirir.

Eyni zamanda, nəqliyyat və logistika sahəsində həyata keçirilən layihələr Azərbaycanın qlobal ticarət marşrutlarında mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirir. Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin inkişafı, liman və dəmir yolu infrastrukturunun genişləndirilməsi ölkəmizi Avropa ilə Asiya arasında mühüm tranzit və logistika mərkəzinə çevirir.

Bütün bu nailiyyətlərin dayanıqlı olması üçün isə hərbi təhlükəsizlik və dövlət sərhədlərinin etibarlı qorunması xüsusi əhəmiyyət kəsb edir. Müasir dövrdə regionumuzda və dünyada baş verən geosiyasi proseslər bir daha göstərir ki, güclü iqtisadiyyat və inkişaf etmiş infrastruktur yalnız güclü təhlükəsizlik sistemi ilə birlikdə davamlı nəticə verə bilər. Xüsusi ilə qeyd etmək lazımdır ki, dövlət sərhədlərinin qorunması və zəruri hallarda təhlükəsizlik tədbirlərinin gücləndirilməsi ölkəmizin daxili sabitliyinin, ictimai təhlükəsizliyinin və milli maraqlarının təmin olunmasına xidmət etmişdir.

Cənab Prezident İlham Əliyevin uzaqgörən və strateji baxışa əsaslanan dövlət idarəçiliyi nəticəsində Azərbaycan bu gün regionda həm enerji, həm nəqliyyat, həm də təhlükəsizlik baxımından etibarlı və güclü dövlət kimi mövqeyini daha da möhkəmləndirmişdir.

Bütün bunlar onu deməyə əsas verir ki, hökumət 2025-ci ildə ölkənin strateji prioritetləri üzrə ardıcıl və məqsədyönlü fəaliyyət həyata keçirmişdir.

Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Səyyad Aran. Buyurun.

**Səyyad Aran.** Çox sağ olun, xanım sədr. Hörmətli cənab Baş nazir və hökumət üzvləri. Bu sanballı hesabat göstərir ki, Azərbaycanın inkişafı qaçılmazdır. Davamlı olaraq bu inkişaf hər il özünü göstərəcək, xalqımızın, millətimizin rifah halı yaxşılaşacaq və Azərbaycan dünyada artıq adından söz etdirdiyi kimi, gələcəkdə də ən böyük və cəlbedici ölkələrdən biri olacaq.

Buna sübut Davos İqtisadi Forumunda dünyanın bir çox dövlət başçılarının Azərbaycan Prezidenti ilə görüşmək üçün növbəyə durmasıdır. Bunun bariz nümunəsi odur ki, 8 avqustda lazım olan bütün inamını, etibarını ifadə edərək Donald Tramp dedi: “Azərbaycan ABŞ üçün vacib və etibarlı tərəfdaş ölkədir”. Şarm əl-Şeyxdə Prezident İlham Əliyevə çevrilərək çıxışının ortasında ondan “sizin münasibətlər yaxşıdırmı?” deyə soruşdu və “sənin dostun haradadır?” dedi, – əlbəttə, dost deyil, – İlham Əliyev əli ilə göstərdi ki, buradadır. “Hə, hə” dedi və sözünə davam elədi. Yəni regionun ağsaqqalı, regionda 30 ildən artıq davam edən münaqişəyə son qoyan, sülh prosesinin təməlçisi, banisi kimi İlham Əliyevi tanıyır və ondan soruşur.

Bundan başqa, Şarm əl-Şeyxdə və dediyim kimi, başqa yerlərdə də Azərbaycan dövlətinin başçısına o özünün münasibətini bildirdi və dünyanın gözü qarşısında əlini uzadaraq dedi ki, “o mənim dostumdur”.

Biz indi dünyada daha böyük bir dövləti özümüzə dost etmişik və bu münasibət, təbii ki, Prezident İlham Əliyevin gərgin, inadlı və inamlı səyi və siyasəti nəticəsində baş verib.

Azərbaycan bu gün dünyaya təkcə qaz və neft məhsulları ixrac etmir. Azərbaycan bu gün dünyaya, – Baş nazirin çıxışından çox fərəhli bir cümlə eşitdim, – sən demə, həm də 20-dən artıq ölkəyə hərbi təyinatlı məhsullar

ixrac edir və bu məhsullar keçən illə müqayisədə 57 faiz artmışdır. Bütün bunlar hamısı dayanıqlı iqtisadiyyatın və Azərbaycanın inkişafının göstəricisidir.

Başqa bir istiqamət də var və bu hesabatda çox parlaq şəkildə ifadə olunub. Sən demə, təkcə elə qazla, neftlə deyil, həm də yaşıl enerji ilə dünyanın ehtiyac duyduğu bir ölkəyik və yenə də bu istiqamətdə dünyanın bir çox dövlətləri Azərbaycan dövləti ilə əlaqələr quraraq bu sahədə də öz gələcək etibarlı enerji təminatlarını həyata keçirmək istəyirlər. Azərbaycan bu gün 16-dan artıq ölkəyə qaz verir. Burada 2 görkəmli Avropa dövləti də var. Bu, dünya üçün bizim etibarlılığımızın, eyni zamanda, lazımlılığımızın nəticəsidir.

Tez-tez belə ifadələr işlədilir, 2026-cı il üçün sülh mükafatı Donald Trampa da verilə bilər. Mən isə düşünürəm ki, – dünyada belə praktika var, böyük təşkilatlara veriblər, orada 200 nəfər işləyir, yaxud bir neçə adama veriblər, – niyə də Cənubi Qafqazda 30 ildən artıq davam edən bu müharibə şəraitini sülhlə əvəz edən və bu istiqamətdə məhz təşəbbüsçü olaraq Azərbaycan lideri də o siyahıya düşməsin? Axı, bu bizim təşəbbüsümüzlə, Azərbaycanın təşəbbüsü ilə oldu. Bu müraciəti də Amerikanın – ən qüdrətli dövlətin başçısı qəbul edərək regionda belə bir sülh yaratdı. Hələ Qəzzada belə şey yoxdur, hələ Rusiya–Ukrayna cəbhəsində belə şey yoxdur və dünyanın digər ölkələrində də, necə deyərlər, qanlı münaqişələr davam edir. Amma İlham Əliyev təşəbbüsü və Amerika Prezidentinin dəstəyi ilə böyük bir sülh siyasətinin əsasını qoydu. İndi Ermənistanda parlament seçkilərini gözləyirik, ondan sonra paraflanmış sülh siyasəti təsdiq olunsun və Azərbaycanın qüdrətli inkişafı da bundan sonra təmin olunsun.

Çıxışımın sonunda iki faktı diqqətə çatdırmaq istəyirəm. Saatlının və İmişlinin, birində 6, birində 7 kənd qazlaşmayıb. Cənab Baş nazir, xahiş edirəm, bu məsələyə diqqət edəsiniz, bu iki rayonun da adının qarşısında bir böyük "plyus" işarəsi qoyulsun ki, İmişlidə və Saatlıda qazlaşdırma qurtardı.

İkinci, sovet dövründə Kür qırağı kəndlərdə beton kanallar yaradıldı, o cümlədən Saatlını, Zərdabı, Kürdəmiri də bura əlavə etsək, bu, yarım milyon əhalinin həyat şəraitinin yaxşılaşması olar. Bu kanallara su vurmaqla əhalinin təminatını ödəmək sahəsində böyük iş görülür.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Ceyhun Məmmədov. Buyurun.

**Ceyhun Məmmədov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli deputatlar, hörmətli hökumət üzvləri, hörmətli media nümayəndələri. Əvvəlki hesabatlar kimi bu hesabat da geniş və əhatəli hazırlanıb. Özündə bir çox mühüm məlumatları və dərin təhlilləri ehtiva edir. Hesabatı yüksək qiymətləndirirəm, ona səs verəcəyəm.

Əvvəlki illər kimi ötən il də ölkəmiz üçün bir çox mühüm uğurlarla yadda qaldı. Prezident İlham Əliyevin prinsipial və qətiyyətli siyasəti nəticəsində dövlətimiz Vətən müharibəsində qələbəsini daha da möhkəmləndirdi, xarici siyasətdə uğurlarını davam etdirdi, ölkəmizdə iqtisadi inkişaf üçün ən mühüm faktorlardan biri olan ictimai-siyasi sabitlik qorundu, sosial siyasət uğurla davam etdirildi, iqtisadi sahədə inkişaf təmin edildi.

Məlum olduğu kimi, bu gün dünyamız ciddi təlatüm və müharibələrlə üz-üzədir. Dünyanın əksər yerlərində müharibə və qarşıdurmalar tüğyan edir. Bu gün Azərbaycan uğurlu siyasət nəticəsində dünyada sabitlik və

əmin-amanlıq adasına çevrilib. Azərbaycan özünü bir çox regional müharibə və qarşıdurmalardan sığortalaya bilib.

Məhz bu siyasətin nəticəsidir ki, dünya dövlətlərinin liderləri, beynəlxalq təşkilatlar Azərbaycanla əməkdaşlığa böyük maraq göstərir, ayrı-ayrı ölkələrin dövlət başçılarının Azərbaycana səfərləri, ölkəmizin bir çox beynəlxalq tədbirlərə ev sahibliyi etməsi bu fikri bir daha təsdiq edir.

Bu gün, eyni zamanda, hamımızın uzun illərdir, həsrətlə azad olunmasını gözlədiyimiz Qarabağ və Şərqi Zəngəzur yenidən dirçəlir. İşğaldan azad olunmuş ərazilərdə əhalinin qayıdışı sürətlə davam edir. Artıq təmsil etdiyim Cəbrayıl rayonunun Horovlu və Şükürbəyli kəndlərinin bərpası uğurla həyata keçirilib. Horovlu kəndində həyat artıq öz axarına qayıdıb. Bu gün Cəbrayıl və Qubadlının digər kəndlərində də böyük quruculuq və abadlıq işləri uğurla davam etdirilir.

Heç şübhəsiz ki, bu gün məcburi köçkünlərin öz doğma yurdlarına dönməsi, həyatın həmin ərazilərdə öz axarına qayıtması Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın yaratdığı yeni reallığın parlaq təzahürüdür. Eyni zamanda, bütün bu işlərin Azərbaycan dövləti və hökuməti tərəfindən öz gücü hesabına həyata keçirilməsi ayrıca bir qürur mənbəyidir. Dünyada bu cür nümunələr çox azdır.

Onu da qeyd etmək lazımdır ki, ötən il bir çox sahələrdə olduğu kimi, təhsil sahəsində də bir çox mühüm layihələr həyata keçirildi. Ötən il təhsilə ayrılan vəsait daha da artırıldı, ali təhsil müəssisələrinin maddi-texniki bazası daha da gücləndirildi, yeni yaradılan ali təhsil müəssisələrinə qəbul planı artırıldı. Bu gün Qarabağ Universitetinin fəaliyyətini uğurla davam etdirməsi çox sevindirici və qürurvericidir. Bütün bunlar dövlətimizin bu sahəyə yüksək diqqət və qayğısını göstərir.

Eyni zamanda, qarşıda duran mühüm məsələlərdən biri də hesabatda da əksini tapdığı kimi, bölgələrdə yeni universitetlərin yaradılması və bölgə universitetlərinə qəbul planının artırılmasıdır. Bu, şəhərdə tıxacın azaldılmasına müsbət təsir göstərə bilər. Eyni zamanda, çıxışımın sonunda milli-mənəvi dəyərlərimizə, ailə institutuna yönələn təhdidləri nəzərə alaraq, milli-mənəvi dəyərlərin qorunması, ailə institutunun gücləndirilməsi ilə bağlı ayrıca proqramların qəbul edilməsini təklif edirəm.

Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Vüqar İskəndərov. Buyurun.

**Vüqar İskəndərov**. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, həmkarlar, media mənsubları. Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı yüksək qiymətləndirirəm. Ölkə Prezidentimiz cənab İlham Əliyevin yürütdüyü uğurlu siyasət hökumətin fəaliyyətini tam əhatə etmişdir və cənab Prezidentin hərtərəfli uğurlu siyasəti, həqiqətən də, hökumət tərəfindən 2025-ci ildə məqsədyönlü şəkildə uğurla icra olunmuşdur.

Vaxtın azlığını nəzərə alaraq, seçildiyim Şəki şəhəri ilə bağlı bir neçə məsələni diqqətinizə çatdırmaq istəyirəm. Ölkəmizin ən böyük kəndlərindən olan Şəki rayonunun Baş Göynük və Baş Şabalıd kəndlərini rayon mərkəzi və digər kəndlərlə birləşdirən yolun 11-ci kilometrliyində Şin çayı üzərində 2005-ci ildə körpü inşa edilib. İki kəndin əhalisi birlikdə 10 min nəfərdən çoxdur. Bu körpü Şəki şəhəri ilə həmin kəndləri birləşdirən yeganə çıxış yolu kimi də qeyd edilməlidir. Hörmətli cənab Baş nazir, hazırda körpüdə vəziyyət təhlükəli hal alıb, onun əsaslı təmirinə və ya yenidən tikilməsinə ciddi ehtiyac var.

Digər məsələ isə qazlaşdırma ilə bağlıdır. Belə ki, ümumilikdə, Şəki rayonu üzrə 71 yaşayış məntəqəsindən 49 məntəqə qazlaşdırılmışdır. Bu, ümumi, 69 faiz edir. 22 məntəqədə isə, 31 faiz edir, qazlaşdırma aparılmamışdır. Sizin diqqətiniz nəticəsində hazırda azsaylı xalqların yaşadığı rayonun ucqar kəndlərindən biri olan Şin kəndində və şəhərin yeni yaşayış massivi olan 120-ci və 121-ci kvartallarında qazlaşdırma işləri aparılır. Buna görə Sizə böyük təşəkkür bildiririk. Xahiş edərdik, rayonun qazlaşdırılmayan məntəqələrində də bu işin aparılmasına diqqət göstərəsiniz.

Vacib məsələlərdən biri də tibb məntəqələri ilə bağlıdır. Rayon sakinləri kəndlərdə yerləşən tibb məntəqələrində bəzi tibbi xidmətlərin, xüsusi ilə inyeksiya prosedurlarının həyata keçirilmədiyini bildirərək məsələnin həll olunmasını xahiş edirlər.

Hazırda vətəndaşların tibbi xidmətlərlə bağlı müraciətləri rayonda yalnız Rayon Mərkəzi Xəstəxanası və poliklinikalarda həyata keçirilir. Kənd tibb məntəqələrində isə xidmətlər zərfinə müvafiq olaraq, ilkin tibbi xidmətlər göstərilir. Halbuki bir çox kənd tibb məntəqələrində ixtisaslı tibbi personal mövcuddur. Rayonun bir sıra yaşayış məntəqələri şəhərdən 60, 70, 80 kilometr uzaq məsafədə yerləşir. Nəticədə vətəndaşlar uzaq məsafəni qət edərək şəhərə gəlməli olurlar. Bu da sakinlər üçün böyük çətinlik yaradır. İnyeksiya prosedurlarının icra edilməməsi rayon sakinləri tərəfindən daha çox müraciətlərin olmasına gətirib çıxarır. Məsələnin ciddiliyini nəzərə alaraq, bu məsələni diqqətə çatdırmaq istəyirəm və mərkəzdən uzaqda yerləşən yaşayış məntəqələrində əhalinin tələbatına uyğun tibbi xidmətin təşkilinə köməklik göstərməyinizi Sizdən xahiş edirəm.

Hökumətin 2025-ci ildəki hesabatını yüksək qiymətləndirir və ona səs verəcəyimi bildirirəm. Diqqətiniz üçün çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Rəşad Mahmudov. Buyurun.

**Rəşad Mahmudov.** Çox hörmətli sədr, hörmətli Baş nazir, dəyərli hökumət üzvləri və hörmətli həmkarlar. Belə bir deyim var, deyilir ki, "dövlətlərin gücü yalnız bugünkü imkanları ilə deyil, gələcəyi necə planlaşdırmaları ilə ölçülür". Bu mənada bu gün təqdim olunan hökumətin hesabatı təkcə görülən işlərin siyahısı deyil, həm də Azərbaycanın gələcək inkişaf istiqamətlərinin qiymətləndirilməsi baxımdan əhəmiyyətli bir sənəddir. Hesabatdan da göründüyü kimi, son illərdə Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmiz həm qlobal iqtisadi çağırışlar, həm də regionumuzda baş verən mürəkkəb geosiyasi proseslər fonunda sabit inkişafını qoruyub saxlaya bilmişdir.

Bugünkü dünyada enerji təhlükəsizliyi, logistka dəhlizləri və iqtisadi dayanıqlıq kimi məsələlər dövlətlərin strateji gücünü müəyyən edən əsas amillərə çevrilmişdir. Bu baxımdan Azərbaycanın həyata keçirdiyi iqtisadi siyasət ölkəmizi regionun mühüm iqtisadi və nəqliyyat mərkəzlərindən birinə çevirməkdədir. Hesabatdan da göründüyü kimi, son illərdə qeyri-neft sektorunun inkişafı, sənaye zonalarının yaradılması, nəqliyyat və logistika layihələrinin genişləndirilməsi ölkəmizin iqtisadi potensialını daha da gücləndirmişdir.

Eyni zamanda, sosial sahələrdə də mühüm addımlar atılmışdır. Səhiyyə sistemində aparılan islahatlar, icbari tibbi sığorta sisteminin tətbiqi, yeni tibb müəssisələrinin yaradılması və müasir tibbi texnologiyaların

ölkəmizə gətirilməsi vətəndaşlarımızın sağlamlığının qorunması baxımından mühüm nəticələr vermişdir. Düşünürük ki, bu sahədə aparılan islahatlar və görüləcək işlər bu sahənin daha da inkişafı üçün yeni-yeni imkanlar yaradacaqdır.

Bununla yanaşı, hesab edirəm ki, qarşıdakı dövrdə xüsusən regionların iqtisadi potensialından daha səmərəli istifadə olunması xüsusi əhəmiyyət daşıyır. Xüsusi ilə kənd təsərrüfatı imkanları yüksək olan bölgələrdə su ehtiyatlarının düzgün idarə olunması və yeni sututarlarının yaradılması strateji məsələlərdən biridir. Seçilmiş olduğum bölgə daxil olmaqla bu gün bir çox bölgələrdə kifayət qədər su mənbələri mövcuddur, lakin sututarlarının və müasir su toplama sistemlərinin yetərli olmaması səbəbindən bu imkanlardan tam istifadə etmək mümkün olmur. Halbuki sututarlarının yaradılması uzunmüddətli iqtisadi effekt verən və onilliklər boyu regionun inkişafına xidmət edən layihələrdir. Tarix göstərib ki, hələ ötən əsrin 70-ci illərində Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılan sututarları bu gün də bir sıra rayonların kənd təsərrüfatının və iqtisadi həyatının əsas dayaqlarından biridir. Bu baxımdan, hesab edirəm ki, yeni sututarlarının və su toplama sistemlərinin yaradılması yalnız kənd təsərrüfatının inkişafı deyil, bu, həm də regionların iqtisadi dayanıqlığı və ərzaq təhlükəsizliyi baxımından strateji məsələ kimi qiymətləndirilməlidir.

Digər tərəfdən, qeyd etmək istərdim ki, son illərdə regionlarda, xüsusən hesabatdan da gördüyümüz kimi, yol infrastrukturunun inkişafı istiqamətində çox mühüm işlər görülmüşdür. Daxili yolların çəkilməsi, kəndlərin və yaşayış məntəqələrinin əsas magistrallara çıxışının yaxşılaşdırılması regionların iqtisadi fəallığının artmasına ciddi töhfə vermişdir.

Hörmətli həmkarlar, dəyərli hökumət üzvləri, bu gün qarşıda duran əsas vəzifə, əlbəttə ki, ölkəmizin əldə etdiyi inkişaf tempini qorumaq və regionların potensialını daha səmərəli şəkildə iqtisadi dövriyyəyə cəlb etməkdir. Çünki regionların güclənməsi, bütövlükdə, Azərbaycanın güclənməsi deməkdir.

Hökumətin təqdim etdiyi hesabatı, ümumilikdə, müsbət qiymətləndirir və qeyd etdiyim məsələlərin gələcək fəaliyyət planlarında da nəzərə alınmasını arzu edirəm. Düşünürəm, qarşıdan gələn bayramlar münasibəti ilə, xüsusən dünyamızın bu qədər xəstələndiyi, qarşılıqlı münasibətlərin bu qədər pozulduğu dünya sistemi içərisində Azərbaycan öz inkişafına davam edəcək və qarşıda duran bütün çətinliklərin öhdəsindən də hər bir Azərbaycan vətəndaşı, eləcə də hökumət üzvləri və bizlər cənab Prezidentin humanizm bayrağı altında sıx birləşərək layiqincə gələcəyik.

Bir daha fürsət yaratdığınıza görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev**. Sağ olun. Çox hörmətli sədr, Baş nazir, qonaqlar, həmkarlar, media nümayəndələri. Hörmətli Baş nazirin hökumətin hesabatına dair çıxışını dinlədik. İlk öncə görülən işlərə görə öz təşəkkürümü bildirirəm. Amma məndən öncə çıxış edən həmkarlarımın qaldırdığı ciddi problemləri həll etmək, xalqımızın rifahını yüksəltmək, təhlükəsizliyini təmin etmək üçün artan çağırışlara cavab verən güclü və sürətlə böyüyən iqtisadiyyata sahib olmalıyıq. Hamılıqla etiraf etməliyik ki, iqtisadiyyatımızın mövcud inkişaf tempi, adambaşına düşən ÜDM-nin 1 faiz artması bizi qane edə bilməz. Çox təqdirəlayiq haldır ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov bu günlərdə “Vergi sistemində gələcəyə baxış: yeni

idarəetmə modeli və data əsaslı qərarlar" mövzusunda keçirilən Forumda çıxışı zamanı iqtisadiyyatımızın durumunu düzgün qiymətləndirərək deyib ki, "mövcud iqtisadi artım templəri ölkə iqtisadiyyatının real potensialını əks etdirmir və iqtisadi siyasətin əsas məqsədi yeni və daha dayanıqlı iqtisadi artım mənbələrinin formalaşdırılmasıdır". Nazir bildirib ki, 2027–2030-cu illəri əhatə edən tədbirlər planı hazırlanır.

Hörmətli hökumət üzvləri, böyük təbii sərvətlərə sahib Sovetlər İttifaqının iqtisadiyyatını 5 illik planlar xilas edə bilmədi. Dünyada elə bir nümunə yoxdur ki, dövlət iqtisadiyyata nəzarət etsin və həmin ölkədə iqtisadi inkişaf olsun. İqtisadiyyatın əsas sahələri dövlətin nəzarətindən çıxarılmalı və azad bazar iqtisadiyyatına keçid təmin edilməlidir.

Konstitusiyanın 15-ci maddəsində deyilir ki, "dövlət azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir". 59-cu maddədə isə göstərilir ki, "dövlət sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyatının və sağlamlığının müdafiəsi ilə bağlı tənzimlənməni həyata keçirir". 35-ci maddədə isə işsizliyin aradan qaldırılması üçün bütün imkanlardan istifadə edilməsi dövlətin əsas vəzifələrindən biri kimi qeyd olunur. Təəssüf ki, ölkəmizdə dövlət bizneslə məşğul olur, işsizliyin aradan qaldırılması üçün bütün mümkün imkanlardan istifadə edilmir. Bir nümunə göstərim. SOCAR 2,04 milyard dollara Türkiyədə "Petkim" zavodunu aldı və onun modernləşdirilməsi və genişləndirilməsi üçün əlavə 2 milyard dollar vəsait xərclədi. İndi həmin 4 milyard investisiya yatırılmış müəssisə milyonlarca dollar ziyanla işləyir. Halbuki həmin investisiya ölkə iqtisadiyyatına qoyulmalı, iş yerləri açılmalı idi. Ümumiyyətlə, Milli Məclisə, ictimaiyyətə dövlət müəssisələrinin siyahısı

və onların rentabelliyi barədə məlumat verilməli, bu rəqəmlər hökumətin hesabatına daxil edilməlidir.

İranın raket zərbələri nəticəsində İsrailə iş dalınca gedib tikinti şirkətində çalışan iki gəncin ölüm xəbərini eşitdik. İş dalınca Ukraynaya, Rusiyaya gedən nə qədər gənclər müharibəyə cəlb olunub həyatlarını itirirlər, Allah hamısına rəhmət etsin. Bakıda bu qədər istismar müddəti başa çatmış evlər, minimal standartlara cavab verməyən gecəqondular, qəzalı binalar olmasına baxmayaraq, tikinti şirkətləri tikintiyə icazə ala bilmədikləri üçün xarici ölkələrə gedir, mənzillərin qiyməti qalxır. Yalnız Özbəkistanda azərbaycanlılara məxsus 43 tikinti şirkəti fəaliyyət göstərir.

2026–2028-ci illər üzrə rəqabətin inkişafı üçün milli fəaliyyət proqramı hazırlanır. Bu proqramı, plan hazırlamağı bir kənara qoyub iş görmək lazımdır. 2016-cı ildə iqtisadiyyatın inkişafına dair strateji yol xəritəsi də qəbul olunmuşdu. Rəqabətin inkişafı üçün Ümumdünya Ticarət Təşkilatına üzv olmalıyıq. Qonşu ölkələrdən İran, Türkmənistan və biz Ümumdünya Ticarət Təşkilatına üzv deyilik. Bu təşkilata üzv olan qonşularımız Türkiyə, Rusiya, Qazaxıstan, Gürcüstan və Ermənistan üzv olmayan ölkələrdən daha yaxşı iqtisadi göstəricilərə sahibdirlər.

Dövlət Neft Fondunun vəsaitinin bir hissəsi yerli banklara yerləşdirilməlidir ki, sahibkarlarımız ucuz kreditlərə çıxış əldə edə bilsinlər. Mülkiyyəti və biznesi qorumaq, ölkə iqtisadiyyatına investisiya yatırılmasını cəlbedici və təhlükəsiz etmək üçün kompleks iqtisadi islahatlar, o cümlədən məhkəmə-hüquq islahatları həyata keçirilməlidir. Yoxsa İqtisad Məhkəməsinin adını dəyişdirib Kommersiya məhkəməsi qoymaq məhkəmə islahatı deyil.

Dövlət idarəetməsində ifrat mərkəzləşməyə son qoyub böyük özəlləşdirilməyə gedilməlidir. Hesabat ilində 236 kiçik dövlət müəssisəsi 135,3 milyon manata özəlləşdirilib. Hər biri təqribən 500-600 min manata. Çox yaxşı, amma bəlli deyil, hansı şərtlərlə özəlləşdirilib. Həmin müəssisələrdə iş yerləri qorunubmu, əlavə investisiya qoyulacaqmı və sair.

Hörmətli hökumət üzvləri, çox təəssüf ki, repetitorluqla bağlı da ciddi tədbirlər görülmür. Vaxtım başa çatır. Hamınızı qarşıdan gələn bayramlar münasibəti ilə təbrik edirəm.

**Sədrlik edən.** Sağ olun.

Sadiq Qurbanov.

**Sadiq Qurbanov**. Çox sağ olun. Dəyərli Sahibə xanım, hörmətli Baş nazir, həmkarlar və hökumət üzvləri. Öncə qeyd edim ki, hesabatı dəstəkləyir, hökumətə gələcək fəaliyyətində də uğurlar arzulayıram. Cənab Prezidentimizin apardığı siyasət Azərbaycanı bu gün dünyanın lider ölkələrindən birinə çevirib və bu yorulmaz fəaliyyətdə cənab Prezidentimizə də uğurlar arzulayırıq.

Qeyd edək ki, müasir beynəlxalq münasibətlər sistemi dərin geosiyasi və geoiqtisadi transformasiya mərhələsindən keçir. Son illərin hadisələri göstərir ki, enerji təhlükəsizliyi, qida təhlükəsizliyi və ekoloji davamlılıq artıq vahid strateji təhlükəsizlik sisteminin komponenti kimi çıxış edir. Beynəlxalq analitik mərkəzlərin qiymətləndirmələrinə görə, dünya ölkələrinin təxminən 38–40 faizi enerji təchizatı ilə bağlı ciddi təzyiqlər və enerji böhranı riskləri ilə qarşı-qarşıyadır. Bu isə enerji təhlükəsizliyinin yalnız iqtisadi inkişaf məsələsi olmadığını, eyni zamanda, dövlətlərin sosial sabitliyi və strateji davamlılıq üçün mühüm amilə çevrildiyini göstərir.

Enerji sektorunda yaranan qeyri-sabitlik, eyni zamanda, qida təhlükəsizliyinə də birbaşa təsir göstərir. Müasir kənd təsərrüfatı sistemində geniş istifadə olunan mineral gübrələrin istehsalı, əsasən, təbii qazdan əldə edilən ammonyak texnologiyalarına əsaslanır və bu səbəbdən enerji qiymətlərində baş verən dəyişikliklər kənd təsərrüfatı məhsullarının maya dəyərinə və ərzaq qiymətlərinə birbaşa təsir edir. Bu sahədə Yaxın Şərq və Körfəz regionu xüsusi rol oynayır və dünya üzrə karbamid ticarətinin böyük hissəsi də bu regiondan həyata keçirilir və nəzərə alsaq ki, daşımaların da Hörmüz boğazı vasitəsi ilə həyata keçirilməsi prosesə nə qədər təsir edir, bunu bilmək çətin deyil.

Regionda yaranan gərginliklər enerji bazarları ilə yanaşı, qlobal qida sisteminə də güclü təsir riskləri yaradır. Müasir qlobal çağırışlar fonunda dövlətlər enerji istehsalının artırılması ilə yanaşı, iqlim siyasətini də gücləndirirlər. Çünki enerji istehsalı, iqtisadi inkişaf və ekoloji təhlükəsizlik bir-biri ilə sıx bağlı olan strateji sahələrdir. Bir çox ölkələrdə qəbul olunan iqlim qanunları emissiyaların tənzimlənməsi, enerji səmərəliliyinin artırılması və bərpa olunan enerji mənbələrinin inkişafı üçün hüquqi mexanizmlər yaradır. Bu baxımdan Azərbaycanın da müasir çağırışlara uyğun iqlim qanunu qəbul etməsinə ehtiyac var və bu qanun qəbul edilərsə, xüsusi əhəmiyyət daşıyacaqdır. Belə bir qanun emissiyaların ölçülməsi və uçotu sisteminin formalaşdırılması, karbon bazarının yaradılması, iqlim tədbirlərinin şəffaf şəkildə monitorinqi üçün mexanizmlər yarada bilər. Bununla yanaşı, karbon kreditlərinin beynəlxalq ticarəti vasitəsi ilə ölkəyə əlavə maliyyə resursları cəlb edilə bilər.

Ekoloji siyasətin mühüm komponentlərindən biri də bərk məişət tullantılarının idarə olunmasıdır ki, Dünya Bankının məlumatına görə

dünyada hər il təxminən 2 milyard ton məişət tullantısı yaranır və bu rəqəmin 2050-ci ilə qədər 3,4 milyard tona qədər artacağı proqnozlaşdırılır. Bu sahədə beynəlxalq təcrübə onu deyir ki, bir çox təşəbbüslər də var. Xüsusi ilə də Birləşmiş Millətlər Təşkilatı bu sahəyə xüsusi diqqət ayırıb. Eyni zamanda, bizim qardaş ölkədə, Türkiyədə Əminə xanım Ərdoğanın təşəbbüsü ilə həyata keçirilən Sıfır Atık Projesi qısa müddət ərzində beynəlxalq səviyyədə nümunəvi ekoloji model kimi tanınmışdır. Hökuməti də bu sahəyə xüsusi diqqət ayırmağa və gələcəkdə yaranacaq problemlərin aradan qaldırılmasına töhfə verməyə dəvət edirik.

Əziz həmkarlar, vaxtın azlığından təkliflərimi stenoqrama təqdim edəcəyəm. Sonda seçicilərimin bir müraciəti ilə bağlı müraciət etmək istəyirəm. Belə ki, təmsil etdiyim Salyan rayonunun Aşağı Noxudlu və Yuxarı Noxudlu kənd məktəblərinin şagirdləri üçün həyati təhlükə yarandığına görə məktəblər fəaliyyətini dayandırıb. Nəticədə iki kəndin 513 şagirdi digər məktəblərə daşınaraq təhsil almağa məcbur olmuşdur ki, bu vəziyyət xüsusi ilə ibtidai sinif şagirdləri üçün çox ciddi çətinliklər yaradır. Onlar başqa məktəblərdə, 6–7 kilometr uzaqlıqda 4 növbəli sistemlə oxuyurlar. Valideynlərin narahatlığını, uşaqların təhlükəsizliyini nəzərə alaraq, bu kəndlərdə məktəb tikintisinə və illər öncə investisiya proqramına daxil olunmuş Qaradağlı–Qaraçala–Kürsəngi yolunun təmirinə dəstək göstərilməsini də hökumətdən xahiş edirəm. Bir daha hökumətə uğurlar arzulayıram və hesab edirəm ki, cənab Prezidentin apardığı siyasətə uyğun fəaliyyət göstərirlər. Bir daha uğurlar.

Sağ olun.

**Sədrlik edən.** Sadiq müəllim, çox sağ olun.

Təklif var, səsə qoyaq. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Mən çıxış edənlərin hamısına təşəkkür edirəm.

Hörmətli Əli müəllim, çıxışlarda səslənən fikirlərə hansısa bir münasibət bildirmək istəyirsinizmi? Buyurun.

**Əli Əsədov.** Hörmətli xanım sədr, hörmətli deputatlar. İlk növbədə deyim ki, keçənilki hesabatdan bu günə qədər deputatların müraciətlərinin sayı 124 idi. Hökumət, hökumətin müvafiq qurumları tərəfindən il ərzində 51 müraciət tam şəkildə icra edilmişdir. 35 müraciətə baxılmaqdadır, icra səviyyəsi yüksəkdir. Yəqin ki, yaxın zamanlarda bunlar da icra olunacaq. Yerdə qalmış 38 müraciətin də üzərində iş aparılır. Yəqin ki, onlar da öz həllini tapacaqdır.

Hörmətli xanım sədr, hörmətli deputatlar. Bu gün Milli Məclisdə hökumətin hesabatını dinlədiyinizə görə, bu hesabatın müzakirəsinin yüksək səviyyədə təşkil olunduğuna görə Milli Məclisin rəhbərliyinə, xanım sədr, şəxsən Sizə və bütün deputatlara təşəkkürümüzü bildirmək istəyirəm.

Hökumətin hesabatına müsbət rəy və yüksək qiymət verdiyinizə və qəbul etdiyinizə görə də, – ümidvarıq ki, qəbul olunacaq, – hər birinizə bir daha minnətdarıq.

Milli Məclislə hökumət arasında formalaşmış səmərəli və faydalı əməkdaşlığı, qurulmuş işgüzar münasibətləri yüksək qiymətləndiririk, bu gün və gələcəkdə də fəaliyyətimizi bu istiqamətdə quracağıq.

Hörmətli deputatlar tərəfindən seçicilərinin müraciətləri əsasında qaldırılan məsələlər, hər zaman olduğu kimi, hökumətin aidiyyəti qurumları tərəfindən mövcud imkanlar çərçivəsində diqqətdə saxlanılacaq və maksimal dərəcədə icrası üçün hər bir şey olunacaqdır.

Diqqətinizə və münasibətinizə görə bir daha təşəkkür edirik.

**Sədrlik edən.** Çox sağ olun, hörmətli Əli müəllim.

Hörmətli həmkarlar, bu gün 30 nəfər çıxış etdi və çıxış edənlərin mütləq əksəriyyəti hökumətin hesabatı haqqında müsbət rəy bildirdilər. Mən hesabatın nəzərə alınması barədə qərar layihəsini səsə qoyacağam. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 16.07 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 1 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Hörmətli həmkarlar, mən bilirəm ki, bir çox hörmətli həmkarlarımız çıxış edə bilmədi. Xahiş olunur, siz öz çıxışlarınızı yazılı surətdə katibliyə verin. Fərid müəllim, Sizdən xahiş edəcəyəm ki, stenoqramda çox diqqətli olsunlar. Burada çıxışların birində deyildi ki, “Rusiya–Belarusiya cəbhəsi”. “Rusiya–Ukrayna cəbhəsi”. Diqqətli olun. Yaxşı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, biz bir daha hökumətə gələcək fəaliyyətində uğurlar arzulayırıq. Bizim iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm.

Sağ olun.

## EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***13 mart 2026-cı il***

**Ağalar Vəliyev.** Müstəqillik tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan üçün hesabat ili olan 2025-ci il möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə gerçəkləşdirilən uğurlu dövlət siyasəti sayəsində müasir həyatımızın bütün sahələrində davamlı inkişafın təmin edilməsi ilə əlamətdar olmuşdur.

Müzakirəmizə təqdim olunan, zəngin strukturu, analitik informasiyaları və məzmunlu təhlilləri ilə seçilən Nazirlər Kabinetinin hesabatı, zənnimcə, yüksək peşəkarlıqla hazırlanmışdır.

Düşünürəm ki, sürətlə dəyişən yeni qlobal çağırışlar şəraitində hörmətli dövlət başçımızın ardıcıl həyata keçirdiyi konseptual islahatların nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafının bütün parametrləri və aspektləri hesabatda dolğun şəkildə öz əksini tapmışdır.

Son illərin ağır geosiyasi və geoiqtisadi mənzərəsi fonunda Azərbaycanın dayanıqlı inkişafının və makroiqtisadi sabitliyinin təmin edilməsini hökumətin səmərəli fəaliyyətinin başlıca prioritetləri kimi xarakterizə edərdim. Eyni zamanda, milli iqtisadiyyatımızın ixracyönümlü istiqamətlərdə stimullaşdırılmasını, sənayeləşmənin gücləndirilməsini, özəl sektorun təşviqini, investisiya mühitinin yaxşılaşdırılmasını, işğaldan azad olunmuş ərazilərimizin bərpasını və Böyük Qayıdış proqramının icrası istiqamətlərində görülən işləri olduqca müsbət məqamlar kimi dəyərləndirərdim.

Nazirlər Kabinetinin hesabatının müzakirəsi kontekstində seçicilərimin ölkə rəhbərinə ünvanlanan çoxsaylı minnətdarlıq hisslərini ifadə edərək

böyük məmnunluqla qeyd etmək istərdim ki, hər zaman cənab Prezidentin diqqəti və qayğısı ilə əhatə olunan və millət vəkili kimi təmsilçisi olduğum Xaçmaz rayonunun son illər ərzində sosial-iqtisadi inkişafının sürətləndirilməsi və infrastrukturunun təkmilləşdirilməsi istiqamətlərində xeyli işlər görülmüşdür.

Bununla belə, rayonun həlli vacib olan bəzi problemləri hələ də qalmaqdadır ki, hökumət üzvlərinin iştirakından istifadə edərək onları səsləndirmək istərdim.

Belə ki, 11 kilometr uzunluğunda Ustacəlilli, Qaradağ Buduq, Canaxır, Bəyqışlaq, Suxtaqalaqışlaq, Bayoba kəndlərini rayon mərkəzi ilə birləşdirən avtomobil yollarının əsaslı təmirinə, Əzizli, Ağarəhimoba, Üryanoba, Çaxmaqlı, Qaraqaşlı, Qarğalıq kəndlərinin qazlaşdırılmasına, Xaçmaz şəhərinin yeni salınmış yaşayış massivlərinin 40 küçəsində 1800 evə su-kanalizasiya xətlərinin çəkilməsinə, qəzalı vəziyyətdə olan şəhər 1 saylı tam orta məktəbinin, Armudpadar ümumi orta məktəbinin və şəhər 5 saylı uşaq bağçasının binalarının yenidən tikilməsinə ehtiyac vardır.

Ümidvaram ki, sadaladığım problemlərin həlli istiqamətlərində respublikanın aidiyyəti qurumları tərəfindən əməli tədbirlər görüləcəkdir ki, bu da son nəticədə Xaçmaz rayonunun sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə böyük töhfə olacaqdır.

Hər zaman olduğu kimi, Azərbaycan xalqı bu gün qətiyyətlə inanır ki, keyfiyyətcə yeni strateji mərhələdə cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən uğurlu dövlət siyasəti və köklü islahatlar ölkəmizin qüdrətinin daha da artmasına və yüksək sosial rifah cəmiyyətinin formalaşmasına möhkəm zəmin yaradacaqdır.

Əminəm ki, Nazirlər Kabineti qarşıda duran bu və digər vəzifələrin, eləcə də dövlət başçısının gələcək inkişafımızın  yeni hədəfləri ilə bağlı imzaladığı fərman və sərəncamların, göstəriş və tapşırıqların icrasını layiqincə təmin edəcəkdir.

Çıxışımın sonunda Nazirlər Kabinetinin 2025-ci ildəki fəaliyyətini yüksək qiymətləndirərək dəyərli həmkarlarımı hökumətin hesabatını dəstəkləməyə çağırıram. Hər birinizi qarşıdan gələn Novruz və Ramazan bayramları münasibəti ilə təbrik edirəm və möhtərəm Prezidentimizin rəhbərliyi altında doğma Azərbaycanımızın hərtərəfli tərəqqisi naminə səmərəli fəaliyyətinizdə uğurlar arzulayıram.

**Anar Məmmədov.** Bu gün biz Azərbaycanın müstəqillik tarixinin ən əlamətdar və siyasi hadisələrlə zəngin illərindən birinin – 2025-ci ilin yekunlarını müzakirə edirik. Hesabat ilinin təhlili göstərir ki, qlobal etimad böhranı və dərinləşən geosiyasi gərginliklər fonunda cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sarsılmaz siyasi və iqtisadi sabitlik qorunub saxlanılmışdır.

Ötən il Azərbaycanın beynəlxalq arenada nüfuzu yeni bir mərhələyə qədəm qoymuşdur. Vaşinqton Sammiti və imzalanmış Birgə Bəyannamə regionda sülh və əməkdaşlıq üçün yeni reallıqlar yaratmışdır. Zəngəzur dəhlizi çərçivəsində beynəlxalq əhəmiyyətli nəqliyyat kommunikasiyalarının açılması istiqamətində atılan addımlar, xüsusi ilə TRIPP layihəsi Azərbaycanın qlobal logistik mərkəz statusunu daha da möhkəmləndirmişdir.

Hökumətin fəaliyyətində xüsusi qeyd edilməli məqamlardan biri də ölkəmizin D-8 təşkilatına və Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməsidir ki, bu da çoxşaxəli xarici siyasətimizin uğurlu nəticəsidir.

Dünya bazarlarındakı qeyri-müəyyənliklərə baxmayaraq, 2025-ci ildə iqtisadiyyatımızın əsas hərəkətverici qüvvəsi olan qeyri-neft sektoru 2,7 faiz artmışdır. Bu, iqtisadiyyatın şaxələndirilməsi strategiyasının real bəhrəsidir. Hesabat ili ərzində strateji valyuta ehtiyatlarımızın 19,8 faiz artaraq 85,1 milyard dollara çatması və xarici borcumuzu 17 dəfədən çox üstələməsi dövlətimizin etibarlı maliyyə yastığına sahib olduğunu təsdiq edir.

Hökumətin fəaliyyətində sosialyönümlü siyasət yenə də prioritet təşkil etmişdir. Dövlət büdcəsi xərclərinin təxminən 40 faizinin məhz sosial sahəyə yönəldilməsi, şəhid ailələrinin və müharibə əlillərinin mənzil şəraitinin yaxşılaşdırılması dövlətimizin hər bir vətəndaşına olan diqqət və qayğısının göstəricisidir.

Böyük Qayıdış proqramı çərçivəsində Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı quruculuq işləri 2025-ci ilin ən qürurverici mənzərəsidir. Azad edilmiş bölgələrdə müasir infrastrukturun qurulması, əhalinin məskunlaşması prosesinin sürətlənməsi və orada həyatın canlanması hökumətin bu istiqamətdəki effektiv fəaliyyətinin nəticəsidir.

Nazirlər Kabinetinin Milli Məclislə işgüzar əməkdaşlığı, qaldırılan məsələlərə həssaslıqla yanaşılması qanunverici və icraedici hakimiyyət arasındakı səmərəli dialoqun nümunəsidir. Hesabat ilində qəbul edilmiş qərar və sərəncamlar ölkə həyatının bütün sferalarında dinamik inkişafı təmin etmişdir.

Bütün bunları nəzərə alaraq, görülən genişmiqyaslı işləri yüksək qiymətləndirir, Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyətini dəstəkləyir və hesabata müsbət səs verəcəyimi bəyan edirəm.

**Azər Allahverənov**. İlk əvvəl onu bildirmək istəyirəm ki, Nazirlər Kabinetinin 2025-ci ildə həyata keçirdiyi fəaliyyəti özündə əks etdirən hesabat həm məzmun və struktur baxımından mükəmməl, həm də statistik göstəricilər və faktoloji materiallarla zəngindir. Mən bu sənədi yüksək dəyərləndirirəm. Onun hazırlanmasında əziyyəti keçən şəxslərə dərin təşəkkürümü bildirirəm. Təşəkkürümü həm də ona görə bildirirəm ki, il ərzində Nazirlər Kabinetinin strukturuna daxil olan qurumlara etdiyimiz müraciətlərə həssaslıqla yanaşılmış, qaldırdığımız məsələlərin həlli istiqamətində zəruri addımlar atılmışdır.

Bu gün təmsil etdiyim 29 saylı Sabunçu dördüncü seçki dairəsinin əhatə etdiyi Nardaran, Zabrat, Kürdəxanı və digər qəsəbələrdə yaşayan əhalinin çoxsaylı müraciətlərini əsas götürərək vacib sayılan bir sıra məsələni diqqətinizə çatdırmaq istəyirəm.

Birinci məsələ kənd təsərrüfatı məhsullarının ixracı ilə bağlıdır. Bildiyimiz kimi, kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının strateji sahələrindən biridir. Rəsmi statistikaya görə ölkə əhalisinin əhəmiyyətli hissəsi birbaşa və ya dolayı şəkildə kənd təsərrüfatı ilə məşğuldur. Bakıətrafı qəsəbələr, xüsusi ilə də Nardaran, Kürdəxanı və digər yaşayış məntəqələrində yaşayan minlərcə insanın gəliri məhz bu sahədən asılıdır.

Lakin bu gün qəsəbələrin əkin sahələrində yetişdirilən məhsulun sakinlər tərəfindən fərdi qaydada xarici bazarlara çıxarılması ciddi çətinliklərlə üzləşir. Əsas problemlərdən biri, sakinlərin qeyd etdiyi kimi, gömrük rüsumlarının və logistika xərclərinin yüksək olmasıdır. Belə ki, böyük zəhmət və xərc hesabına yetişdirilən məhsulu xarici bazara çıxarmaq üçün daşınma, gömrük və digər rüsumlar əlavə olunanda məhsulun maya dəyəri kəskin şəkildə artır. Nəticədə iqtisadi cəhətdən

sərfəli olmayan şərtlərlə, yəni böyük məsrəflə başa gəlməklə ixrac edilən məhsul xarici bazarlarda rəqabətə tab gətirmir.

Yeri gəlmişkən, o da məlumdur ki, bizə yaxın ölkələrdə kənd təsərrüfatı məhsullarının ixracı dövlət tərəfindən ciddi şəkildə stimullaşdırılır. Bəzi ölkələrdə ixracatla məşğul olan fermerlərə xüsusi şərtlərlə subsidiyalar verilir, logistik dəstək göstərilir və vergi güzəştləri tətbiq olunur. Belə bir yanaşmanın məqsədi kənd təsərrüfatını inkişaf etdirməklə yanaşı, bu sahədə yetişdirilən məhsulların xarici bazarlarda rəqabət qabiliyyətini artırmaq və nəticədə ölkəyə daha çox xarici valyuta gətirməkdir.

Ölkəmizdə regionların, xüsusi ilə də fermer təsərrüfatlarının inkişaf etdirilməsi üçün əlverişli imkanlar yaradılmaqdadır. Bununla yanaşı, Bakıətrafı kəndlərdə gülçülük və tərəvəzçilik sahələrinin daha dinamik və çevik mexanizmlər hesabına inkişaf etdirilməsinə ciddi ehtiyac var. Bu baxımdan, düşünürəm ki, qabaqcıl modellərdən yararlanmaqla bu istiqamətdə ölkəmizdə əlavə stimullaşdırıcı mexanizmlər tətbiq etmək olduqca vacibdir. Gömrük prosedurlarının sadələşdirilməsi, logistika xərclərinin azaldılması və kənd təsərrüfatı məhsullarının ixracına dövlət dəstəyinin gücləndirilməsi həm fermerlərin gəlirlərini artırar, həm də ölkənin qeyri-neft ixracının genişlənməsinə töhfə verər.

İkinci məsələ isə torpaq və yaşayış sahələrinin sənədləşdirilməsi ilə bağlıdır. Nardaranda və digər Bakıətrafı qəsəbələrdə yaşayan insanlar onilliklərdir ata-babadan qalan torpaqlarda yaşayır və həmin torpaqlarda təsərrüfat fəaliyyəti ilə məşğul olurlar. Bu torpaqlarda evlər tikilib, əkin sahələri yaradılıb, heyvandarlıq təsərrüfatları formalaşıb. Yəni insanlar faktiki olaraq uzun müddətdir ki, həmin ərazilərdə yaşayır və təsərrüfat işləri ilə məşğuldurlar. Lakin buna baxmayaraq, bir çox hallarda həmin

torpaqların və yaşayış evlərinin rəsmi sənədləşdirilməsi məsələsi hələ də həllini tapmayıb.

Belə ki, seçicilərimlə keçirdiyim görüşlərdən məlum olur ki, Nardaran, Zabrat və digər qəsəbələrdə bəzi ev və torpaq sahələrinin müəyyən bir hissəsi üzərində mülkiyyət hüququ rəsmiləşdirilməyib. Halbuki insanlar uzun müddətdir, bu torpaqlarda yaşayır, bələdiyyələrə müəyyən ödənişlər edir, lakin mülkiyyət hüquqları tam şəkildə tanınmır. Bu isə əhalinin böyük bir hissəsinin hüquqi cəhətdən qeyri-müəyyən şəraitdə yaşamasına səbəb olur. Bu vəziyyət bir sıra problemlər yaradır. İnsanlar öz torpaqlarından və evlərindən girov kimi istifadə edə bilmir, bank kreditlərinə çıxış imkanları məhdudlaşır, investisiya qoyuluşu çətinləşir, əhali arasında sosial narahatlıq yaradır. Bu səbəbdən, hesab edirəm ki, bu məsələnin həlli üçün kompleks və sistemli yanaşmanın formalaşdırılması dövrün tələbidir. Aidiyyəti dövlət qurumlarının iştirakı ilə yeni dövrün tələblərinə uyğun xüsusi komissiyalar yaradılmalı, uzun illərdir, istifadə olunan torpaq sahələrinin vəziyyəti yerində araşdırılmalı və onların sənədləşdirilməsi prosesi qanunvericiliyə uyğun şəkildə sürətləndirilməlidir.

Nəhayət, sonuncu məsələ adıkeçən qəsəbələrdə istirahət yerlərinin yaradılması ilə bağlıdır. Məlumdur ki,  ölkəmizdə cəmiyyətin az müdafiə olunan təbəqəsinə aid edilən uşaqların sağlam mühitdə böyüməsi bu sahədə həyata keçirilən siyasətin prioritet istiqamətlərindəndir. Lakin təmsil etdiyim seçki dairəsinin əhatə etdiyi Zabrat, Kürdəxanı, Pirşağı və Nardaran qəsəbələrində uşaqların istifadəsi üçün nəzərdə tutulan idman meydançaları yoxdur və bu da onların fiziki cəhətdən sağlam inkişaf imkanlarını məhdudlaşdırır. İstirahət yerlərinə gəldikdə isə bildirmək istəyirəm ki, Zabrat və Pirşağı qəsəbələrində bir neçə onillik bundan qabaq

inşa edilmiş və bu gün əsaslı təmirə ehtiyacı olan mədəniyyət evləri yetərincə funksional deyil, bu məsələyə diqqət yetirilməlidir. Diqqət yetirilməli olan digər məsələ Zabrat sakinlərinin asudə vaxtlarının keçirilməsi üçün istirahət parkının olmamasıdır. Hesab edirəm, mədəni hüquqların geniş şəkildə təmin olunması baxımından qeyd etdiyim məsələ olduqca vacibdir.

Kənd təsərrüfatının inkişafı, regionların sosial rifahı və ölkə əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılması dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Bu baxımdan kənd təsərrüfatı məhsullarının ixracının genişləndirilməsi, torpaq münasibətlərində mövcud hüquqi müstəvidə yer alan çətinliklərin aradan qaldırılması, Zabrat və digər qəsəbələrdə yaşayan əhalinin asudə vaxtının təşkil olunması üçün istirahət məkanlarının yaradılması, parkların və idman meydançalarının salınması xüsusi əhəmiyyət kəsb edir.

Əminəm ki, ötən ildə olduğu kimi, bu dəfə də qaldırdığım məsələlərə diqqətlə yanaşılacaq və aidiyyəti qurumlar tərəfindən onların həlli istiqamətində zəruri addımlar atılacaqdır.

**Azər Kərimli.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında təqdim olunan hesabatı göstərir ki, ötən il mürəkkəb regional və qlobal şəraitə baxmayaraq, ölkəmizdə makroiqtisadi sabitlik qorunub saxlanılıb, iqtisadi inkişafın əsas istiqamətləri üzrə ardıcıl fəaliyyət davam etdirilib və dövlət idarəçiliyində sistemlilik təmin olunub.

Hesab edirəm ki, əldə olunan müsbət nəticələrin ən mühüm tərəflərindən biri iqtisadiyyatın keyfiyyətcə dəyişməsi ilə bağlıdır. Xüsusi ilə qeyri-neft sektorunda artımın davam etməsi, istehsal və ixrac imkanlarının genişlənməsi iqtisadiyyatımızın daha dayanıqlı modelə keçdiyini göstərir.

2025-ci ilin hesabatında xüsusi vurğulanmalı istiqamətlərdən biri də sosial sahədir. Dövlət başçısının qərarı ilə 2025-ci ildən minimum əməkhaqqının, əmək pensiyasının minimum və orta aylıq məbləğinin artırılması sosial ədalət və vətəndaş rifahının dövlət siyasətinin mərkəzində dayandığını bir daha təsdiqlədi. Bundan əlavə, 2025-ci ildə ölkəmizdə bütün sektorlarda orta aylıq nominal əməkhaqqı da nəzərəçarpacaq dərəcədə artıbdır. Bu göstəricilər onu deməyə əsas verir ki, iqtisadi artımın nəticələri tədricən sosial rifaha transformasiya olunur.

Hökumətin fəaliyyətində mühüm və strateji istiqamətlərdən biri də işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləridir. Böyük Qayıdış proqramının icrası davam edir və artıq 75 min insan həmin ərazilərdə yaşayır, çalışır və təhsil alır. Bu, sadəcə, tikinti və infrastruktur layihəsi deyil, bu, dövlətimizin suverenliyinin, idarəetmə gücünün və sosial məsuliyyətinin real təzahürüdür.

Təqdim olunan hesabat bir daha göstərir ki, Azərbaycan hökuməti Prezident İlham Əliyevin müəyyən etdiyi strateji kursa uyğun olaraq, 2025-ci ildə də qarşıya qoyulan vəzifələrin icrası istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyət göstərib.

Əlbəttə, qarşıda bizi gözləyən vəzifələr də az deyil. Lakin vacib olan odur ki, dövlətin siyasi iradəsi, iqtisadi resursları və idarəçilik təcrübəsi bu vəzifələrin də uğurla yerinə yetiriləcəyinə zəmin yaradır.

Fürsətdən istifadə edərək təmsil etdiyim Zaqatala və Balakən rayonlarında seçicilərimi narahat edən bir məsələ ilə bağlı müraciət etmək istəyirəm.

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti 2025-ci ildə də daşınmaz əmlakın qeydiyyatı sahəsində islahatları davam etdirmiş

və müsbət nəticələr əldə etmişdir. Yalnız 2025-ci ildə ölkə üzrə 565 min hektar torpağın yer quruluşu sahəsində elektron uçotu başa çatdırılıb və Torpaqların Elektron Kadastr Uçotu İnformasiya Sisteminə inteqrasiya edilib.

Həmçinin Zaqatala və Balakən rayonlarında da Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən torpaqlardan istifadə olunmasında mövcud uyğunsuzluqların aradan qaldırılması və nəzərdə tutulmuş tədbirlərin yekunlaşdırılması çərçivəsində dürüstləşdirmə işləri bu gün də aparılır və buna görə İqtisadiyyat Nazirliyinin rəhbərliyinə öz təşəkkürümü bildirirəm.

Amma vətəndaşların torpaq sənədlərindəki məlumatlarla faktiki vəziyyət arasındakı uyğunsuzluqlar hələ də çox saydadır və bu gün də çoxsaylı torpaq mübahisələrinə və qeydiyyat məsələlərində problemlərə, məhkəmə çəkişmələrinə səbəb olur. Həmin vətəndaşlar yaşadıqları ərazidə ev, sahibkarlıq obyekti və sair tikintilərin layihələndirilməsini və tikilməsini təmin edə bilmir, alğı-satqı, bağışlama, vərəsəlik və digər əməliyyatlar zamanı ciddi problemlərlə üzləşirlər.

Hörmətli Baş nazirimizdən Zaqatala və Balakən rayonlarında torpaqlardan istifadə olunmasında mövcud uyğunsuzluqların aradan qaldırılması istiqamətində işlərin daha da sürətləndirilməsi üçün imkanlar daxilində köməklik göstərməyini xahiş edirəm.

Yeri gəlmişkən, keçənilki hesabat zamanı Zaqatala və Balakən rayonlarında çayların məcrasının dəyişməsi və yaz-yay mövsümündə sel təhlükəsi ilə bağlı qaldırdığım məsələnin həlli üçün hökumətimiz tərəfindən əsaslı tədbirlər görülmüş və bu gün də davam etməkdədir. Buna görə öz təşəkkürümü bildirmək istəyirəm.

Mən Nazirlər Kabinetinin 2025-ci ildəki fəaliyyətinə dair hesabatı müsbət qiymətləndirirəm və hökumətə ölkəmizin inkişafı naminə gələcək fəaliyyətində də uğurlar arzu edirəm.

**Eldar Quliyev.** Nazirlər Kabinetinin 2025-ci ildəki fəaliyyəti ölkəmiz üçün tarixi və siyasi hadisələrlə zəngin olan bir dövrə təsadüf edir. Belə ki, keçən il Vaşinqtonda keçirilən sammitdə ABŞ, Azərbaycan və Ermənistan dövlət başçıları Birgə Bəyannamə imzalamış, Azərbaycan Respublikası D-8 təşkilatına üzv olmuş və Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilmişdir. Azərbaycanla Çin Xalq Respublikası arasında imzalanan hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə iki ölkə arasında əlaqələrin genişlənməsinə təkan verməklə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində inkişaf etməsinə zəmin yaratmışdır.

Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, 2025-ci ildə qlobal səviyyədə beynəlxalq hüququn tez-tez pozulması, regional müharibə və münaqişələrin davam etməsi hər bir ölkədə müdafiə və milli təhlükəsizliyin təmin edilməsini ön plana çəkmişdir. Belə bir şəraitdə ölkəmizdə hörmətli Prezidentimiz cənab İlham Əliyevin çox uğurla həyata keçirdiyi xarici və daxili siyasət nəticəsində siyasi və iqtisadi sabitlik qorunub saxlanılmış, gələcək inkişaf üçün möhkəm maliyyə bazası yaradılmışdır. Bunun nəticəsidir ki, hesabat ilində respublikamızın strateji valyuta ehtiyatları 19,8 faiz artaraq 85 milyard dollardan çox olmuşdur. Bu isə o deməkdir ki, valyuta ehtiyatlarımız xarici borcumuzu 17 dəfə üstələyir və bu, çox yüksək göstərici olmaqla nadir hallarda baş verir.

Hesabat ilində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında hökumətin həyata keçirdiyi təqdirəlayiq tədbirlər uğurlu nəticələr əldə etməyə imkan vermişdir. 2025-ci ildə ölkəmizdə əsas qlobal

iqtisadi göstərici olan ümumi daxili məhsul istehsalı 2024-cü ilə nisbətən 1,4 faiz artmışdır. İlk baxışdan bu artım çox görünməsə də, nəzərə almaq lazımdır ki, iqtisadiyyatımızın əsasını təşkil edən neft-qaz sektorunda, təbii olaraq, hər il azalma gedir və bunun müqabilində iqtisadi artım qeyri-neft-qaz sektoru hesabına təmin edilir. Burada artım isə 2,7 faiz olmuşdur. Keçən il qeyri-neft-qaz sektorunda yeni müəssisələrin işə başlaması və mövcud olanların fəaliyyətinin genişlənməsi məşğul əhalinin sayının çoxalmasına və bu sektordan vergi gəlirlərinin artmasına əlverişli şərait yaratmışdır. 2025-ci ildə qeyri-neft-qaz sektorundan vergi daxilolmaları proqnozdan artıq olmaqla 2024-cü ilə nisbətən 8,9 faiz çox olmuşdur. Bütün bunlar onu göstərir ki, Azərbaycan hökuməti Prezident cənab İlham Əliyevin formalaşdırdığı iqtisadi strategiyaya uyğun olaraq, ölkəmizdə istehsal, xidmət və digər sahələrdə innovativ texnika və texnologiyaların tətbiqini həyata keçirməklə iqtisadiyyatın düzgün istiqamətdə inkişafını təmin edir. Təkcə onu demək kifayətdir ki, Heydər Əliyev adına Neft Emalı Zavodunda keçən il 6 milyon tondan artıq neft emal olunmuş və emalın dərinliyi çox yüksək olmaqla 97 faiz təşkil etmişdir. Hökumətin həyata keçirdiyi bu və digər tədbirlər keçən il inflyasiyanın cəmi 5,6 faiz təşkil etməsi, orta aylıq əməkhaqqının 9,3 faiz artması və sosialyönlü xərclərin büdcə xərclərinin 39,5 faizini təşkil etməklə 2024-cü ilə nisbətən 4,1 faiz artması ilə nəticələnmişdir.

Hesabatda diqqətçəkən məqamlardan biri də əvvəlki ilin hesabatı müzakirə ediləndə Milli Məclis üzvlərinin qaldırdığı məsələlərin icrasına dair geniş və əhatəli məlumatların əks olunmasıdır. Bununla əlaqədar bildirmək istəyirəm ki, seçicilərimin müraciətini nəzərə alaraq, mən hökumətdən deputatı olduğum seçki dairəsinin əhatə etdiyi Maştağa,

Bilgəh və Zabrat qəsəbələrində daxili yolların təmir edilməsini xahiş etmişdim. Hazırda həmin qəsəbələrdə yolların düzəldilməsi ilə yanaşı, həm də bəzi evlərin və dam örtüklərinin təmiri, habelə məhəllədaxili elektrik xətləri və dirəklərinin təzələnməsi davam edir. Xahişimizə diqqətlə yanaşdıqları və müvafiq tədbirlər gördüyünə görə hörmətli Baş nazirimiz Əli Əsədova, Bakı şəhər İcra Hakimiyyətinin və işin icraçısı olan Bakı Abadlıq Xidmətinin rəhbərliyinə seçicilərim adından minnətdarlığımı və təşəkkürümü bildirirəm. Eyni zamanda, bildirirəm ki, Maştağa qəsəbəsinin Savalan yaşayış massivində qəbiristanlıq üçün sahə ayrılması barədə müraciətimiz hələ öz həllini tapmayıb.

Mən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyətini qənaətbəxş hesab edirəm və bu barədə müzakirəyə təqdim olunmuş hesabatı dəstəkləyirəm.

**Elnarə Akimova.** Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabat məzmunca informativ olmaqla yanaşı, ötən ildə qazanılan uğurlara gətirib çıxaran yolun hesabatıdır. Yəni işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuğun, genişmiqyaslı bərpa işlərinin davam etdiyi tarixin hesabatıdır. Mühüm olan budur ki, iqtisadiyyatımız, milli müdafiəmiz, təhlükəsizliyimiz gücləndirilib, millətimiz üçün vacib olan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının heç bir xarici yardım olmadan dirçəldilməsi və vətəndaşlarımızın planlı şəkildə köçürülməsi davam etdirilib. İşğaldan azad edilmiş rayonlarla yanaşı, ölkənin digər ərazilərində də tikinti-quruculuq işləri aparılıb. Yeni məktəb binaları tikilib, peşə təhsilinə xüsusi diqqət yetirilib.

Ancaq bunlarla yanaşı, yaşadığımız reallıqlar çox ciddi islahatların sürətlə həyata keçirilməsini tələb edir. Bu mənada mən də deputatı olduğum ərazilərə dair bəzi ciddi nüanslara toxunmaq istəyirəm.

Sumqayıt şəhərinin müxtəlif qəsəbələrində və yaşayış massivlərində vətəndaşlarla görüşlər keçiririk, onların problemlərini dinləyirik. Bu görüşlər zamanı xüsusi ilə iki ərazi – Stansiya Sumqayıt və Dəmir yolunun yük həyəti yaşayış massivlərində yaşayan insanların üzləşdiyi ciddi bir problem diqqətimizi cəlb edir. Bu, məktəb və bağça problemidir.

Stansiya Sumqayıt yaşayış massivində yalnız çox kiçik bir məktəb fəaliyyət göstərir. Məktəbin otaqları darısqal və sıx şəraitlidir, şagirdlərin rahat və keyfiyyətli təhsil alması üçün yetərli imkanlar yoxdur. Eyni vəziyyət bağça ilə də bağlıdır. Bağça, demək olar ki, cəmi bir kiçik otaqdan ibarətdir və bu həmin ərazidə yaşayan ailələrin ehtiyaclarını qətiyyən qarşılamır.

Daha ağır vəziyyət isə Dəmir yolunun yük həyəti yaşayış massivindədir. Bu ərazidə təxminən min ailə yaşayır, lakin burada nə məktəb, nə də uşaq bağçası mövcuddur. Valideynlər məcbur qalaraq uşaqlarını Sumqayıt şəhərindəki məktəblərə aparırlar. Təsəvvür edin, yüzlərcə valideyn hər gün səhər saat 6-da yola çıxır ki, övladlarını vaxtında məktəbə çatdıra bilsin. Xüsusi ilə qış aylarında, soyuq və çətin hava şəraitində bu vəziyyət daha da ağır və acınacaqlı olur.

Ən təəssüf doğuran məqam isə odur ki, sakinlər bu problemlə bağlı dəfələrlə Elm və Təhsil Nazirliyinə müraciət etsələr də, illərdir, eyni cavabı alırlar: “planlaşdırılır”. Təbii ki, kifayət qədər ciddi məsələdir, bir ayın, bir ilin içində həllini tapacaq məsələ deyil. Lakin insanlar artıq illərdir, gözləyir. Bu gözləntilər isə uşaqların təhsili, ailələrin gündəlik həyatı və gələcəyimiz üçün olduqca vacibdir. Haradansa başlamaq, addımlar atmaq lazımdır. Biz

hesab edirik ki, iki mindən artıq insanın yaşadığı bir ərazidə məktəb və uşaq bağçasının olmaması qəbuledilməzdir. Uşaqların keyfiyyətli təhsil almaq hüququ var və bu hüququ təmin etmək bizim əsas vəzifələrimizdən biridir. Ona görə də aidiyyəti qurumların bu məsələyə daha həssas yanaşacağına, Stansiya Sumqayıt və Dəmir yolunun yük həyəti yaşayış massivlərində yeni məktəb və uşaq bağçasının tikintisi ilə bağlı konkret və real addımlar atacağına inanırıq.

Yekun olaraq, hesabatı yüksək dəyərləndirirəm. Azərbaycan ən yeni tarixi mərhələyə qədəm qoyub. Əminəm ki, bu reallıqları yaradan və onu idarə edən dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bütün sahələrdə daha güclənəcək, yeni uğurlara imza atacaqdır. Sizə bu yeni missiyada uğurlar arzu edirəm və hesabata səs verəcəyəm.

**Əli Hüseynli.** Dünyada və regionda mürəkkəb geosiyasi vəziyyətin mövcud olduğuna baxmayaraq, Azərbaycan Respublikası Prezidentinin müdrik siyasi kursu sayəsində 2025-ci il ərzində respublikamızda ictimai-siyasi sabitlik qorunub saxlanılmış, ölkəmizə qarşı yönələn təhdidlərin qarşısının vaxtında alınması istiqamətində fəaliyyət davam etdirilmişdir. Şübhəsiz ki,  bu nailiyyət, bütövlükdə, güc strukturlarının, hüquq mühafizə və ədliyyə orqanlarının peşəkar fəaliyyəti nəticəsində təmin edilmişdir.

Hesabat ilində Ədliyyə Nazirliyinin  Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə əməkdaşlığı çərçivəsində “e-qanun.ai” platforması istifadəyə verilmişdir. Bu platformanın təqdimat mərasimində Hüquq siyasəti və dövlət quruculuğu komitəsi iştirak etmişdir. Əminliklə deyə bilərəm ki, istifadəçilər üçün sürətli təhlil və dəqiq nəticə təqdim edən bu platforma hüquqi sahədə yaranan suallara operativ və etibarlı şəkildə cavab əldə edilməsini təmin edir.

Ədliyyə Nazirliyinin "Mobil notariat" innovativ tətbiqinin təkmilləşdirilməsi vətəndaş məmnunluğunu təmin edən və böyük ictimai maraq doğuran layihələrdəndir.

2025-ci il iyulun 14-də "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanunu, həmin qanunun tətbiqi məqsədi ilə çoxsaylı digər normativ hüquqi aktlar qəbul edilmişdir. "Elektron icra" informasiya sisteminin yeni versiyası icra məmurlarının, sistemin bazasında yaradılmış "Mobil icra" proqram təminatı isə əhalinin istifadəsinə verilmişdir.

Məhkəmə mübahisələrinin artması fonunda icra sahəsində iş yükü ilbəil artır. 2025-ci ildə icra xidmətinə daxil olan işlərin sayı 438 min, 2024-cü ildə isə 387 min, müqayisədə 13 faiz çox olub. Bununla belə, bu sahədə rəqəmsal alətlərin tətbiqinin genişləndirilməsi, qanunvericilik və institusional tədbirlərin həyata keçirilməsi nəticəsində ümumi icra göstəriciləri 60 faizə yaxınlaşıb. Bu,  son 5 ilin ən yaxşı göstəricisi olub. Bu, həm də keçən il qəbul etdiyimiz yeni qanunun, o cümlədən əlavə və dəyişikliklərin nə dərəcədə əhəmiyyətli olduğunun, o cümlədən operativ və düzgün tətbiqinin nəticəsidir.

2025-ci il dekabrın 19-da qəbul edilmiş "Konstitusiya və Suverenlik İli" münasibəti ilə amnistiya elan edilməsi haqqında" Qərarın icrası penitensiar və probasiya qurumları tərəfindən uğurla davam etdirilir.

2025-ci il ərzində Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi digər prokurorluq orqanları ilə birlikdə bütün səylərini ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatların əsas təminatlarından olan ictimai-siyasi sabitliyin qorunmasına, transmilli cinayətkarlığın ən təhlükəli növlərindən biri olan korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə yönəltmişdir. Hesabat dövrü ərzində

istintaqı başa çatdırılmış cinayət işləri üzrə, ümumilikdə, özgə əmlakına vurulmuş 35,4 milyon manat məbləğində maddi ziyandan 11,6 milyon manatının ödənilməsi təmin olunmuşdur.

Hesabat ilində həmçinin “ASAN xidmət” tərəfindən dövlət xidmətlərinin təşkili daha da təkmilləşdirilmişdir. Təqdirəlayiq haldır ki, Azərbaycanın bu xidmət təcrübəsi bir çox ölkələrdə də maraqla qarşılanır və tətbiq olunur.

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 570 nömrəli Fərmanına əsasən Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi cari ilin aprel ayından başlayaraq dövlət şirkətlərinin və publik hüquqi şəxslərin büdcə layihələri və proqnozlarının, həmçinin büdcələrinin monitorinqini həyata keçirəcək və icra göstəricilərini təhlil edəcək.

Həmçinin “Rəqəmsal dövlət maliyyəsi” informasiya sisteminin tərkibində “İCMAL” altsisteminin təşkili mütərəqqi bir ideyadır.

Hökumətin 2025-ci ildə fəaliyyəti haqqında hesabat “Konstitusiya və Suverenlik İli”nin hesabatı olmaqla yanaşı, həm də, bütövlükdə, son 30 ildə əldə etdiyimiz dövlət quruculuğu və iqtisadi uğurlarımızın yekunudur. Məhz bu uğurlu fəaliyyət növbəti dövrdə, yəni bu ildən başlayan yeni mərhələnin ciddi fundamenti rolunu oynayır.

Təsadüfi deyil ki, cənab Prezident tərəfindən bu yaxınlarda Azərbaycanda “Elektron hökumət”, süni intellekt və innovasiya sahələrində milli texnoloji potensialın gücləndirilməsi, innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi məqsədi ilə Rəqəmsal İnkişaf Şurası yaradılmış və hörmətli Birinci vitse-prezident bu şuranın sədri təyin edilmişdir. Bu yanaşma hökumətin gələcək fəaliyyəti, o cümlədən iqtisadiyyatımızın və bütövlükdə, idarəetmənin yeni, ən müasir mərhələyə keçidindən xəbər

verir. Sözsüz ki, bu işlər hökumətin bu dövrə qədər, o cümlədən 2025-ci ildə uğurlu fəaliyyəti sayəsində mümkün olmuşdur.

Bir daha 2025-ci il üzrə hökumətin hesabatını qənaətbəxş hesab edir, qarşıdakı yeni mühüm dövrdə hökumətin fəaliyyətinə uğurlar arzulayıram.

**Əlibala Məhərrəmzadə.** Bu gün Milli Məclisdə ölkənin sosial-iqtisadi inkişafının əsas istiqamətlərini əks etdirən hökumətin illik hesabatını dinlədik. Hörmətli Baş nazir Əli Əsədov tərəfindən təqdim olunan hesabatda ötən il ərzində görülən işlər, iqtisadi göstəricilər və sosial sahədə həyata keçirilən tədbirlər geniş şəkildə təqdim olundu. Ümumilikdə, qeyd etmək lazımdır ki, hökumətin fəaliyyətində bir sıra müsbət nəticələr əldə olunub və makroiqtisadi sabitliyin qorunub saxlanılması mühüm nailiyyətlərdən biridir.

Hesabatda xüsusi vurğulanan məsələlərdən biri qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən işlər oldu. Həqiqətən də, son illər bu istiqamətdə sənaye parklarının yaradılması, yerli istehsalın təşviqi və sahibkarlığın inkişafı üçün müxtəlif mexanizmlərin tətbiqi diqqətəlayiqdir. Bununla belə, hesab edirəm ki, bu sahədə əldə olunan nəticələr hələ də mövcud potensialımızı tam əks etdirmir. Xüsusi ilə regionlarda qeyri-neft iqtisadiyyatının inkişaf tempi bəzi hallarda gözlənilən səviyyədə deyil. Bir çox sahibkarlar maliyyə resurslarına, logistika və bazarlara çıxış imkanları ilə bağlı çətinliklər yaşadıqlarını bildirirlər. Bu baxımdan, hesab edirəm ki, sahibkarlara dövlət dəstəyi mexanizmlərinin daha çevik və əlçatan olması üçün əlavə tədbirlər görülməlidir.

Baş nazirin hesabatında önə çıxan digər mühüm istiqamət sosial siyasət və əhalinin rifahının yaxşılaşdırılması ilə bağlı tədbirlər idi. Doğrudur, son illər əməkhaqlarının, pensiyaların və sosial müavinətlərin

artırılması istiqamətində mühüm addımlar atılıb və bu, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir. Lakin düşünürəm ki, sosial rifah yalnız ödənişlərin artırılması ilə məhdudlaşmamalıdır. Əsas məqsəd uzunmüddətli və dayanıqlı məşğulluğun təmin olunması olmalıdır. Xüsusi ilə gənclər arasında işsizlik məsələsi bəzi regionlarda hələ də aktualdır. Buna görə də əmək bazarı ilə təhsil sistemi arasında əlaqələrin daha da gücləndirilməsi, peşə təhsilinin inkişaf etdirilməsi və yeni istehsal sahələrinin yaradılması istiqamətində daha sistemli addımların atılması vacibdir.

Digər bir məsələ isə regionların inkişafı ilə bağlıdır. Hesabatda regionlarda həyata keçirilən infrastruktur layihələri qeyd olundu və bu, təqdirəlayiqdir. Lakin hesab edirəm ki, regionların inkişafı yalnız infrastruktur layihələri ilə deyil, həm də iqtisadi fəallığın artırılması ilə ölçülməlidir. Regionlarda sənaye, kənd təsərrüfatı və emal sahələrinin daha aktiv şəkildə inkişafı üçün yeni təşviq mexanizmlərinin tətbiqi məqsədəuyğun olardı.

Fikrimcə, dövlət siyasətinin əsas məqsədi yalnız iqtisadi göstəricilərin artması deyil, bu inkişafın hər bir vətəndaşın gündəlik həyatında hiss olunması olmalıdır. Mənə elə gəlir ki, xüsusi ilə regionlarda yaşayan insanların məşğulluq və gəlir imkanlarının genişlənməsi məsələsi daha çox diqqət tələb edir. Eyni zamanda, hesab edirəm ki, dövlət qurumları ilə vətəndaşlar arasında daha açıq və çevik dialoq mexanizmlərinin formalaşdırılması idarəetmənin effektivliyini artırar. Bir deputat olaraq mənim mövqeyim ondan ibarətdir ki, həyata keçirilən siyasətin nəticələri cəmiyyətin bütün təbəqələrində bərabər şəkildə hiss olunmalıdır. Bu

istiqamətdə həm qanunverici, həm də icraedici hakimiyyətin birgə səyləri xüsusi əhəmiyyət daşıyır.

Ümumilikdə, hökumətin təqdim etdiyi hesabat ölkəmizin inkişaf dinamikasını göstərir. Bununla yanaşı, düşünürəm ki, qeyd etdiyim məsələlərə daha dərindən yanaşılması iqtisadi siyasətin effektivliyini artıracaq və vətəndaşlarımızın rifahının daha da yüksəlməsinə töhfə verəcək.

**Əli Məsimli.** Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatda ötən ilin iqtisadi və sosial nəticələrinin əsas məqamları geniş və əhatəli şəkildə öz əksini tapıb. Hesabatdan göründüyü kimi, 2025-ci ildə iqtisadi və sosial sahədə xeyli iş görülüb və ölkənin həm daxili, həm də xarici iqtisadi şoklara qarşı dayanıqlılığına xidmət edən bir sıra mühüm nəticələr əldə olunub.

Birincisi, 2025-ci ildə hökumət makroiqtisadi sabitliyi qoruyub saxlaya bilib.

İkincisi, Böyük Qayıdışa dair dövlət proqramının icrası kifayət qədər uğurla davam etdirilib. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa-quruculuq işlərinin və Böyük Qayıdışın miqyasları xeyli genişləndirilib. İşğaldan azad olunmuş ərazilərimizdə həyatın canlanması üçün xeyli faydalı və perspektivli işlər görülüb.

Üçüncüsü, ölkənin strateji valyuta ehtiyatları 20 faiz artıb və 85 milyard dolları ötüb. Bu, 4,8 milyard dollarlıq xarici dövlət borcunu 18 dəfəyədək üstələyir. Mərkəzi Bankın rəsmi valyuta ehtiyatları 11,5 milyard dollar təşkil edib. Ölkənin maliyyə dayanıqlığı güclənib.

Dördüncüsü, ölkədə yaşıl enerjinin inkişafına yönəlmiş layihələrin işə salınması istiqamətində çox perspektivli istiqamətlərdə xeyli iş görülüb.

Bu siyahını artırmaq da olar. Lakin düşünürük ki, qeyd etdiyimiz həmin dörd nəticə Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı müsbət qiymətləndirmək üçün yetərlidir. Çünki bu yöndə əldə edilən nəticələr bir sıra digər sahələrdə də müsbət nəticələrin əldə olunacağına optimist əsaslar yaradır.

Bununla belə, bu il və növbəti illərdə nəzərə alınmasını vacib hesab etdiyimiz bir neçə məsələyə toxunmaq istərdik.

Birincisi, 2025-ci ildə Azərbaycan iqtisadiyyatı 2024-cü ildə nail olunmuş sürətlənmiş iqtisadi artım trayektoriyasından yavaşlamış iqtisadi artım trayektoriyasına keçib. 2025-ci ildə ÜDM-nin artım tempi 2024-cü ildəki 4,1 faizlik real artıma və 3,5 faizlik rəsmi proqnoza qarşı 1,4 faiz təşkil edib. Proqnozlaşdırılan, lakin əldə edilməyən ÜDM-nin hər faizinə görə 1,3 milyard manat yeni yaradılan dəyər itiririk.

İqtisadi artım templərinin aşağı düşməsində neft hasilatının 1,6 faiz azalması ciddi rol oynayıb. Eyni zamanda, qeyri-neft-qaz sektorunda da artım tempi 2024-cü ildəki 6,2 faizdən 2,7 faizə düşüb. Əgər neft sektorundakı enmələr qeyri-neft sektorunda da artım templərinin aşağı düşməsi ilə müşayiət olunursa, deməli, artım templərinin yavaşımasına neft hasilatının azalması ilə yanaşı, Azərbaycan iqtisadiyyatının yeni iqtisadi modelə keçidi ilə bağlı proseslərdən doğan amillər, eləcə də bu yöndə zəruri olan islahatların təşkilinin kompleksliliyinin, sürətinin və maliyyə təminatının yetərli səviyyədə olmaması və yüksək iqtisadi artımın dayanıqlığını təmin edə bilməməsi də təsir edir. Ona görə də yeni iqtisadi modelə keçidin müddətinin maksimum azaldılması və yavaşlamış iqtisadi artım trayektoriyasından sürətlənmiş iqtisadi artım trayektoriyasına keçid və onun dayanıqlığının təmin edilməsi hazırda qarşıda duran vəzifələr

arasında xüsusi aktuallıq kəsb edir. Bu kontekstdə yeni iqtisadi model dedikdə “üç amil” prinsipinə əsaslanan optimal inkişaf modelinə keçidin sürətləndirilməsini nəzərdə tuturuq. Bu da ölkəmizin zəngin resurs potensialından, insan kapitalından və əlverişli inteqrasiya imkanlarının üstünlüklərindən istifadənin səmərəliliyini artırmaqla, neft amilinin dominant rol oynadığı modeldən insan kapitalının üstünlük təşkil etdiyi innovasiyalı inkişaf modelinə keçidin sürətləndirilməsi və bu əsasda yüksək sürətli dayanıqlı inkişafı təmin etməklə, hər bir vətəndaşın həyat səviyyəsinin potensialımıza uyğun səviyyəyə çatdırılmasını nəzərdə tutur.

Buna optimal müddətdə nail olmaqdan ötrü ilk növbədə sadalayacağımız tədbirlərin sistemli şəkildə həyata keçirilməsini vacib hesab edirik.

Birincisi, İqtisadiyyat Nazirliyinin proqnozlarına görə 2026-cı ildə 2,9 faiz, Mərkəzi Bankın proqnozlarına görə isə 2,4 faiz artım gözlənilir. BVF 2026-cı ildə Azərbaycanda 2,1 faiz, Dünya Bankı 1,8 faiz, Avropa Yenidənqurma və İnkişaf Bankı 2 faiz artım proqnozlaşdırıb.

Azərbaycanın müdafiə qüdrətinin artırılması, təhlükəsizliyinin daha da gücləndirilməsi və əhalinin güzəranının yaxşılaşdırılması kimi əsas prioritet məsələlərin maliyyə təminatını yüksək səviyyədə saxlamaqdan ötrü ən etibarlı yol ölkədə xarici amillərdən az asılı olan yüksək sürətli və dayanıqlı iqtisadi inkişafa nail olmaqdır. 2026-cı ildə və qarşıdakı illərdə proqnozlaşdırılan 2–3 faizlik artım hədəflərinə çatmaqla kifayətlənməyib, ölkəmizdə dünya üzrə qlobal iqtisadi artımdan yüksək sürətli və dayanıqlı iqtisadi inkişafa nail olmaqdan ötrü yaşamağa başladığımız yeni mərhələnin çağırışlarına cavab verə bilən sistemli islahatlar, xüsusən də idarəetmə sisteminin təkmilləşdirilib optimallaşdırılması, struktur və

institusional islahatlar, iqtisadiyyatın şaxələndirilməsinin daha aktiv şəkildə həyata keçirilməsi, məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsinin davam etdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması, xüsusən də sahibkarların hüquqlarının müdafiəsinin təminatlılığını artırmaqla sərmayə qoyuluşu üçün maksimum əlverişli şəraitin yaradılması, mərkəzləşmədən iqtisadi açılımlara gedilməsi istiqamətində zəruri addımların atılması, Rəqabət Məcəlləsinin tam gücü ilə işə salınması və real rəqabət mühitinin formalaşmasına nail olmaq, rəqəmsal həllərə söykənən rəqabət qabiliyyətli istehsalın və dayanıqlı məşğulluğun genişlənməsinə nail olmaq lazımdır.

İkincisi, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ikinci prioritet kimi yer alan dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət quruculuğu üçün zəruri olan məsələlər arasında Bakı ilə regionlar arasında fərqlərin azaldılması və tarazlı inkişafa nail olunması məsələsi xüsusi yer tutur. Doğrudur, Bakı ölkəmiz üçün təkcə paytaxt deyil, iqtisadiyyatın, gəlirlərin, məşğulluğun, biznesin cəmləşdiyi çox böyük potensiala malik bir məkandır. Rəsmi statistika son 10 ildə Bakı əhalisinin təqribən 170 min nəfər və ya 8 faiz artıb 2 milyon 182 min nəfərdən 2,4 milyon nəfərə yaxınlaşdığını bildirsə də, ölkə əhalisinin daha çox hissəsi Bakıda yaşayır. Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatın 100-cü səhifəsində verilən cədvəldən göründüyü kimi, 2025-ci ilin rəsmi məlumatlarına görə, ölkəmizdə istehsal olunan sənaye məhsulunun 80,4 faizi Bakı şəhərinin, 8,2 faizi Abşeronun, toplam 88,6 faizi Bakı və Abşeronun,11,4 faizi isə digər 12 iqtisadi rayonun, o cümlədən 0,9 faizi Şəki–Zaqatala kimi böyük potensiala malik iqtisadi rayonun payına düşür. Azərbaycanda istehsal olunan sənaye məhsullarının 90 faizə

yaxınının Bakı və Abşeronda yerləşməsi ilə yanaşı, Bakı və Abşeronda istehsal olunan qeyri-neft-qaz məhsullarının həcmi də regionlardakından xeyli çoxdur. Ümumi məhsul istehsalı və gəlirlər sahəsində də Bakının payı regionlarla müqayisədə yüksəkdir.

Milli prioritetlərdə öz əksini tapan Bakı ilə regionlar arasında fərqlərin azaldılmasına və tarazlı inkişafa nail olmaq istiqamətində təsirli tədbirlər görülməsini vacib hesab edirik. Regionların çoxunda əməkhaqqı ölkə üzrə orta göstəricidən 1,6–1,7 dəfə, Bakıdakından isə 2 dəfəyə yaxın aşağıdır. Ötən il ölkə üzrə orta əməkhaqqı 1100 manatın üstündə olsa da, regionlarda əməkhaqqı alanların çoxu median əməkhaqqından, pensiyaçıların çoxu orta pensiyadan aşağı, median pensiya ətrafında pensiya alır. Bu sahədə problemin həllini sürətləndirməkdən ötrü onun hansısa bir elementini və simptomlarını deyil, əsas səbəbini aradan qaldırmaq istiqamətində hərəkət edilməsini vacib hesab edirik.

Əhalinin regionlardan Bakıya gəlməsinin səbəbləri çox olsa da, onların arasında əsas səbəb yaşamaq və işləmək üçün şəraitin, yerlərdə normal qazanmaq imkanının məhdudluğu, layiqli əməkhaqqı olan iş yerlərinin azlığı, yerlərdə idarəetmə sistemindəki çatışmazlıqlar və sair bu qəbildən olan problemlərdir. Elə öz təcrübəmiz, yəni işğaldan azad edilən ərazilərdə görülən işlərin təcrübəsi və ilkin sosial-iqtisadi nəticələrin səviyyəsi göstərir ki, yerlərdə idarəetmə sistemini normallaşdırıb, yetərincə sərmayə qoyub, ondan səmərəli istifadə edəndə həm yerli istehsal göstəriciləri, həm də gəlirlərin səviyyəsi baxımdan nəticələr də Xankəndinin timsalında Bakıdan, Şuşanın timsalında isə Azərbaycanın digər şəhər və rayonlarının göstəricilərindən yüksək olur.

Regionların potensialının hərtərəfli şəkildə hərəkətə gətirilməsi, insanların fəaliyyətinə qanunla müəyyən olunmuş bütün istiqamətlərdə zəruri şərait yaradılması, eyni zamanda, həm də yaxşı maaşlı, rəqabətə davamlı və perspektivli iş yerlərinin açılması istiqamətində addımların atılması çox vacibdir. Regionlarda yaxşı maaşlı iş yerlərinin dairəsi genişləndirilsə, həm regionlardan Bakıya axın xeyli məhdudlaşar, həm də bu, Bakının tıxac kimi çox ciddi probleminin səngiməsinə də müsbət təsir etmiş olar.

Bakı və bölgələr arasında fərqlərin azaldılmasında nəzərə çarpan dərəcədə müsbət nəticələr əldə edilməsində yerlərdə turizmin inkişafına geniş vüsət verilməsi də mühüm rol oynaya bilər.

Azərbaycanın turizm sahəsindəki böyük imkanlarından daha dolğun və hərtərəfli istifadə etməkdən ötrü iki məsələyə daha çox diqqət yetirilməsini vacib hesab edirik.

Birincisi, elə şərait yaratmaq lazımdır ki, turizm xidmətləri orta statistik azərbaycanlı üçün, yəni əhalinin xeyli hissəsi üçün əlçatan olsun, daha çox vətəndaşımız istirahət imkanı əldə etmiş olsun.

İkincisi, təkcə ölkə, yaşadığımız region, qonşu ölkələr səviyyəsində deyil, dünya səviyyəsində diqqətçəkən turizm kompleksləri yaratmaq və onların səmərəli fəaliyyətini təmin etmək lazımdır.

Bu kontekstdə turizmin arzu olunan səviyyədə inkişafına nail olmaqdan ötrü real rəqabətli mühit yaratmaq, qiymətləri optimallaşdırmaq, eləcə də onu orta statistik azərbaycanlı üçün də əlçatan etmək, xidmətin keyfiyyətini yüksəltmək, logistika sahəsində mövcud problemləri aradan qaldırmaq, ölkəmizin turizm imkanlarının, onun üstünlüklərinin, turizm məhsullarının

və tədbirlərinin lazımi səviyyədə tanıtımını həyata keçirmək və sair istiqamətlərdə kompleks tədbirlər həyata keçirilməsini zəruri hesab edirik.

Bütün bunları yüksək səviyyədə reallaşdırmaqdan ötrü işğaldan azad edilmiş ərazilərimizdə, xüsusən də böyük kurort zonası olan Qarabağda imkanlar daha böyükdür. Eyni sözləri Şəki–Zaqatala regionu və digər böyük turizm potensialı olan rayonlar barədə də demək olar. Milli sərvətimizin çox mühüm tərkib hissəsi kimi çoxsaylı təbiət və tarixi mədəniyyət abidələri ilə zəngin olan, xüsusi ekoloji, tarixi və mədəni əhəmiyyət kəsb edən Şəki–Zaqatala regionunda, o cümlədən Qaxda İlisudan əlavə, digər səfalı kəndlərin, məsələn, əsrarəngiz təbiət hadisəsi kimi ən çox ziyarət olunan Mamırlı şəlaləsinin yerləşdiyi Ləkit kəndində, 7 qədim Alban məbədinin yerləşdiyi Ləkit–Kötüklü kəndində, çox məşhur olan Sarıbaş kəndində, Qaşqaçay, Armudlu, Qum, Güllük kəndlərində və digər yerlərdə təkcə Azərbaycan və yerləşdiyimiz region səviyyəsində deyil, dünya səviyyəsində diqqətçəkən çoxşaxəli turizm kompleksi, o cümlədən insanların fiziki, mənəvi və əmək qabiliyyətini bərpa etməyə, gündəlik stressdən uzaqlaşmağa və həyat keyfiyyətini artırmağa xidmət edən və buna görə də dünyada çox yüksək dəyərləndirilən rekreasiya zonası yaratmaq olar.

Tarixi və təbii gözəllikləri özündə birləşdirən Şəkinin Baş Göynük, Şin, Baş Layısqı, Kiş kəndləri də istirahət üçün çox əlverişlidir. Bundan ötrü hər şeydən əvvəl oralarda infrastruktur xarakterli məsələləri həll etmək, məsələn, Qaxın Ləkit–Kötüklü kəndinin 7 kilometrlik yolunun əsaslı təmiri, Sarıbaş kəndinin yol infrastrukturunun bərpası və körpü tikilməsi, böyük turizm potensialına malik və həm də Qarabağ müharibəsi şəhidi, Azərbaycanın Milli Qəhrəmanı Cavanşir Rəhimovun kəndi olan Qaşqaçay

kəndinə qaz çəkilməsi çox vacibdir. Eyni zamanda, nadir və məhv olmaq təhlükəsi qarşısında olan bitki və heyvanları qorumaq və artırmaq, meşələrin əvvəlki vəziyyətini bərpa etmək, torpaqların eroziyaya uğramasının və sel hadisələrinin qarşısını almaq üçün zəruri tədbirlərin həyata keçirilməsini də vacib hesab edirik.

Sözügedən istiqamətdə məqsədyönlü fəaliyyət regionlarda turizmin daha geniş miqyasda inkişafına, zəruri infrastrukturun, xidmət obyektlərinin dairəsinin, xalq sənətkarlığının, suvenir və sair istehsalının genişlənməsinə ciddi təkan vermiş olar. Bu, ölkəmizə turizmdən gələn gəlirlərin sürətlə artmasına, ölkəyə neft gəlirlərindən əlavə yeni böyük valyuta axınının təmin olunmasına səbəb olar. Əgər nəzərə alsaq ki, turizm sahəsində açılan hər iş yeri onunla bağlı sahələrdə üç-dörd və daha çox iş yerinin açılmasına təkan verir, deməli, turizmin inkişafının multiplikativ effekti hesabına məşğulluq səviyyəsinin yüksəldilməsinə, turizm və onunla bağlı digər sahələrdə xeyli yeni iş yerinin açılmasına, iqtisadi fəallığın artmasına və ümumiyyətlə, sosial-iqtisadi imkanların artırılmasına, yerlərdə yoxsulluğun azaldılmasına, əhalinin güzəranının yaxşılaşmasına, orta təbəqənin dairəsinin genişlənməsinə müsbət təsir edə bilər. Bu əsasda Azərbaycan üçün həm strateji, həm də həyati cəhətdən çox mühüm əhəmiyyət kəsb etməklə aktuallığı getdikcə artan problemin həllində, Bakı və bölgələr arasında fərqlərin azaldılmasında nəzərə çarpan dərəcədə müsbət nəticələr əldə etmək olar.

Üçüncüsü, ölkəmizdə texnoloji yeniliklərin tətbiqinin, orta və yüksək texnoloji sənayenin yaratdığı əlavə dəyərin ümumi əlavə dəyərdəki payının hazırkı 14–15 faizdən 2–3 dəfə yüksəyə çatdırılmasının hədəfləndirilməsi və buna nail olmaq üçün səmərəli fəaliyyət göstərən reallaşma

mexanizminin həyata keçirilməsini vacib hesab edirik. Eyni zamanda, idxalı əvəz edən mal və məhsulların istehsalının genişləndirilməsi və əmək məhsuldarlığının yüksəldilməsi üçün əlavə tədbirlərin həyata keçirilməsi işinin sürətləndirilməsi də çox vacibdir. Bu sahədə 3 istiqamətdə sistemli fəaliyyətin qurulmasını vacib hesab edirik:

- kənd təsərrüfatı məhsullarının emalı sahələrinin inkişafının genişləndirilməsi və bu əsasda ölkəmizdə həm yerli tələbatın xeyli hissəsinin ödənilməsinə və həm də qeyri-neft ixracının əhəmiyyətli dərəcədə artmasına geniş imkanlar yaradan güclü aqrar-sənaye kompleksinin yaradılması;

- müqayisəli üstünlük nəzəriyyəsinin əsaslarını nəzərə almaqla, ölkəmizdə innovativ istehsalın mümkün olan sahələrinin təşkil edilməsi istiqamətində son illər həyata keçirilən layihələrin dairəsinin genişləndirilməsi və icrasının sürətləndirilməsi;

- Azərbaycanın yetərincə geniş maliyyə imkanları ilə bilik və qabaqcıl texnologiyanın effektiv kombinasiyasına nail olunması. Ölkəmizin bu günü və gələcəyinə sərmayə qoyulmasının ən perspektivli sahəsi olan insan kapitalına investisiyanın genişləndirilməsi, onun müasir tələblər səviyyəsində inkişafının təmin edilməsi, innovativ düşüncə tərzinin təşviqi və süni intellektin geniş tətbiqi. Azərbaycan bu sahədə mühüm üstünlüklərə malikdir. Ölkəmizin Asiya ilə Avropa arasında və Şimal–Cənub dəhlizi üzərində yerləşməsi, güclü və dayanıqlı enerji təminatı, qlobal maliyyə fondları ilə əməkdaşlıq imkanları, eləcə də ABŞ və bir sıra Avropa ölkələri ilə imzalanmış strateji tərəfdaşlıq sənədləri rəqəmsal inkişaf üçün əlverişli zəmin yaradır. Mövcud potensialdan dolğun istifadə etməklə Azərbaycan regionda çox mühüm rəqəmsal tranzit və məlumat mərkəzinə çevrilə bilər.

Rəqəmsal həllərə söykənən rəqabətqabiliyyətli istehsalın təşviqi ölkəmizdə iqtisadi artım templərinin sürətləndirilməsində əvəzsiz rol oynaya bilər.

Süni intellekt və rəqəmsal bacarıqların gələcəyin əsas inkişaf faktoruna çevrildiyi müasir dövrdə sürətli və dayanıqlı iqtisadi artıma nail olub, getdikcə güclənən rəqabətdə üstünlük qazanan ölkələr sırasında olmaqdan ötrü intellektual və texnoloji potensialımızı əsaslı surətdə gücləndirməliyik. Bu istiqamətdə bir neçə prioritet sahəyə xüsusi diqqət yetirilməsini vacib hesab edirik. İlk növbədə elmə münasibət inteqrativ yanaşma tələblərinə uyğunlaşdırılmalı və onun praktikaya çıxışının təmin edilməsi istiqamətində islahat xarakterli tədbirlərin həyata keçirilməsi çox zəruridir. Bu əsasda iqtisadi siyasətin elmiliyinin artırılmasını, müxtəlif üsul, bilik və ya yanaşmaların bir araya gətirilərək vəhdət halında tətbiq edilməsinin təmin edilməsini vacib hesab edirik. Təhsil sisteminin rəqəmsal bacarıqların formalaşdırılmasına uyğunlaşdırılması, informasiya texnologiyaları və süni intellekt sahəsində ixtisaslaşmış kadr hazırlığının genişləndirilməsi, eləcə də gənclərin rəqəmsal savadlılığının artırılması istiqamətində təsirli tədbirlərin görülməsi çox vacibdir.

İqtisadi artımın sürətinin və keyfiyyətinin yüksəldilməsi, eləcə də dayanıqlığının təmin edilməsi sahəsində mövcud potensialın dolğun şəkildə reallaşması üçün vacib şərtlərdən biri də iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən işlərin dairəsinin genişləndirilməsi və kompleksliyinin artırılmasıdır. Sənayenin perspektivli sahələri, kənd təsərrüfatı, logistika, rəqəmsal iqtisadiyyat və yüksək texnologiyalar sahəsində lazımi səviyyədə investisiya cəlb etməkdən ötrü sərmayə qoyuluşlarının ÜDM-nin hazırkı 16 faizi səviyyəsindən azı 25–30 faizinə çatdırılması, onun keyfiyyət göstəricilərinin yaxşılaşdırılması,

strukturunun optimallaşdırılması, onun tərkibində hazırda öndə olan tikinti-quraşdırma əvəzinə innovasiyalar, yüksək texnologiyalar yönümünü önə çıxarmaq lazımdır. Qeyri-neft-qaz sektoruna daxili və xarici sərmayə qoyuluşunun miqyaslarını genişləndirməkdən ötrü əlavə təşviqləndirici tədbirlər həyata keçirilməlidir.

2025-ci ildə ölkə iqtisadiyyatına 31,5 milyard manat və ya ÜDM-nin 24 faizi səviyyəsində kredit qoyulub. Yaşamağa başladığımız yeni mərhələnin məntiqinə uyğun olaraq, kredit qoyuluşlarının ÜDM-yə nisbətinin optimallaşdırılması, onun strukturunun təkmilləşdirilməsi, iqtisadi artımın sürətinə və innovativ inkişafa təsirinin gücləndirilməsi istiqamətində proqram xarakterli tədbirlər kompleksinin həyata keçirilməsini vacib hesab edirik.

İqtisadi artımın sürət və keyfiyyətinin yüksəldilməsi, eləcə də dayanıqlığının təmin edilməsində sahibkarlığın, xüsusən də kiçik və orta sahibkarlığın hərtərəfli inkişafı həlledici rol oynayır. Beynəlxalq praktikadan məlumdur ki, elmi-texniki tərəqqinin nailiyyətlərinin həyata tətbiqinin 80 faizə qədəri, hər yeni açılan 4 iş yerindən 3-ü kiçik və orta sahibkarlıq vasitəsi ilə reallaşır. Mütəxəssislər, ekspertlər, yerli və xarici iş adamları arasında sosioloji sorğuların keçirilməsini, əldə olunan nəticələrin sahibkarlığın qarşısında duran problem və maneələrin aradan qaldırılması işində istifadə edilməsini çox vacib hesab edirik. Bu, sahibkarlıq sahəsində problemlərin həllinin, eləcə də əlverişli sərtlərlə aşağı faizli kreditlərə əlçatanlığın artması və sair bu kimi vacib məsələlərin həllinin sürətlənməsinə təkan vermiş olar.

Həmin tədbirlərin sistemli və davamlı şəkildə həyata keçirilməsi iqtisadi artımın sürətinin və keyfiyyətinin yüksəldilməsinə, eləcə də dayanıqlığının təmin edilməsinə, idxalı əvəz edən mal və məhsulların mümkün hissəsinin

Azərbaycanda təşkilinə, ölkədə yerli istehsal əsaslı məhsul bolluğunun yaradılmasına, iqtisadiyyatımızın xarici amillərdən, o cümlədən idxaldan asılılığının və ölkədən valyuta axınının azaldılmasına, innovasiyaların istehsala tətbiqinin, rəqabətqabiliyyətli istehsal sahələrinin, məhsul istehsalının və iş yerlərinin dairəsinin genişləndirilməsinə, orta təbəqənin dairəsinin genişlənməsinə, əhalinin güzəranının yaxşılaşmasına müsbət təsir edə bilər.

**Fatma Yıldırım.** Bu gün biz Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyətinə dair hesabatını dinlədik. Təqdim olunan hesabat göstərir ki, ötən il ərzində ölkəmizin sosial-iqtisadi inkişafı, dövlət idarəçiliyinin təkmilləşdirilməsi və həyata keçirilən genişmiqyaslı islahatlar istiqamətində mühüm nəticələr əldə olunub.

Hamımıza məlumdur ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü və milli maraqlara əsaslanan siyasəti nəticəsində Azərbaycan bu gün regionun güclü və nüfuzlu dövlətlərindən birinə çevrilmişdir. Dövlət başçısının rəhbərliyi ilə aparılan ardıcıl islahatlar ölkəmizin iqtisadi dayanıqlığını daha da möhkəmləndirir, sosial rifahın yüksəlməsinə və beynəlxalq arenada mövqelərimizin güclənməsinə xidmət edir.

Eyni zamanda, işğaldan azad olunmuş torpaqlarımızda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycanın gücünü və imkanlarını bir daha nümayiş etdirir. Qarabağ və Şərqi Zəngəzurda aparılan işlər Böyük Qayıdış proqramının uğurla həyata keçirildiyini göstərir. Biz hər birimiz doğma Qarabağımızın dirçəlişindən böyük qürur duyuruq.

Qeyd etmək istəyirəm ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası nəticəsində Bərdə rayonunda da son illər mühüm işlər görülüb, infrastrukturun yenilənməsi, sosial obyektlərin tikintisi və digər layihələr rayonun inkişafına müsbət təsir göstərib. Bu diqqət və qayğıya görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə seçicilərim və şəxsən öz adımdan dərin təşəkkürümü bildirirəm.

Lakin bununla yanaşı, Bərdə rayonunda vətəndaşları ciddi narahat edən və artıq uzun müddətdir həllini gözləyən bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm.

Belə ki, məsələ Bərdə şəhəri və ətraf yaşayış məntəqələrinə yaxın ərazilərdə məişət tullantılarının açıq şəkildə və mütəmadi olaraq yandırılması ilə bağlıdır. Bu hal təkcə ekoloji problem deyil, eyni zamanda, insanların sağlamlığı üçün real təhlükə yaradan ciddi bir məsələdir.

Tullantıların yandırılması nəticəsində havaya yayılan tüstü, zərərli qazlar və ağır qoxu Bərdə şəhərində yaşayan vətəndaşların gündəlik həyatına mənfi təsir göstərir. Xüsusi ilə uşaqlar, yaşlı insanlar və xroniki tənəffüs xəstəliklərindən əziyyət çəkən şəxslər üçün bu vəziyyət ciddi sağlamlıq riskləri yaradır. Seçicilərim tərəfindən bu məsələ ilə bağlı çoxsaylı müraciətlər daxil olur və insanlar narahatlıqlarını ifadə edirlər.

Mövcud qanunvericilikdə tullantıların yandırılması ilə bağlı müəyyən qadağalar və cərimə mexanizmlərinin kifayət etmədiyi görünür.

Nəzərə almaq lazımdır ki, Bərdə rayonu əhalisi çox olan bölgələrdən biridir və əhalinin sayı artıq 200 min nəfərə yaxınlaşır. Bu isə məişət tullantılarının həcminin ildən-ilə artmasına səbəb olur və mövcud sistemin imkanlarını xeyli üstələyir.

Məhz buna görə, hesab edirəm ki, Bərdə rayonunda məişət tullantılarının müasir texnologiyalar əsasında emalı və idarə olunmasını təmin edən kompleks müəssisənin yaradılması artıq zəruri məsələyə çevrilmişdir. Belə bir müəssisənin yaradılması tullantıların açıq şəkildə yandırılması hallarının qarşısını almağa, ətraf mühitin qorunmasına və insanların sağlamlığı üçün daha təhlükəsiz şəraitin formalaşmasına ciddi töhfə verə bilər.

Eyni zamanda, bu cür layihə regionda yeni iş yerlərinin yaradılmasına, tullantıların təkrar emalına və ümumilikdə, ekoloji təhlükəsizliyin gücləndirilməsinə xidmət edər.

Hesab edirəm ki, bu məsələ gələcək dövlət investisiya proqramlarında nəzərə alınmalı və aidiyyəti qurumlar tərəfindən ciddi şəkildə araşdırılmalıdır.

Çıxışımın sonunda Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyətini müsbət qiymətləndirirəm və hesabatın lehinə səs verəcəyimi qeyd etmək istəyirəm.

Həmkarlarımı və hökumət üzvlərini qarşıdan gələn Novruz bayramı və Ramazan bayramı münasibəti ilə ürəkdən təbrik edirəm, möhkəm cansağlığı və fəaliyyətinizdə uğurlar arzulayıram.

**Günay Əfəndiyeva.** Bu gün təqdim olunan hesabat ölkəmizin müxtəlif istiqamətlər üzrə əldə etdiyi mühüm nəticələri bir daha aydın şəkildə nümayiş etdirir. Dövlət siyasəti nəticəsində iqtisadi, sosial, mədəni, humanitar, infrastruktur sahələrində ardıcıl işlərin görüldüyünü, həmçinin Azərbaycanın qlobal aləmdə nüfuzlu mövqeyinin daha da gücləndiyini müşahidə edirik.

Xüsusi ilə də işğaldan azad edilmiş ərazilərimizdə – Qarabağda və Şərqi Zəngəzurda aparılan irimiqyaslı quruculuq prosesi bölgənin dirçəldilməsi, ümumi potensialının üzə çıxarılması baxımından tarixi əhəmiyyət daşıyır.

Eyni zamanda, Bakıda həyata keçirilən abadlıq işləri, şəhərin daha müasir və estetik şəkildə formalaşdırılması, təmizliyinin qorunması, sözsüz, təqdirəlayiqdir. Bu xüsusda şəhər mühitinin, o cümlədən küçələrimizin, yollarımızın təmiz saxlanılmasında əməyi olan insanların fədakar zəhmətinin daha artıq qiymətləndirilməsinin önəmini də qeyd etmək istərdim.

Düşünürəm ki, mərkəzdəki bu müsbət dinamikanın daha geniş ərazilərimizi, o cümlədən paytaxt ətrafındakı qəsəbələrimizi daha intensiv şəkildə əhatə etməsi də vacib əhəmiyyət kəsb edir. Şübhəsiz ki, bu istiqamətdə də mühüm nailiyyətlər əldə edilib.

Bununla belə, həlli tələb olunan müəyyən məsələlər var ki, vətəndaşlar bu mövzuları sıxlıqla diqqətə çatdırırlar.

Təmsil etdiyim Pirallahı rayonu və Xəzər rayonunun Zirə, Türkan, Şüvəlan qəsəbələrinin sakinləri tərəfindən sosial və mədəni şəraitin təkmilləşdirilməsi ilə bağlı bizə müraciətlər daxil olur. Xüsusi vurğulamaq istərdim ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti hörmətli Mehriban xanım Əliyevanın deputatlıq fəaliyyəti dövründə bu qəsəbələrdə həyata keçirilən mütərəqqi təşəbbüslər və layihələr yerli sakinlər tərəfindən böyük minnətdarlıqla xatırlanır. Eyni zamanda, son illərdə bu ərazilərdə əhalinin artması və yaşayış məntəqələrinin genişlənməsi fonunda sakinlər gündəlik həyatlarında müəyyən məsələlərin həllinə ehtiyac duyduqlarını diqqətə çatdırırlar.

Bu məsələlərdən biri Pirallahıda bəzi ailələrin qəzalı vəziyyətdə olan evlərdə yaşamasıdır. Həmçinin Xəzər və Pirallahı rayonlarında əhalinin sıxlığı nəzərə alınaraq, yeni uşaq bağçalarının və idman məkanlarının yaradılması, nəqliyyat əlaqələrinin və küçə işıqlandırma sistemlərinin yaxşılaşdırılması kimi məsələlər sakinlərin tez-tez qeyd etdikləri mövzulardandır.

Bu baxımdan, hesab edirəm ki, paytaxtın qəsəbələrinin kompleks inkişafına, infrastruktur problemlərinin həllinə yönələn dövlət proqramlarının daha aktiv həyata keçirilməsinə ehtiyac yaranır. Sözügedən məsələlərin icra vəziyyətinə bir daha nəzər yetirilməsi sakinlər tərəfindən böyük məmnunluqla qarşılanardı.

Digər bir mühüm məsələ isə ondan ibarətdir ki, həmin qəsəbələr qədim tarixi-mədəni irsə, yerli ənənələrə malikdir. Xəzər və Pirallahı rayonlarında yerləşən çoxəsrlik abidələr bölgənin dərin tarixi köklərə sahib olduğunu göstərir. Bu dəyərlərin qorunması və üzə çıxarılması həm milli irsimizin təbliği, həm də turizmin gücləndirilməsi baxımından əhəmiyyət daşıyır. Ona görə də sözügedən ərazilərdə muzeylərin açılması mədəni sərvətlərimizin mühafizəsini bir daha dəstəkləyəcəkdir.

Düşünürəm ki, dövlət proqramı çərçivəsində şəhər qəsəbələrinin inkişafına dair atılacaq addımlar bu il ölkəmizdə elan olunmuş “Şəhərsalma və Memarlıq İli”nin məqsəd və məzmununa əyani töhfələr verə bilər.

Əminəm ki, əldə etdiyimiz uğurları davam etdirərək inkişaf prosesini paytaxtın qəsəbələrində və digər bölgələrdə də daha geniş şəkildə təmin edə bilərik. Bu isə vətəndaşlarımızın sosial rifahının yüksəldilməsinə və ölkəmizin tərəqqisinə xidmət edəcəkdir.

**Hicran Hüseynova.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı çox yüksək səviyyədə hazırlanıb. Münasibətim müsbətdir, səs verəcəyəm. Hörmətli Baş nazir öz çıxışında görülən işlər, müxtəlif sahələr üzrə əldə olunan nəticələr haqqında ətraflı qeyd etdi.

Hesabatda ailə, qadın və uşaq məsələləri sahəsində görülən işlərin nə qədər genişmiqyaslı olduğunu görürük. Ailələrin, valideynlərin, uşaqların internet təhlükəsizliyi, reproduktiv sağlamlıq, sağlam həyat tərzinin təbliği, ailədaxili mübahisələrin həlli ilə bağlı mediasiya xidmətlərinin tətbiqinin genişləndirilməsi, erkən nikah və qohum nikahlarının fəsadları ilə bağlı il ərzində 791 təlim, seminar və görüş keçirilib. Bu tədbirlərdə 34 min yüz nəfər iştirak edib. Həmin mövzularda müxtəlif təhsil müəssisələrində beş min altı yüz nəfərin iştirakı ilə 57 tədbir keçirilib. Qadın hüquqları və gender problemləri sahəsində, ümumilikdə, yeddi min beş yüz nəfərin iştirakı ilə 43 təlim, seminar və konfrans keçirilib. Uşaq hüquqları sahəsində il ərzində 647 təlim, seminar və görüşlərdə 28 min 200 nəfər faydalanıb, 10 sosial layihə həyata keçirilib. İşğaldan azad edilmiş ərazilərdə məskunlaşan ailələr və uşaqlarla psixo-sosial işin təşkili layihələri davam etdirilir.

Xüsusi ilə qeyd etmək lazımdır ki, hörmətli sədrimiz Sahibə xanımın təşəbbüsü ilə ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi üzrə qanun layihələri müvafiq dövlət qurumları, vətəndaş cəmiyyəti ilə bərabər müzakirə olunur. Bu da həmin istiqamətlərdə görülən işlərə öz mühüm təsirini göstərir. Ötən ilin sonunda Prezident İlham Əliyev tərəfindən “Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026–2028-ci illər üçün Milli Fəaliyyət Planı” təsdiq edildi. Bu sənəd qadınların ictimai, sosial və iqtisadi fəallığının

artırılması üzrə tədbirlərin gücləndirilməsi, qadın sahibkarlığının artması, ayrı-seçkiliyin aradan qaldırılması baxımından önəmlidir. Təqdim olunan hesabatda özünüməşğulluq proqramına 16 min 100 nəfərin cəlb olunduğu qeyd edilir. Bunların arasında altı min beş yüz nəfəri qadındır. Bu isə 38,7 faiz deməkdir. Bu, müsbət bir göstəricidir. Əlbəttə ki, qadın məşğulluğunun artması üçün ən böyük dəstəklərdən biri də uşaq bağçalarının sayının artırılmasıdır. 2025-ci il üzrə 1–5 yaşlı uşaqların məktəbəqədər təhsilə cəlbedilmə səviyyəsi 38,7 faiz olub. 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasına əsasən hədəf 50 faiz müəyyən edilib. Çox yaxşı tendensiyalardan biri də həssas ailədən olan gənclərimizin, o cümlədən qızlarımızın ali təhsil alması üçün imkanların yaradılmasıdır. Təhsil Tələbə Krediti Fondu vasitəsi ilə gənclərimiz öz təhsillərini davam etdirirlər. Gender bölgüsü üzrə təhsil tələbə krediti müqavilələrinin 62,6 faizi qadın, 37,4 faizi kişi tələbələrinin payına düşmüşdür.

Əfsuslar olsun ki, təbii artımın azalmasını, abortların, o cümlədən selektiv abortların, ana və körpə ölümlərinin sayının artmasını müşahidə edirik. Reproduktiv sağlamlığın, demoqrafik balansın, ana və uşaqların sağlamlıqlarının qorunması baxımından bu sahədə ixtisaslı kadrların hazırlanması, xüsusi ilə onların kənd yerlərində işləməsi üçün imkanların yaradılması məsələsi daim diqqətdə saxlanılmalıdır.

Hesabatla tanış olduqda bir daha görürük ki, dövlətimizin müdafiə qabiliyyəti gücləndirilmiş, təhlükəsizlik təmin edilmişdir. İqtisadiyyatımızın və kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin təmin olunması ilə yanaşı, sosial sahədə nəzərdə tutulmuş proqramlar yüksək səviyyədə icra olunmuşdur. Xüsusi ilə vurğulamaq istərdim ki, regionda və dünyada baş verən siyasi, iqtisadi proseslər fonunda dövlət başçımız İlham Əliyevin və

Birinci vitse-prezidentimiz Mehriban Əliyevanın, hökumətimizin həyata keçirdiyi balanslı və praqmatik siyasət həm əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına, həm də dövlətimizin daha da gücləndirilməsinə öz mühüm və müsbət təsirini göstərir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilən siyasətin layiqincə icrasının nəticəsidir ki, bu gün ölkəmizin bütün şəhər və rayonlarında abadlaşdırma işləri aparılır, vətəndaşların yaşayış şəraitinin yaxşılaşdırılması, məşğulluğunun təmini sahəsində kompleks tədbirlər həyata keçirilir. Sumqayıtda həyata keçirilən sosial layihələr iqtisadi rifahın təməlidir. Sumqayıt Kimya Sənaye Parkı şəhərin sənaye üzrə şah damarıdır. Sumqayıt Texnologiyalar Parkında istehsal edilən məhsullar “Made in Azerbaijan” brendi ilə dünya bazarına çıxarılır. Bu, həm də yeni iş yerləri deməkdir. İnanırıq ki, Sumqayıtda belə layihələrin sayı daha da artacaqdır.

Mən bir daha başda Baş nazir hörmətli Əli müəllim olmaqla Nazirlər Kabinetinə, müvafiq nazirliklərə peşəkar səviyyədə hesabat təqdim etdiklərinə görə təşəkkür edirəm. Ümumiyyətlə, münasibətim müsbətdir, səs verəcəyəm.

**Kamaləddin Qafarov.** Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun Nazirlər Kabinetinin ötənilki fəaliyyəti ilə bağlı bu gün Milli Məclisdə verdiyi illik hesabatının təqdimatı bir çox pozitiv məqamları ilə diqqəti cəlb etdi. Bu hesabatda ötən il ölkə Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi ilə Azərbaycanda ictimai-siyasi, sosial-iqtisadi, həmçinin hərbi quruculuq sahələrində əldə edilmiş uğurlar qeyd edildi, görülən irihəcmli işlərə qiymət verildi, yeni vəzifələrin və hədəflərin

konturları açıqlandı. Təbii ki, bu göstəricilər, bu nailiyyətlər hər birimizi, bütün xalqımızı ürəkdən sevindirir və yeni quruculuq işlərinə səfərbər edir.

Baş nazir Əli Əsədov Milli Məclisdə hökumətin illik hesabatının təqdimatı zamanı bildirdi ki, 2025-ci il Azərbaycan üçün siyasi sabitliyin daha da gücləndiyi və iqtisadi inkişafın ardıcıl şəkildə həyata keçirildiyi mühüm mərhələ kimi yadda qaldı. "Konstitusiya və Suverenlik İli" elan edilən 2025-ci il dövlət suverenliyinin möhkəmləndirilməsi, bərpa olunan ərazilərin reinteqrasiyası və milli iqtisadiyyatın yeni inkişaf mərhələsinə keçidi baxımından mühüm siyasi mərhələ kimi qiymətləndirilə bilər. O, haqlı olaraq  qeyd etdi ki, il ərzində ölkəmiz qlobal və regional platformalarda təşəbbüskar mövqeyini daha da möhkəmləndirmiş, sülh və əməkdaşlıq gündəliyinin təşviqi istiqamətində fəal səy göstərmişdir.

Bu baxımdan 2025-ci il avqustun 8-də Azərbaycan, Amerika Birləşmiş Ştatları və Ermənistan liderlərinin iştirakı ilə Vaşinqtonda baş tutmuş Zirvə görüşü bölgəmizdə yeni geosiyasi reallıqların formalaşmasına, regionda dayanıqlı sülh və inkişaf üçün əlverişli şəraitin yaranmasına imkan vermişdir. Vaşinqton Sülh Sammitinin ən mühüm nəticələrindən biri də "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu" (TRIPP) – Zəngəzur dəhlizinin əsasının qoyulması olmuşdur. Bu multimodal marşrut Azərbaycanın əsas hissəsi və Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqəni təmin edəcək və eyni zamanda, ölkəmiz üzərindən keçən beynəlxalq nəqliyyat və tranzit marşrutlarının şaxələndirilməsinə xidmət edəcəkdir.

Hesabatda bildirilir ki,  2025-ci ilin dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik xərclərinə 8,1 milyard manat vəsait ayrılıb və bu da 2024-cü illə müqayisədə 1,5 milyard manat və ya 23 faiz çoxdur. Ötən il 1,4 milyard

manat dəyərində hərbi təyinatlı məhsul istehsal etmişik. Bu gün Azərbaycan 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir.

Hesabat dövründə 16 min şəhid ailəsi və müharibə əlili mənzillə təmin edilmiş, əhalinin sağlamlığının qorunması, səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması və əlçatanlığın təmin olunması məqsədi ilə səhiyyə xərcləri sahəsinə büdcədən təxminən 1,3 milyard manat vəsait ayrılmışdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət və qayğısı ilə son illərdə 16 min şəhid ailəsinə və müharibə əlilinə, onların ailələrinə dövlət tərəfindən mənzillər verilmiş, müharibə zamanı 500-dən artıq əlil olmuş hərbçi dövlət tərəfindən ən müasir protezlərlə təmin edilmişdir.

Hörmətli həmkarlar, hesabat ilində institusional sahədə islahatlar davam etmiş, sahibkarlığın inkişafı, biznes-investisiya mühitinin yaxşılaşdırılması, korrupsiya ilə mübarizə və kölgə iqtisadiyyatının məhdudlaşdırılması, şəffaflıq və dövlət maliyyəsi istiqamətində tədbirlər həyata keçirilmişdir.

2025-ci ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsi və sosial rifah halının yaxşılaşdırılması üçün sosial siyasət tədbirləri davam etdirilmişdir. 2025-ci il dövlət büdcəsi xərclərinin 39,5 faizi və ya 15,3 milyard manatı sosialyönlü xərclərin maliyyələşdirilməsinə yönəldilmişdir (2024-cü illə müqayisədə 601,5 milyon manat və ya 4,1 faiz çoxdur). Son yeddi il ərzində 4 milyon insanı əhatə edən 5 sosial islahat paketi icra edilmişdir ki, bu məqsədlərə təqribən 8 milyard manat məbləğində vəsait sərf edilmişdir.

Hesabat ilində əhalinin sağlamlığının qorunması, səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması və əlçatanlığın təmin olunması məqsədi ilə səhiyyə xərcləri sahəsinə büdcədən təxminən 1,3 milyard manat vəsait ayrılmışdır.

Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə mövcud infrastrukturun bərpası və yenisinin inşası, yaşayış məntəqələrinin yenidən qurulması və sosial-iqtisadi həyatın canlandırılması istiqamətində genişmiqyaslı işlər uğurla davam etdirilir. Hesabat ilinin sonuna işğaldan azad edilmiş bölgələrdə yaşayan (məskunlaşan, işləyən və oxuyan) əhalinin sayı təqribən 75 min nəfər təşkil etmişdir.

2026-cı ildə bu məqsədə 3,5 milyard manat vəsait nəzərdə tutulub. Beləliklə, bu il də daxil olmaqla dövlət büdcəsindən, ümumilikdə, 25,5 milyard manat vəsait ayrılmışdır.

Eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə geniş minatəmizləmə işləri davam etdirilir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” və onun əsasında hazırlanan 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası hazırda uğurla davam edir.

Göründüyü kimi, Nazirlər Kabinetinin ötənilki fəaliyyəti ilə bağlı bu gün Milli Məclisdə verdiyi hesabatın təqdimatı hökumətin konkret dövr ərzində fəaliyyəti barədə kifayət qədər ətraflı təsəvvür yaradır. Hesab edirik ki, burada deyilənlərə əsasən hökumətin 2025-ci ildəki fəaliyyətini müsbət qiymətləndirmək olar.

**Könül Nurullayeva.** 2025-ci ilin dövlət büdcəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf prioritetləri, sosial-iqtisadi siyasət və təhlükəsizlik çağırışları ilə uyğunlaşdırılaraq icra edilmişdir. Büdcə tərtibatı zamanı qlobal iqtisadi proseslər, regional hadisələr, müdafiə və təhlükəsizlik çağırışları, eləcə də

işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin iqtisadi təsiri nəzərə alınmışdır.

2025-ci ildə fiskal alətlərin səmərəli tətbiqi nəticəsində biznes mühiti daha da yaxşılaşmış, vergi yükünün optimallaşdırılması və iqtisadiyyatda aparılan islahatlar onun rəqabət qabiliyyətini və dayanıqlılığını gücləndirmişdir.

Qeyri-neft sektorunun inkişafı üçün həyata keçirilən stimullaşdırıcı tədbirlər xüsusi ilə kənd təsərrüfatı və istehsalı sahələrində əlavə dəyərin yaranmasına müsbət təsir göstərmişdir.

Xüsusi ilə qeyd etmək lazımdır ki, 2025-ci ildə ÜDM əvvəlki illə müqayisədə real artım göstərərək 129,1 milyard manat, əhalinin hər bir nəfərinə düşən ÜDM isə 12,6 min manat olmuşdur.

2025-ci ildə dövlət büdcəsinin gəlirləri 39185 milyon manat proqnoza qarşı 2,2 faiz çox, dövlət büdcəsinin xərcləri 38605 milyon manat olmaqla 580 milyon manat büdcə artığı (profisit) yaranmışdır. Dövlət büdcəsində büdcə artıqlığının yaranması ilk növbədə dövlət büdcəsinə daxilolmaların proqnozdan artıq təmin edilməsi hesabına baş vermişdir.

2025-ci ilin dövlət büdcəsi xərclərinin 39,5 faizi və ya 15 milyard 254,3 milyon manatı sosial yönümlü xərclərin (əməyin ödənişi fondu, qida məhsullarının alınması, əhalinin icbari tibbi sığortalanması, kommunal, kommunikasiya xidmətləri, 20 il və daha çox xidmət etmiş işləyən və ehtiyatda olan hərbi qulluqçuların mənzillə təmin olunması və sair) maliyyələşdirilməsinə yönəldilmişdir ki, bu da 2024-cü illə müqayisədə 601,5 milyon manat və ya 4,1 faiz çoxdur.

Ölkənin müdafiə potensialının gücləndirilməsinə və silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılmasına dövlət büdcəsi

xərclərinin 20,9 faizi həcmində və ya 8 milyard 68 milyon manat vəsait yönəldilmişdir.

Xərclərlə bağlı çox mühüm məqamlardan biri işğaldan azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması ilə bağlıdır. Cənab Prezidentin rəhbərliyi ilə bu gün Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur. Çox qısa müddət ərzində ərazilərdə intensiv yenidənqurma işlərinin aparılması göstərir ki, işğaldan azad olunmuş ərazilərimizin daha qısa müddətdə, daha intensiv şəkildə bərpası və yenidən qurulması ilə bağlı siyasət uğurla həyata keçirilir.

Bildiyimiz kimi, 2026-cı ilədək Qarabağ və Şərqi Zəngəzurda 9 şəhər, 300-dən çox kənd bərpa ediləcək və 2026-cı ilədək 34,500 ailə və ya 150 minə yaxın vətəndaşımızın Qarabağ və Şərqi Zəngəzura qayıtması gözlənilir. Bütün bunlar, təbii, bir daha təsdiq edir ki, bir tərəfdən, 2025-ci il büdcəsinin icrasında xərclərin prioritet olaraq bölüşdürülməsi və rasional şəkildə xərclənməsi müşahidə olunub. Bu, təbii ki, məcburi köçkünlərin daha qısa müddətdə öz ata-baba yurdlarına qayıtmasını təmin edəcəkdir.

Məhz bu xərc maddəsi üzrə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, bərpası və ölkə iqtisadiyyatına reinteqrasiyası istiqamətində işlər sürətlə davam etdirilmiş, bu ərazilərdə Azərbaycan Ordusunun, fövqəladə hallar, təhlükəsizlik orqanlarının fəaliyyətinin təmin edilməsi, habelə su, elektrik enerjisi, qaz və istilik təchizatı, həmçinin yol infrastrukturunun qurulması, təhsil, səhiyyə, idman, mədəniyyət obyektlərinin tikintisi, azad olunmuş ərazilərdə əhalinin mərhələlərlə məskunlaşdırılması ilə bağlı xərclərin maliyyələşdirilməsi təmin olunmuş, bu məqsədlə 2025-ci ilin dövlət büdcəsindən cəm olaraq 4 milyard 439,9 milyon manat vəsait yönəldilmişdir.

2025-ci ildə Zəngəzur dəhlizi üzrə Ermənistan sərhədinə gedən dəmir və avtomobil yollarının tikintisi davam etmiş, eyni zamanda, Naxçıvan Muxtar Respublikasının ərazisindəki dəmir yollarının bərpası istiqamətində də işlərə başlanılmışdır.

Bütün bunlarla yanaşı, yekun olaraq hesab edirəm ki, 2025-ci il üçün dövlət büdcəsinin icrası Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin müəyyən etdiyi inkişaf və dəstək kursunun ardıcıl şəkildə həyata keçirilməsi, strateji dövlət vəzifələrinin yerinə yetirilməsi, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə makroiqtisadi sabitliyin qorunması, müdafiə və təhlükəsizlik məsələlərinin həlli, işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin aparılması və iqtisadiyyatın stimullaşdırılması üçün qarşıya qoyulan hədəflərə çatmaqda lazımi maliyyə təminatı yaratmışdır. Bütün bunları nəzərə alaraq, hörmətli həmkarlarımı Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim olunmuş 2025-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsini dəstəkləməyə dəvət edirəm.

**Malik Həsənov.** Nazirlər Kabinetinin illik hesabatının Milli Məclisdə dinlənilməsi parlamentlə hökumət arasında təmasların artmasına, sosial-iqtisadi inkişaf məsələlərinin obyektiv araşdırılmasında və həllində biz deputatların iştirakına şərait yaradır. Ötən il Nazirlər Kabinetinin hesabatının müzakirəsi zamanı irəli sürülmüş təkliflər, həmişə olduğu kimi, yenə də hökumət tərəfindən diqqətlə araşdırılmışdır. Bu təkliflərin icra vəziyyətinə dair ətraflı məlumat bizə təqdim edilmişdir.

Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatla bağlı ətraflı çıxışına və bizə təqdim edilmiş geniş hesabata görə hörmətli Baş nazirə öz təşəkkürümü bildirmək istərdim. Hesab edirəm ki, təqdim edilmiş

hesabat struktur və məzmun baxımından əhatəli və informativdir. Hesabatda hökumətin bütün sahələr üzrə səmərəli fəaliyyət göstərdiyini, düzgün büdcə siyasəti yürütdüyünü görürük. Məhz bu düzgün hədəflənmiş siyasətin nəticəsidir ki, ölkəmizin iqtisadi qüdrəti günbəgün artır. Hesabatdan da göründüyü kimi, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair dövlət proqramları Azərbaycanın 2030-cu ilədək beş milli prioritetindən biri kimi müəyyən olunmuş və sosial-iqtisadi inkişaf Strategiyasında strateji hədəf kimi öz təsbitini tapmışdır.

Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası ölkə iqtisadiyyatında mühüm əhəmiyyət kəsb etməklə makroiqtisadi sabitliyin təmin olunmasında, sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin, iş yerlərinin yaranmasında, infrastruktur və kommunal xidmətlərin yüksəlməsində və əhalinin rifah halının yaxşılaşdırılmasında mühüm rol oynamışdır.

Kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində görülən işlərin davam etdirilməsi, habelə infrastrukturun və sosial xidmətlərin yaxşılaşdırılması, yerlərdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədi ilə müvafiq tədbirlər həyata keçirilmişdir.

Ölkədə su təchizatının və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində magistral su kəmərləri, su anbarları kompleksi və şəhərlərin paylayıcı su təchizatı şəbəkəsi mərhələli şəkildə inşa edilmiş, layihələr çərçivəsində əhali sabit və keyfiyyətli içməli su ilə təmin olunmuşdur. Torpaq sahələrinin su təminatının yaxşılaşdırılması məqsədi ilə suvarma boru kəmərləri çəkilmiş və suvarma kanalları qurğularla yenidən qurulmuş və bərpa olunmuşdur.

Regionlarda yaşayış məntəqələrinin qazlaşdırılması işləri Dövlət Neft Şirkətinin qazlaşma və “Azəriqaz” İstehsalat Birliyinin maliyyə imkanları çərçivəsində mərhələli şəkildə davam etdirilir. Birliyin mövcud maliyyəsi çərçivəsində Cəlilabad rayonu üzrə qazlaşdırılma məsələsinə bütün yaşayış məntəqələrində mərhələli şəkildə baxılacaqdır.

Təmsil etdiyim Cəlilabad rayonu ilə bağlı bəzi məsələlərin həllinin tapılması, o cümlədən bir neçə məktəb, xəstəxana, həkim-tibb məntəqəsinin tikinti-təmirinin davam etdirilməsidir. Bundan əlavə, avtomobil yollarının asfaltlanmasıdır. Avtomobil yollarının tikintisi mərhələli şəkildə növbəti illərin dövlət investisiya proqramları çərçivəsində nəzərdə tutulmuşdur.

Hörmətli hökumət üzvlərindən xahiş etmək istərdim ki, təmsil etdiyim rayon üzrə olan digər məsələlərin həllində öz sahələrinə uyğun şəkildə yardımçı olsunlar.

Ümumilikdə, Nazirlər Kabinetinin 2025-ci il üçün fəaliyyəti haqqında hesabatı mən də müsbət qiymətləndirirəm. Əminəm ki, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bütün sahələrdə daha da güclənəcəkdir.

Hökumət üzvlərini qarşıdan gələn Novruz və Ramazan bayramları münasibəti ilə ürəkdən təbrik edir və peşəkar fəaliyyətlərində uğurlar arzulayıram.

**Müşfiq Məmmədli.** 2025-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təqdim olunan hesabatda bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində görülən işlər və xüsusi ilə də icbari tibbi sığorta sisteminin inkişafı diqqətəlayiqdir. Son illərdə həyata keçirilən islahatlar

nəticəsində ölkəmizdə səhiyyə xidmətlərinin əlçatanlığının artırılması istiqamətində mühüm addımlar atılmışdır.

Bildiyiniz kimi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən tətbiq edilən icbari tibbi sığorta sistemi artıq ölkə üzrə tam şəkildə fəaliyyət göstərir. Bu sistem vətəndaşların tibbi xidmətlərə çıxışını genişləndirməklə yanaşı, səhiyyə xidmətlərinin maliyyələşmə mexanizmini də daha şəffaf və dayanıqlı etmişdir. 2025-ci il ərzində sığorta paketinə daxil olan xidmətlərin sayı artırılmış, bir sıra ixtisaslaşdırılmış tibbi xidmətlər və yüksək texnologiyalı müayinələr vətəndaşlar üçün daha əlçatan olmuşdur.

Eyni zamanda, TƏBİB tabeliyində fəaliyyət göstərən dövlət tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, regionlarda yeni xəstəxana və tibb mərkəzlərinin istifadəyə verilməsi səhiyyə xidmətlərinin keyfiyyətinə müsbət təsir göstərmişdir. Bu addımlar xüsusi ilə regionlarda yaşayan vətəndaşların tibbi xidmətlərə çıxış imkanlarını genişləndirmişdir.

Səhiyyə sahəsində aparılan islahatlar dövlət başçısı İlham Əliyev tərəfindən müəyyən edilən sosial siyasətin mühüm istiqamətlərindən biridir. Dövlətimizin əsas məqsədi vətəndaşların sağlamlığının qorunması, keyfiyyətli və əlçatan tibbi xidmətlərin təmin edilməsidir.

Bununla yanaşı, hesab edirəm ki, icbari tibbi sığorta sisteminin daha da təkmilləşdirilməsi, tibbi xidmətlərin keyfiyyətinə nəzarətin gücləndirilməsi, vətəndaş məmnuniyyətinin artırılması istiqamətində işlər davam etdirilməlidir. Xüsusi ilə ilkin səhiyyə xidmətlərinin gücləndirilməsi və profilaktik tibbin inkişafı gələcək dövr üçün əsas prioritetlərdən biri olmalıdır.

Xüsusən vəsaitlərdən səmərəli və effektiv istifadə ön planda olmalıdır. Ümumilikdə, 2025-ci ildə səhiyyə sahəsində əldə olunan nəticələr göstərir

ki, aparılan islahatlar düzgün istiqamətdə davam edir və bu proses ölkəmizdə daha effektiv və vətəndaş yönümlü səhiyyə sisteminin formalaşmasına xidmət edir.

Hörmətli hökumət üzvlərinin diqqətinə seçicilərimizi narahat edən bir neçə məsələni çatdırmaq istəyirəm. Siyəzən rayonu Dağ Quşçu və ətraf kəndləri birləşdirən asfalt yolların bir hissəsi güclü daşqınlar nəticəsində yararsız vəziyyətə düşmüşdür. Bu istiqamətdə müvafiq işlərin görülməsinə ciddi ehtiyac vardır.

Hazırda fəaliyyət göstərməyən Alternativ Enerji Üzrə Dövlət Agentliyi tərəfindən tikintisi yarımçıq qalmış kompleksə çox az miqdarda maliyyə vəsaiti sərf etməklə rayonda olmayan böyük idman kompleksi yaratmaq olardı.

Təbii fəlakət nəticəsində evləri yararsız hala düşən Xızı və Siyəzən rayon sakinlərinə müvafiq yardımların göstərilməsi görüşlərdə seçicilərimiz tərəfindən daim qaldırılan məsələlərdəndir. Bir daha bildirirəm ki, hesabat mükəmməl hazırlanmışdır və görülən işlərə görə hörmətli Baş nazirə dərin minnətdarlığımı bildirirəm.

**Naqif Həmzəyev.** Azərbaycan Respublikası Nazirlər Kabineti 2025-ci il ərzində ölkənin sosial-iqtisadi inkişafını, dövlət büdcəsinin icrasını, işğaldan azad edilmiş ərazilərinin bərpasını, habelə strateji dövlət proqramlarının həyata keçirilməsini uğurla davam etdirmişdir.

Baş nazir Əli Əsədovun rəhbərliyi ilə Nazirlər Kabineti “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” çərçivəsində müəyyən edilmiş vəzifələrin icrasını əsas fəaliyyət istiqaməti kimi götürmüşdür. Eyni zamanda, 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının son

illərini əhatə edən bu dövrdə görülən işlər ölkənin inkişaf tempini saxlamış, yeni strateji mərhələyə hazırlıq prosesini gücləndirmişdir.

Nazirlər Kabineti Prezident cənab İlham Əliyevin bir sıra fərman və sərəncamlarını icra etmək üçün əlaqəli qurumlar arasında koordinasiyanı təmin etmiş, icra müddətlərini nəzarətdə saxlamışdır.

Nazirlər Kabineti 2025-ci ildə sahibkarlıq mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun inkişafı, investisiya cəlbetmənin genişləndirilməsi istiqamətlərində bir sıra tənzimləyici tədbirlər həyata keçirmişdir.

2025-ci il Böyük Qayıdışa dair I dövlət proqramının icrasının yekun mərhələsini əhatə etmişdir. Nazirlər Kabineti bu proqramın koordinasiyasını həyata keçirərək ərazilərə köçürülmə, tikinti-bərpa işləri və iqtisadi reinteqrasiya sahələrini idarə etmişdir.

Əsas nəticələr:

- 2020-ci ildən 2025-ci il də daxil olmaqla azad edilmiş ərazilərə, ümumilikdə, 21,6 milyard manat vəsait ayrılmışdır;

- Böyük Qayıdışa dair I dövlət proqramının ümumi icra faizi təxminən 79 faiz səviyyəsinə çatmışdır;

- 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası üzrə tapşırıqların icra faizi 78 faiz olmuşdur;

- 15 yaşayış məntəqəsinin ilkin inşası tamamlanmış, əhalinin yaşayışı təmin edilmişdir;

- hazırda 27 yaşayış məntəqəsinin tikintisi, 25-nin isə təmir-bərpası həyata keçirilir;

- 21 yaşayış məntəqəsinin təməli qoyulmuşdur;

- azad edilmiş ərazilərdə 30 mindən çox insan yaşayır, çalışır və işləyir.

İcbari tibbi sığorta üzrə xidmətlər zərfinin yenilənməsi ilə vətəndaşların tibbi xidmətlərə əlçatanlığı genişləndirilmişdir. Dövlət büdcəsindən tibbi sahəyə ayrılan vəsait artırılmış, əhalinin keyfiyyətli tibbi xidmətlərə çıxışının yaxşılaşdırılması hədəflənmişdir.

Müasir innovativ təhsilin inkişafı 2025-ci il büdcəsinin əsas prioritetlərindən biri olmuşdur. Nazirlər Kabineti elm, təhsil, gənclik sahələrinə aid normativ tənzimləmə işlərini davam etdirmiş, bu sahələrdə qurum strukturlarının təkmilləşdirilməsinə dair tədbirlər həyata keçirmişdir.

Nazirlər Kabineti 2025-ci ildə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”dən biri olan “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” hədəfinə uyğun olaraq, 2025-ci ildə iqlim dəyişikliyi üzrə büdcə vəsaitləri daxil olmaqla “yaşıl büdcə” xərclərinin 16 faizdən çox artırılması, enerji resurslarından səmərəli istifadə qanununun tətbiqinə dair sərəncamın icrası, Qarabağda yaşıl enerji zonasının yaradılması işlərinin davam etdirilməsi, bərpa olunan enerji mənbələrinin (günəş, külək) genişləndirilməsi və azad edilmiş ərazilərdə kiçik su elektrik stansiyalarının istifadəyə verilməsi kimi  vacib sahələrdə fəallıq göstərmişdir.

Nazirlər Kabineti rəqəmsal idarəetmənin və infrastrukturun inkişafı sahəsində mühüm addımlar atmışdır. “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanundakı dəyişikliklərin icrası, Elektron Rəqabət İnformasiya Sistemi haqqında əsasnamənin tətbiqi, nəqliyyat-ekspedisiya fəaliyyəti sahəsinin normativ çərçivəsinin yaradılması bu istiqamətdə görülmüş işlərdir.

Bundan əlavə, kiçik elektrik nəqliyyat vasitələrinin (elektrikli skuter, e-bike) idarə edilməsi üzrə qaydalar müəyyənləşdirilmiş, sürət və lokasiya nəzarəti üçün hüquqi əsas yaradılmışdır.

Nazirlər Kabinetinin 2025-ci ildəki fəaliyyətinin mühüm istiqamətlərindən birini hərbi müdafiə sahəsi təşkil etmişdir. Müdafiə və milli təhlükəsizlik xərcləri ümumi büdcənin təxminən 17 faizini tutmuşdur. “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin tətbiqi, hərbi hüquq aktlarına uyğunlaşdırma qərarları, səfərbərlik xidmətinin elektron informasiya sisteminə dair əsasnamə bu ilin başlıca hüquqi sənədləri sırasında yer almışdır.

Nazirlər Kabineti 2025-ci ildə beynəlxalq iqtisadi inteqrasiya sahəsindəki öhdəliklərini davam etdirmişdir. İxrac və investisiya mühitinin yaxşılaşdırılması üzrə müvafiq tədbirlər həyata keçirilmiş, AZPROMO çərçivəsində ixracatçılara dəstək xidmətlərinin siyahısı genişləndirilmişdir. Bundan əlavə, qeyri-rezident fiziki şəxslərin akkreditasiyası üzrə yeni qaydaların qəbul edilməsi beynəlxalq işgüzar mühitin inkişafına töhfə vermişdir.

Mədəniyyət sahəsində isə “Azərbaycan Mədəniyyəti – 2040” Konsepsiyasının icrasının təmin edilməsi barədə sərəncam imzalanmış, bu sənədin həyata keçirilməsi üçün tədbirlər planı müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabineti 2025-ci ildə öz fəaliyyətini dövlət strategiyalarına uyğun, sistemli və ardıcıl şəkildə həyata keçirmişdir. İşğaldan azad edilmiş ərazilərin bərpası, yaşıl iqtisadiyyat, rəqəmsal inkişaf, sosial müdafiə və müdafiə sahəsinin gücləndirilməsi prioritet istiqamətlər kimi ön plana çıxmışdır.

Böyük Qayıdışa dair II dövlət proqramı və 2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf strategiyasının hazırlanması prosesinin başlanması 2025-ci ilin ən mühüm strateji addımlarından biri olmuşdur. Bu sənədlər Azərbaycanın növbəti inkişaf mərhələsinin bünövrəsini qoyacaqdır.

Ümumilikdə, Nazirlər Kabineti “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in reallaşdırılması yolunda məqsədyönlü, effektiv fəaliyyət nümayiş etdirmiş, iqtisadiyyatın diversifikasiyası, sosial rifahın yüksəldilməsi və Böyük Qayıdışın davamlılığı sahəsindəki nailiyyətlərlə ölkənin uğurlu inkişaf kursunu möhkəmləndirmişdir.

**Pərvin Kərimzadə.** Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatla bağlı geniş çıxışına və bizə təqdim edilmiş dolğun və ətraflı hesabata görə hörmətli Baş nazirə öz təşəkkürümü bildirmək istərdim.

Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin Sərəncamı ilə “Konstitusiya və Suverenlik İli” kimi qeyd etdiyimiz 2025-ci il ciddi siyasi və iqtisadi uğurlarla yadda qalıb. Bu il həm də böyük Zəfərimizin beşinci ili kimi tarixə düşüb. Azərbaycan xalqı sülh, təhlükəsizlik və əmin-amanlıq şəraitində yaşayıb. İl ərzində ölkəmiz qlobal və regional səviyyədə təşəbbüskar mövqeyini daha da möhkəmləndirib, sülh istiqamətində fəal addımlar atıb.

Ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan artıq regionda yeni reallıqlar yaradıb. Eyni zamanda, dövlətimiz davamlı olaraq təhlükəsizlik tədbirləri görür, hərbi və iqtisadi gücünü artırır. Bütün bunlar müstəqil dövlətimizi beynəlxalq təhdidlərdən qorumaq üçün vacib amildir. Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb.

Bu kontekstdə ötən ilin ən mühüm hadisələrindən avqustun 8-də Vaşinqtonda keçirilən görüşdə əldə olunan nəticələrdir. Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə Vaşinqtonda baş tutmuş Zirvə

görüşündə Azərbaycan və Ermənistan liderləri, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən imzalanmış Birgə Bəyannamə, eləcə də “Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş” layihəsinin paraflanması və digər razılaşmalar bölgəmizdə yeni geosiyasi reallıqların formalaşmasına, regionda dayanıqlı sülh və inkişaf üçün əlverişli şəraitin yaranmasına imkan verib. Beləliklə, 2025-ci ildə Ermənistan–Azərbaycan münaqişəsinə siyasi nöqteyi-nəzərdən son qoyulub.

Azərbaycan dövlətinin siyasəti sayəsində 2025-ci il ərzində də regionlarımızın sosial-iqtisadi inkişafı istiqamətində mühüm nəticələr əldə olunub. Ölkənin digər regionları kimi, təmsil etdiyim Gəncə şəhəri də Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə əhatə olunub. Dövlət başçısının şəhərimizə hər səfəri, səfərlər zamanı yeni obyektlərin təməlinin qoyulması və açılış mərasimləri Gəncənin inkişafına yeni təkan verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva 2025-ci ildə bir neçə dəfə Gəncə şəhərində olublar. Bu səfərlər zamanı və səfərdən sonrakı müddətdə mühüm açılışlar edilib, infrastruktur yenilənib, yaşayış və qeyri-yaşayış binalarının fasadları təmir olunub, dam örtükləri yenilənib, küçə və prospektlərdə işıqlandırma sistemləri və fasad işıqlandırmaları quraşdırılıb, piyada yolları bərpa olunub, Gəncə şəhər stadionu istifadəyə verilib.

2025-ci il martın 6-da Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Gəncəyə səfəri dövlətimizin şəhərin inkişafına göstərdiyi diqqət və qayğının növbəti nümunəsi olub. Mehriban xanımın Gəncəyə səfəri zamanı Gəncə Memorial Kompleksinin layihəsi ilə tanış olması Vətən müharibəsi zamanı erməni

terroru nəticəsində həlak olan dinc sakinlərin xatirəsinə böyük ehtiramın ifadəsidir.

Eyni zamanda, Mehriban xanım Əliyevanın Gəncə şəhər 37 nömrəli tam orta məktəbdə aparılan təmir-bərpa işləri ilə tanış olması, Gəncə şəhər 40 saylı körpələr evi–uşaq bağçasına baş çəkməsi, həmçinin Gəncə Şəhər Birləşmiş Xəstəxanasının Perinatal Mərkəzində olması şəhərimizdə təhsil və səhiyyə sahələrinin inkişafına verilən önəmin göstəricisidir. Şah Abbas və Hüseyniyyə məscidlərini, Aleksandr Nevski adına Rus Pravoslav kilsəsini ziyarət etməsi dövlətimizin və Heydər Əliyev Fondunun dini dəyərlərimizə ehtiramının, eyni zamanda, ölkəmizdə mövcud olan tolerantlıq mühitinə göstərilən diqqətin təzahürüdür. Bu günlərdə Gəncə şəhərində yerləşən Cümə məscidində təmir-bərpa işlərinə 1,6 milyon manat vəsait ayrılması ilə bağlı Prezidentin sərəncamı da bu istiqamətdə atılan növbəti mühüm addımlardandır.

Bütün gəncəlilər və ümumilikdə, bütün azərbaycanlılar üçün ən önəmli hadisələrdən biri də 2025-ci il sentyabrın 27-də Gəncə Memorial Kompleksinin açılışı olub. Bu memorial yalnız bir abidə deyil, həm də beynəlxalq ictimaiyyətə ünvanlanmış mühüm bir çağırışdır. Ermənistanın dinc əhaliyə qarşı törətdiyi raket hücumları təkcə Cenevrə konvensiyalarını deyil, həm də bəşəriyyətin ən fundamental mənəvi dəyərlərini pozurdu. Azərbaycan isə müharibə dövründə beynəlxalq hüququn tələblərinə sadiq qalaraq yalnız hərbi hədəfləri vurub, qisasını döyüş meydanında alıb. Gəncə Memorial Kompleksi həm də gələcək nəsillər üçün tariximizin canlı yaddaşını əks etdirən mühüm bir məkan olacaq.

Təmsil etdiyim Gəncə şəhəri ilə bağlı ötən il qaldırdığım məsələlərə hökumətin diqqətlə yanaşdığı və təqdim olunan hesabatın deputatlar

tərəfindən irəli sürülmüş təklif və tövsiyələrin icrası ilə bağlı bölmədə yer aldığı üçün xüsusi təşəkkürümü bildirirəm. Hökumət üzvlərinin diqqətinə yenidən iki məsələni çatdırmaq istərdim.

Birincisi seçildiyim dairənin Sadıllı qəsəbəsində yerləşən 17 nömrəli orta məktəblə bağlıdır. Məktəbin əsaslı təmirə ciddi ehtiyacı var. Digər məsələ isə Məhsəti qəsəbəsində yerləşən 21 nömrəli məktəblə bağlıdır. Şagird sıxlığını nəzərə alaraq, əlavə tədris binasının istifadəyə verilməsinə ehtiyac duyulur. Bu məsələlərin diqqətdə saxlanılmasını hökumət üzvlərindən xahiş edirəm.

Yekun olaraq, Nazirlər Kabinetinin 2025-ci il üçün fəaliyyəti haqqında hesabatı mən də müsbət qiymətləndirirəm. Azərbaycan yeni dövrə qədəm qoyub, əminəm ki, bu reallıqları yaradan və onu idarə edən dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bütün sahələrdə daha da güclənəcəkdir. Hesabata da səs verəcəyəm.

**Nəsib Məhəməliyev.** İlk növbədə Ramazan və qarşıdan gələn Novruz bayramları münasibəti ilə sizi və bütövlükdə, Azərbaycan xalqını ürəkdən təbrik edirəm, əmin-amanlıq və rifah arzulayıram.

Biz burada 2025-ci ildə respublikamızda görülmüş işlərlə bağlı hörmətli Baş nazirin geniş və əhatəli məruzəsini dinlədik və hökumətin Milli Məclisə təqdim etdiyi hesabatla tanış olduq. Hesab edirəm ki, əvvəlki illərdə olduğu kimi, 2025-ci ildə də hökumət öz qarşısında duran məsələlərin öhdəsindən gəlib, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib.

Artıq tarixə çevrilmiş 2025-ci il ölkəmiz üçün əlamətdar və uğurlu il olmuşdur. Belə ki, ötən il avqustun 8-də ABŞ Prezidenti Donald Trampın, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistanın Baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən Vaşinqton Sammiti,

bütövlükdə, Cənubi Qafqazda yeni reallıqlar yaradıb. Zəngəzur dəhlizinin açılması məsələsinin reallaşdırılması üçün ABŞ və Ermənistan arasında əldə edilmiş razılaşmaya uyğun olaraq, müvafiq tədbirlərin icrasına başlanmışdır.

2025-ci ildə Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədi ilə Strateji İşçi Qrupun yaradılması haqqında Azərbaycan və ABŞ hökumətləri arasında Anlaşma Memorandumu, eyni zamanda, Çin Xalq Respublikası ilə əməkdaşlıq əlaqələri gücləndirilmiş və Azərbaycanla ÇXR arasında hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır.

Hesabat ilində Azərbaycan ümumi əhalisi bir milyarddan və ümumi iqtisadiyyatı dörd trilyon dollardan çox olan D-8 təşkilatına, həm də Mərkəzi Asiya Məşvərət Şurasına üzv olmuşdur. Son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın davamlı rəqabətqabiliyyətli inkişafı istiqamətində çoxsahəli islahatlar həyata keçirilmiş, regionların və sahibkarlığın inkişafının təmin edilməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında nəhəng investisiya layihələrinin həyata keçirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi hesabına yüksək nəticələr əldə olunmuşdur.

2025-ci ildə dövlət başçısının həyata keçirdiyi sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq, ölkə iqtisadiyyatında müsbət meyllər davam etmiş, makroiqtisadi sabitlik qorunmuş, iqtisadi artım təmin edilmiş, iqtisadi siyasət sosial siyasətlə uzlaşdırılmış, əhalinin sosial təminatının və rifahının yaxşılaşdırılmasına yönəlmiş tədbirlər görülmüşdür. Ölkəmizdə iqtisadiyyatın və sosial həyatın bütün sferalarında ekoloji təmiz texnologiyaların tətbiqi və alternativ enerji mənbələrindən istifadə

genişləndirilmişdir. Son zamanlar dünyada gedən proseslər hər bir ölkə qarşısında ilk növbədə hərbi potensialın və təhlükəsizliyin gücləndirilməsini prioritet vəzifə kimi qarşıya qoyur. Ali Baş Komandan, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, ölkəmizin müdafiə potensialının və ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi, onun müasir hərbi texnika və silah-sursat təchizatı üçün maliyyə təminatı yaradılaraq konkret tədbirlər görülmüşdür.

Millət vəkillərinin vəzifələrinin bir istiqaməti təmsil olunduqları bölgələrin sosial-iqtisadi problemlərinin, seçicilərin qaldırdıqları məsələlərin aidiyyəti dövlət strukturlarına çatdırılmasıdır. Başa düşürəm ki, hazırda dövlətin qarşısında daha aktual, həlli vacib məsələlər durur. Bununla yanaşı, hökumət üzvlərinin burada olmasından istifadə edərək bəzi problemləri və təklifləri səsləndirməyi özümə borc bilirəm:

- dövlət proqramında nəzərdə tutulan 31 min əhalinin yaşadığı ərazidə salınmış 53 kilometr uzunluğunda Qullar–Gərəkli–Poştbinə–Mazimçay–Mahamalar–Qasbinə avtomobil yolunun əsaslı təmiri;

- Zaqatala Dövlət Təbiət Qoruğuna və Katexçay şəlaləsinə turizm marşrutunun açılması;

- bölgədə yeni emal müəssisələrinin yaradılması, yeni iş yerlərinin açılmasına yönəlik tədbirlərin həyata keçirilməsi, özünüməşğulluq proqramlarının genişləndirilməsi.

Dünyada və regionda gedən irimiqyaslı müharibələr ölkəmizdə milli müdafiə tədbirlərinin görülməsini zəruri edir. Yeraltı sığınacaqların vəziyyətindən tutmuş əhalinin maarifləndirilməsinə qədər ciddi işlərin aparılması zamanın tələbidir.

BMT-nin və bir sıra beynəlxalq təşkilatların hesabatlarından göründüyü kimi, dünyada ərzaq çatışmazlığı ən aktual problemlərdəndir. Ona görə də aqrar sektorun inkişafı ilə bağlı xüsusi proqram hazırlanmalıdır. Etiraf etməliyik ki, indiyə qədər tətbiq olunan subsidiya mexanizmi məhsuldarlığın artmasına kifayət etmədi. Azərbaycanın iqlimi, təbii resursları ərzaq təminatımızın xarici bazarlardan asılılığının tam aradan qaldırılmasına imkan verir. Dövlət ehtiyacları üçün malların alınmasında yerli məhsullara üstünlük verilməlidir. Hesab edirəm ki, bu, yerli istehsalın stimullaşdırılmasını təmin edər.

Əhalini narahat edən bir məsələ də süni qiymət artımı ilə bağlıdır. Əlxüsus, gündəlik tələbat malları və dərman ləvazimatlarının qiymətinin yüksək olması aztəminatlı ailələrin, təqaüdçülərin sosial rifah halını ağırlaşdırır.

Bütövlükdə, hesabatı qənaətbəxş hesab edirəm, hökumətə uğurlar arzulayıram.

**Razi Nurullayev.** Baş nazir Əli müəllimə müfəssəl məlumatı üçün təşəkkür edirəm. Nazirlər Kabinetinin illik hesabatı hökumətin gördüyü işlərin, sadəcə, statistik təqdimatı deyil. Bu hesabat həm də bir sualın cavabıdır: qəbul etdiyimiz qərarlar və həyata keçirilən proqramlar vətəndaşın gündəlik həyatında real dəyişiklik yaradırmı?

Etiraf etmək lazımdır ki, son illər makroiqtisadi sabitliyin qorunması, bir sıra infrastruktur layihələrinin həyata keçirilməsi və sosial proqramların maliyyələşdirilməsi istiqamətində müsbət işlər görülüb. Bununla bərabər, hesabatı oxuyarkən bir məqam diqqəti cəlb edir: rəqəmlər çoxdur, amma bu rəqəmlərin insanların həyatına necə təsir etdiyi barədə daha açıq və səmimi təhlilə ehtiyac var. Vətəndaşların məktublarının cavablandırılması

haqqında məlumatlarda da onların neçə faizinin həll olunduğunu görmək olmur.

Məncə, hökumətin bütün strukturlarında, icra qurumlarında məktubların sayını statistik olaraq deməklə bərabər, həm də həll olunan müraciətlərin sayı hər kəs üçün daha maraqlı və məntiqidir. Biz işin effektivliyinin qiymətləndirilməsinə həm də bu prizmadan yanaşırıq.

Bu gün iqtisadi göstəricilərdən danışarkən paralel olaraq bir reallığı da görməliyik. Azərbaycanda bir çox vətəndaş üçün həyatın əsas sualları dəyişməyib: sabit və yaxşı maaşlı iş, əlverişli biznes mühiti, daha az bürokratiya və daha əlçatan dövlət xidmətləri. Xüsusi ilə biznes mühiti məsələsinə diqqət yetirmək istəyirəm. Beynəlxalq reytinqlərdə irəliləyişlər, əlbəttə ki, müsbət haldır. Amma real iqtisadi mühitdə sahibkarın və adi vətəndaşların qarşılaşdığı prosedurlar, icazələr və uzun sənədləşmə prosesləri hələ də ciddi problemlər yaradır. Sahibkar, həm də vətəndaş üçün əsas məsələ hesabatlarda yazılan göstəricilər deyil, biznes qurarkən və ya genişləndirərkən qarşılaşdığı real şərtlərdir. Bu şərtlər həm də adi vətəndaşlar üçün gündəlik həyatlarında sənədləşmə, dövlət xidmətlərinə əlçatanlıq və icra orqanlarının problemləri real həll etmək meyarı ilə ölçülməlidir.

Digər mühüm məsələ regionların inkişafıdır. Hesabatda regionlara yönəlik proqramlar qeyd olunur. Amma etiraf etməliyik ki, regionlarda məşğulluq, kiçik və orta biznesin inkişafı və sosial xidmətlərin əlçatanlığı məsələləri hələ də tam həll olunmayıb, çünki mövcud imkanlar səfərbər edilməyib. Bu isə daxili miqrasiyanı artırır və paytaxt üzərində əlavə sosial-iqtisadi yük yaradır.

Nazirlər Kabinetinin fəaliyyəti ilə bağlı daha bir vacib məsələ qərarların icra mexanizmidir. Azərbaycanda bəzən yaxşı qərarlar qəbul olunur, lakin onların həyata keçirilməsi prosesində sürət və effektivlik itir. Dövlət idarəçiliyində bir məsələ qərar qəbul etmək olsa da, digər məsələ həmin qərarın vətəndaşın həyatına necə və nə qədər tez çatmasıdır.

Dövlət idarəçiliyində ən vacib meyar vətəndaşın dövlətə olan etimadıdır. Bu etimad isə yalnız rəqəmlərlə deyil, həm də ədalətli idarəetmə, şəffaflıq və effektiv icra ilə formalaşır. Hesab edirəm ki, növbəti mərhələdə hökumətin əsas vəzifələrindən biri idarəetmənin keyfiyyətini artırmaq, bürokratik maneələri azaltmaq və qəbul olunan qərarların vətəndaşın həyatında daha tez hiss olunmasını təmin etməkdir.

Mən bir daha hörmətli Baş nazir Əli müəllimə hesabat çıxışına görə təşəkkür edirəm. Şəxsən ona böyük hörmət və ehtiramım var. Səsləndirdiyim fikirlər isə mənim siyasi baxış bucağımdan irəli gələn məqamlardır. Hamımızın ümumi məqsədi Azərbaycanın və Azərbaycan vətəndaşlarının həyatında ildən-ilə hiss olunan müsbət dəyişikliklərə nail olmaqdır. Bu yolda cənab Baş nazir, Sizə və hökumət üzvlərinə uğurlar və nailiyyətlər arzulayıram.

Sonda iki məsələni demək istəyirəm. Bu, həm Sizə, həm də qismən bizə aid məsələdir.

Qanunvericiliyə görə evlərə qaz çəkilməsi üçün mütləq mülkiyyət sənədi tələb olunur. Lakin ölkəmizdə elə evlər var ki, 30–40 ildir mövcuddur, insanlar orada yaşayır, amma müxtəlif səbəblərdən sənədləşmə prosesi başa çatmayıb. Bu evlərin sənədləşdirilməsi isə çox ağır prosedurlarla və ciddi xərclərlə müşayiət olunur. Nəticədə bəzən belə bir vəziyyət yaranır ki, qaz xətti evin yanından keçir, amma sənəd problemi

səbəbindən həmin evə qaz verilmir və vətəndaş öz evində soyuqda qalır. Bu isə istər-istəməz insanlarda dövlətə inamı sarsıdır.

Xahiş edirəm, hökumət bu məsələyə baxsın, uzun illər mövcud olan yaşayış evlərinin sənədləşdirilməsi sadələşdirilsin və ya qazlaşdırma ilə bağlı daha çevik mexanizm tətbiq olunsun. Nazirlər Kabinetinin qərarı minlərcə ailənin həyatını asanlaşdıra bilər.

İkinci məsələ. Müharibədə iştirak etmiş qazilərimizin bir qismi bu gün müxtəlif sağlamlıq problemləri yaşayır, lakin əlillik təyinatı ala bilmir. Şəxsən tanıdığım belə insanlar az deyil. Bu isə cəmiyyətdə belə bir fikir yaradır ki, əlilliyin qiymətləndirilməsi mexanizmində müəyyən problemlər və ciddi narahatlıqlar mövcuddur. Biz o qazilərlə görüşəndə bəzən onların haqlı suallarına cavab verməkdə çətinlik çəkirik. Çünki onlar müharibədə sağlamlıqlarını itirdiklərini deyir, amma bunu sosial təminat sistemində təsdiq etdirə bilmirlər.

Xahiş edirəm ki, bu sahədə qiymətləndirmə mexanizmi daha şəffaf və ədalətli şəkildə təkmilləşdirilsin, eyni zamanda, qazilərimiz üçün sosial layihələrin və reabilitasiya proqramlarının həyata keçirilməsi gücləndirilsin. Bu, həm sosial ədalətin təmin olunması, həm də qazilərimizin dövlətə inamının möhkəmlənməsi baxımından çox vacibdir. Bu məsələdə də Nazirlər Kabinetinin müvafiq qərarı asanlaşma gətirə bilər.

**Ülvi Quliyev.** Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf siyasəti ölkəmizin davamlı tərəqqisini təmin etmiş, xalqımızın rifahının yüksəlməsinə mühüm töhfələr vermişdir. Dövlət başçısı tərəfindən müəyyən edilmiş strateji prioritetlər hökumətin fəaliyyətində sistemliliyi və səmərəliliyi daha da artırmışdır. Ölkəmizin iqtisadi dayanıqlığının

möhkəmləndirilməsi, modernləşmə proseslərinin sürətləndirilməsi və sosial rifahın yüksəldilməsi istiqamətində ardıcıl və düşünülmüş addımlar atılmışdır.

Bu gün müzakirə etdiyimiz hesabat yalnız statistik göstəricilərin toplusu deyil, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyasının real nəticələrinin iqtisadi ifadəsidir.

Hesabat ili həm diplomatik, həm də iqtisadi baxımdan ölkəmiz üçün zəfər ilinin uğurlu davamı olmuşdur. Bu baxımdan bir neçə mühüm məqamı xüsusi qeyd etmək istərdim.

1. Təhlükəsizlik və ordu quruculuğu. Hər bir vətəndaşımız üçün ən vacib məsələlərdən biri təhlükəsizliyin təmin olunmasıdır. Hesabatda da qeyd olunduğu kimi, müdafiə xərclərinin 22,9 faiz artırılaraq 8 milyard manatdan artıq vəsaitin ayrılması, ordumuzun müasir texnologiyalarla təchiz edilməsi və yerli hərbi sənaye istehsalının 57 faiz artması Azərbaycanın regionda sülh və sabitliyin əsas təminatçılarından biri olduğunu bir daha nümayiş etdirir. Güclü ordu güclü dövlətin əsas dayağıdır.

2. Böyük Qayıdış və Zəngəzur dəhlizi. Qarabağın və Şərqi Zəngəzurun bərpası məqsədi ilə büdcədən ayrılmış 4,4 milyard manatdan artıq vəsait həmin ərazilərin yenidən dirçəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Eyni zamanda, beynəlxalq platformalarda əldə edilən razılaşmalar və Zəngəzur dəhlizinin açılması istiqamətində atılan addımlar Azərbaycanın regional və qlobal logistika mərkəzinə çevrilməsi üçün geniş imkanlar yaradır. Bu isə ölkəmizə gələcəkdə böyük investisiyaların cəlb olunmasına şərait yaradacaq.

3. Sosial rifah və rəqəmsal inkişaf. Büdcənin sosial yönümlü olması xüsusi diqqət çəkir. Sosial xərclərin 15,3 milyard manata çatdırılması və 4 milyondan çox vətəndaşı əhatə edən 5 böyük sosial islahat paketinin həyata keçirilməsi dövlətimizin vətəndaşların rifahına verdiyi önəmin bariz nümunəsidir. Bununla yanaşı, rəqəmsal inkişaf istiqamətində həyata keçirilən tədbirlər gənclərimiz üçün yeni İT imkanlarının və iş yerlərinin formalaşmasına, iqtisadiyyatın müasir texnologiyalar əsasında inkişafına xidmət edir.

4. Maliyyə dayanıqlılığı. Qlobal iqtisadi çağırışların mövcud olduğu bir dövrdə Azərbaycanın strateji valyuta ehtiyatlarının 85 milyard dolları keçməsi və bu göstəricinin xarici borcumuzdan 17 dəfə çox olması ölkəmizin maliyyə sabitliyinin və güclü iqtisadi potensialının göstəricisidir. Bu gün Azərbaycan artıq borc alan deyil, böyük layihələrə investisiya yatıran və regional iqtisadi təşəbbüslərdə aparıcı rol oynayan dövlətdir.

Hökumətin həyata keçirdiyi uğurlu siyasətin nəticələri işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı quruculuq işlərində də aydın şəkildə görünür. Qısa müddət ərzində müasir yaşayış məntəqələrinin salınması, yolların, körpülərin və tunellərin tikilməsi, dağıdılmış tarixi və mədəni irsimizin bərpası, elm və təhsil ocaqlarının fəaliyyətə başlaması, o cümlədən Qarabağ Universitetinin yaradılması və keçmiş məcburi köçkün vətəndaşlarımızın doğma yurdlarına qayıdışı dövlətimizin gücünü və qətiyyətini nümayiş etdirir.

Təqdim olunan hesabat bir daha göstərir ki, əldə olunan bu nailiyyətlər hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Mən təqdim olunan hesabatı yüksək qiymətləndirir və onu dəstəklədiyimi bildirirəm.

Çıxışımın sonunda hər kəsi qarşıdan gələn İlaxır çərşənbə, Novruz və Ramazan bayramları münasibəti ilə səmimi qəlbdən təbrik edir, möhkəm cansağlığı və fəaliyyətlərində yeni uğurlar arzulayıram.

**Sevinc Fətəliyeva.** Bu gün təqdim olunan hesabat təkcə statistik göstəricilərin toplusu deyil, bu sənəd Azərbaycanın son illərdə keçdiyi inkişaf yolunun strateji mənzərəsini əks etdirir və dövlət siyasətinin əsas istiqamətlərini göstərir.

Bugünkü müzakirəni qlobal kontekstdən kənarda təsəvvür etmək mümkün deyil. Dünya mürəkkəb və ziddiyyətli transformasiya mərhələsindən keçir. Geosiyasi qarşıdurmalar artır, beynəlxalq münasibətlər sistemi yenidən formalaşır, enerji, nəqliyyat və təhlükəsizlik məsələləri daha da aktuallaşır. Belə bir şəraitdə sabitlik, uzaqgörən siyasət və güclü dövlət idarəçiliyi dövlətlərin əsas üstünlüyünə çevrilir.

Azərbaycan isə bu mürəkkəb beynəlxalq mühitdə sabitlik və inkişaf nümunəsi kimi çıxış edir. Son illər ölkəmiz həm iqtisadi, həm siyasi, həm də geosiyasi baxımdan mühüm nəticələr əldə etmişdir. Makroiqtisadi sabitlik qorunur, qeyri-neft sektorunun inkişafı davam edir, Azərbaycanın nəqliyyat və logistika imkanları genişlənir, enerji təhlükəsizliyində rolu isə getdikcə daha da artır. Bu isə ölkəmizin regional və qlobal mövqelərini daha da möhkəmləndirir.

Son dövrdə Azərbaycanın xarici siyasətində də mühüm nailiyyətlər əldə olunmuşdur. Xüsusi ilə Vaşinqton görüşündən sonra regionda dialoqun yeni mərhələsinin formalaşması, Azərbaycan və Ermənistan arasında təmasların davam etməsi Cənubi Qafqazda dayanıqlı sülhün qurulması istiqamətində mühüm addımlar hesab oluna bilər. Azərbaycan

bu prosesdə məsuliyyətli və konstruktiv mövqe nümayiş etdirir və regionda uzunmüddətli sülhün təmin olunmasına töhfə verir.

Eyni zamanda, ölkəmizin beynəlxalq iqtisadi və nəqliyyat layihələrində rolu daha da artır. Xüsusi ilə Transxəzər və ya TRIPP kimi tanınan nəqliyyat marşrutlarının inkişafı Avrasiya məkanında yeni iqtisadi və logistika xəritəsinin formalaşmasına xidmət edir. Bu marşrut Asiya ilə Avropa arasında yeni strateji körpü rolunu oynayır.

Bu kontekstdə Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə əlaqələrinin inkişafı, türk dövlətləri ilə əməkdaşlığın güclənməsi və region ölkələri ilə iqtisadi inteqrasiyanın genişlənməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın D-8 təşkilatına üzv seçilməsi də ölkəmizin beynəlxalq nüfuzunun artdığını bir daha göstərir.

Bu gün Azərbaycan yalnız regional deyil, eyni zamanda, qlobal humanitar təşəbbüslərdə də fəal iştirak edir. Müxtəlif ölkələrə göstərilən humanitar yardımlar, beynəlxalq böhran dövrlərində Azərbaycanın nümayiş etdirdiyi həmrəylik Prezident İlham Əliyevin uzaqgörən və humanist siyasətinin nəticəsidir. Bu siyasət Azərbaycanın beynəlxalq nüfuzunu və etimadını daha da artırır.

Azərbaycanın Avropa İttifaqı ilə əlaqələri də yeni mərhələyə daxil olur. Enerji əməkdaşlığı, nəqliyyat layihələri və iqtisadi tərəfdaşlıq ölkəmizin Avropa ilə strateji əlaqələrinin inkişafına mühüm töhfə verir.

Eyni zamanda, Bakının Ümumdünya Şəhərsalma Forumu – WUF13-ə ev sahibliyi etməsi Azərbaycanın beynəlxalq platformalarda rolunun artdığını göstərən mühüm hadisələrdən biridir. Bu forum şəhərsalma, dayanıqlı inkişaf və innovativ idarəetmə sahəsində ölkəmiz üçün yeni

imkanlar açacaq və Azərbaycanın beynəlxalq imicini daha da gücləndirəcək.

Hesabatda xüsusi yer tutan məsələlərdən biri də işğaldan azad edilmiş ərazilərin bərpası və Böyük Qayıdış proqramıdır. Bu gün Qarabağ və Şərqi Zəngəzur tariximizin ən böyük quruculuq mərhələsini yaşayır. Uzun illər işğal altında qalmış torpaqlarda yeni şəhərlər, kəndlər, yollar və müasir infrastruktur qurulur.

Bu proses, sadəcə, bərpa deyil, bu, yeni inkişaf modelinin qurulmasıdır. "Ağıllı şəhər" və "ağıllı kənd" layihələri, yaşıl enerji təşəbbüsləri və müasir nəqliyyat infrastrukturu Qarabağı gələcəyin inkişaf məkanına çevirir. Minlərcə vətəndaşımız artıq doğma torpaqlarına qayıdıb və bu proses davam edir.

Bu gün Qarabağ və Şərqi Zəngəzur yalnız bərpa olunan region deyil, onlar Azərbaycanın yeni iqtisadi inkişaf məkanına çevrilməkdədir.

Təqdim olunan hesabat bir daha göstərir ki, Azərbaycan sabitlik, inkişaf və suverenlik prinsiplərinə əsaslanan ardıcıl dövlət siyasəti həyata keçirir. Qlobal qeyri-müəyyənlik şəraitində məhz güclü dövlət idarəçiliyi, strateji liderlik və milli birlik ölkəmizin uğurlarının əsasını təşkil edir.

Əminəm ki, hökumət bundan sonra da Prezident İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf kursunu uğurla davam etdirəcək və Azərbaycanın güclənməsinə, vətəndaşlarımızın rifahının yüksəlməsinə xidmət edən siyasəti ardıcıl şəkildə həyata keçirəcəkdir.

**Sevinc Hüseynova.** Mən də həmkarlarımın səsləndirdiyi müsbət fikirləri dəstəkləyirəm. Müzakirəmizə təqdim olunan sənəd tarixi Zəfərimizin 5-ci ildönümünü qeyd etdiyimiz, ölkəmizin yeni inkişaf mərhələsinə qədəm

qoyduğu 2025-ci ildə hökumətin həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasətin nəticələrini aydın şəkildə əks etdirir.

Bu sənəd aparılan islahatların, sosial-iqtisadi inkişafın və dövlət idarəçiliyində əldə olunmuş mühüm nailiyyətlərin obyektiv göstəricisidir. Məhz 2025-ci il avqustun 8-də ABŞ Prezidenti Donald Tramp, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın iştirakı ilə keçirilən Vaşinqton Sammiti, bütövlükdə, Cənubi Qafqazda yeni reallıqların formalaşmasına, regionun sülh və əməkdaşlıq məkanına çevrilməsinə, eləcə də Şərq–Qərb və Şimal–Cənub istiqamətlərində əsas kommunikasiya mərkəzlərindən birinə çevrilməsi üçün mühüm zəmin yaratmışdır.

Fərəhləndirici haldır ki, dünyada gedən gərgin proseslər, geosiyasi münaqişələrin daha da şiddətlənməsi, ölkələr arasında sərt maliyyə sanksiyalarının tətbiqi və müxtəlif iqtisadi çətinliklər fonunda hesabat ilində də ölkə iqtisadiyyatının maliyyə dayanıqlığı daha da möhkəmlənmişdir. Strateji valyuta ehtiyatları nəzərəçarpacaq dərəcədə artaraq ümumi daxili məhsulun həcmini ötmüş və xarici dövlət borcunu əhəmiyyətli dərəcədə üstələmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində iqtisadi artım davam etmiş, qeyri-neft-qaz sektorunun iqtisadiyyatda xüsusi çəkisi 2,7 faiz daha da artmışdır.

İşğaldan azad edilmiş ərazilərimizin çiçəklənən diyara çevrilməsi üçün aparılan yenidənqurma, bərpa və reinteqrasiya işləri sürətlə davam etdirilir. Uzun illər erməni işğalı altında qalmış torpaqlarımız artıq yeni həyat qazanır. Bu gün azad edilmiş ərazilərdə 75 minə yaxın vətəndaşımız yaşayır, çalışır və təhsil alır. Keçmiş məcburi köçkünlər artıq 32 kənd,

qəsəbə və şəhərdə məskunlaşıb və onlar üçün dövlətimiz tərəfindən ən müasir standartlara cavab verən yaşayış şəraiti yaradılıb. Bütün bunlar dövlətimizin həyata keçirdiyi uzaqgörən və ardıcıl siyasətin, eyni zamanda, hökumətin uğurlu fəaliyyətinin ən bariz göstəricilərindəndir.

Hökumət dövlətin ənənəvi sosial yönümlü siyasətinə sadiq qalaraq əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm qərarlar qəbul etmiş və konkret tədbirlər həyata keçirmişdir. Sosial sahənin mühüm istiqamətlərindən biri olan məşğulluq sahəsində də davamlı və sistemli tədbirlər görülür. Özünüməşğulluq proqramına cəlb olunan vətəndaşların sayının ildən-ilə artması və bu məqsədlə ayrılan vəsaitlərin artırılması göstərilən diqqətin bariz nümunəsidir. Şübhəsiz ki, bu tədbirlər vətəndaşlara sosial ehtiyaclarının müəyyən hissəsini öz əməkləri hesabına həll etmək imkanı yaradır. Bu, həm dövlətin sosial yükünü azaldır, həm də cəmiyyət tərəfindən müsbət qarşılanır.

Bununla yanaşı, hökumət üzvlərinin iştirakından istifadə edərək təmsil etdiyim dairənin bir yaşayış məntəqəsində, Gədəbəy rayonunun Əlnağılar kəndində mövcud olan məşğulluq probleminə diqqətinizi cəlb etmək istərdim. Əlnağılar kəndi Ermənistan Respublikası ilə sərhədə yaxın, dağlıq ərazidə yerləşən Gədəbəy rayonunun 107 kəndindən biridir. Bu kənddə min nəfərdən artıq əhali və üç təsərrüfat mövcuddur. Kənddə rayon əhalisinin ənənəvi məşğuliyyət sahələri olan əkinçilik və heyvandarlıq üçün müvafiq şərait mövcud deyil. Kənd meşə zolağında yerləşdiyinə və torpaq fondu olmadığına görə aqrar islahatlar zamanı əhaliyə pay torpaqları – əkin və biçənək sahələri verilməmişdir. Bu səbəbdən kənd sakinlərinin əkinçiliklə məşğul olmaq imkanı yoxdur. Heyvandarlıq üçün isə cəmi 40–50 hektar civarında örüş sahəsi ayrılmışdır ki, bu da Nazirlər Kabinetinin

müəyyən etdiyi qaydalara uyğun olaraq, yalnız 12–15 ailənin mal-qara saxlamasına imkan verir.

Bundan əlavə, kənddə biçənək sahələri mövcud deyil və meşə sahəsindən istifadə qanunvericiliyə əsasən qadağandır. Beləliklə, kəndin əmək qabiliyyətli əhalisinin böyük hissəsi faktiki olaraq işsiz hesab olunur və bu da onların müəyyən sosial təminatlardan kənarda qalmasına səbəb olur. Kənddə işsiz əhalinin çox olması səbəbindən onları özünüməşğulluq proqramına tam şəkildə cəlb etmək mümkün olmur. Aztəminatlı ailələr isə işlə təmin olunmadıqları üçün mövcud qanunvericiliyə əsasən ünvanlı sosial yardımdan da kənarda qalırlar. Məsələ ilə bağlı Nazirlər Kabinetinə və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etmişəm. Hörmətli Əli müəllim, məsələnin həlli üçün aidiyyəti qurumlara tapşırıqlar verilsə də, problem hələ də aktuallığını saxlayır.

Məsələni diqqətinizə çatdıraraq aidiyyəti dövlət qurumlarına bu kimi halların yaşandığı kəndlərdə məşğulluğun təmin olunması üçün xüsusi layihələrin hazırlanmasını təklif edirəm. Bu, rayonun turizm və kənd təsərrüfatı potensialından istifadə etməklə istehsal müəssisələrinin yaradılması və sahibkarlara müəyyən güzəştlərin tətbiqi vasitəsi ilə mümkün ola bilər.

Mən təqdim olunan hesabatı dəstəkləyirəm və ona səs verəcəyəm.

**Soltan Məmmədov.** Təqdim olunan hesabat möhtərəm cənab Prezidentin rəhbərliyi altında makrostabilliyin davamlı olaraq qorunub saxlanmasının, işğaldan azad edilmiş ərazilərdə uğurlu genişmiqyaslı yenidənqurma işlərinin icrasının, hesabat ilində iqtisadi, sosial, müdafiə, hüquq və digər sahələrdə davamlı artımın parlaq göstəricisidir.

Hesabatın analizi zamanı növbəti illərdə diqqət edilməli bir sıra məsələləri qeyd etmək istərdim.

Hesabat ilində iqtisadiyyatımızın maliyyə dayanıqlığının güclənməsi, valyuta ehtiyatlarımızın artması, xarici ticarət balansında müsbət saldonun qeydə alınması uğurlu iqtisadi siyasətimizin təsdiqidir. Eyni zamanda, bu inkişafın davamlılığına müsbət təsir edəcək bir faktı qeyd etmək istərdim. Xarici ticarət dövriyyəsində idxalın və ixracın strukturuna baxsaq görərik ki, ölkənin ixrac potensialının genişləndirilməsi üçün imkanlar mövcuddur. Bu gün münasibətlərin strateji əməkdaşlıq səviyyəsinə çatdığı, geniş istehlak bazarına malik Çin kimi bir ölkə ilə ixrac imkanlarının artırılmasına ehtiyac var. Belə ki, Çin ilə xarici ticarət strukturunda ixracın payı minimal səviyyədədir. Düşünürəm ki, bu istiqamətdə tədbirlərin görülməsi üçün hər cür imkanlar mövcuddur və növbəti illərdə ixrac və idxal nisbətinin artımına nail olacağıq.

2025-ci ildə dövlət büdcəsi xərclərinin 2024-cü illə müqayisədə 4,1 faiz artımı əhalinin rifahının yaxşılaşdırılması, yoxsulluq səviyyəsinin azaldılması, aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi və digər sosial tədbirlərin maliyyə təminatına imkan yaratmışdır.

Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin 2024-cü illə müqayisədə 15,2 faiz çox olması hesabat ilində sığorta-pensiya sistemində innovativ yanaşmanın tətbiqinə, əmək pensiyaları və müavinətlərin davamlı artırılmasına imkan yaratmışdır. Bununla bərabər, 2017-ci ildən başlayaraq fondun büdcəsinin balanslaşdırılması məqsədi ilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin fondun gəlirlərində nisbi payının davamlı olaraq azalmasına baxmayaraq, 2025-ci ildə dövlət büdcəsindən 2024-cü illə müqayisədə 29,9 faiz çox

vəsait ayrılmışdır. Bu bir daha fondun gəlirlərinin artması üçün bütün mümkün vasitələrdən istifadəyə, xüsusi ilə əmək münasibətlərinin leqallaşdırılması istiqamətində səylərin daha da artırılmasına ehtiyac olduğunu göstərir.

İşsizlikdən sığorta fondu çərçivəsində çoxsaylı proaktiv məşğulluq tədbirlərinin həyata keçirilməsi təqdirəlayiqdir. İş axtaran və işsiz şəxslərin bilik və bacarıqlarının artırılması, peşə hazırlığı istiqamətində həyata keçirilən tədbirlər, özünüməşğulluq proqramının tətbiqi, işəgötürən və işaxtaranlar üçün müxtəlif elektron modulların tətbiqi məşğulluq problemlərinin həllində atılan çox effektiv addımlardır. Bununla yanaşı, yerlərdə məşğulluqla bağlı bizə daxil olan müraciətlərin sayı və məzmununu, fondun gəlirlərinin davamlı artımını nəzərə alaraq, əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi proqramının genişləndirilməsinə, eyni zamanda, haqqı ödənilən ictimai iş yerlərinin artırılmasına ehtiyac var.

İcbari tibbi sığorta sisteminin tətbiqi səhiyyə sahəsində uğurlu tibbi islahatların aparılmasına və əhalinin keyfiyyətli tibbi xidmətlərə əlçatanlığının artırılmasına imkan yaradır. Eyni zamanda, bu istiqamətdə hələ də bir sıra təcili tədbirlərin görülməsinə ehtiyac var. 2024-cü ildə Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzinin yaradılması həm dövlət, həm də özəl tibb müəssisələrinin təklif etdikləri tibbi xidmətlərin keyfiyyətinə nəzarət və bəzən baş verən uğursuz tibbi müdaxilələrin qarşısının alınmasına imkan yaradacaqdır. Mərkəzin fəaliyyəti üçün tələb olunan bir sıra standart əməliyyat prosedurlarının və digər sənədlərin təsdiqlənməsinə baxmayaraq, bu mərkəzin fəaliyyətinin

təmin olunmasına və gələcəkdə tibb müəssisələrinin fəaliyyətinin keyfiyyəti haqqında hesabatların təqdim olunmasına ehtiyac vardır.

Hesabatda qeyd olunduğu kimi, bir sıra viruslu xəstələrin qeydiyyatında kəskin azalmalar həkimə müraciətlərin sayının azalması, erkən diaqnostika və ya aşkarlanma ilə bağlı problemlərin mövcudluğunu göstərir. Bu məsələ Səhiyyə komitəsində dəfələrlə müzakirə olunmuş, ilkin səhiyyə sisteminin gücləndirilməsi üçün tədbirlərin görülməsinə ehtiyac olduğu göstərilmişdir.

Dövlət proqramlarının uğurlu tətbiqi xüsusi qayğıya ehtiyacı olan insanların dərman təminatı və tibbi xidmətlərə əlçatanlığının artırılması üçün çox önəmlidir. İlkin səhiyyə sisteminin gücləndirilməsi və xüsusi ilə uşaqlar arasında bir sıra xəstəliklərin erkən aşkarlanmasının önəmini bir daha vurğulayaraq uşaqların icbari dispanserizasiyadan keçirilməsi üzrə tədbirlər proqramı ilə bağlı hədəf qrupun müayinələrə cəlb olunması, aşkarlanma və görülən profilaktik tədbirlərlə bağlı hesabatın əldə olunması çox vacibdir.

Vərəmlə mübarizə üzrə tədbirlər proqramı çərçivəsində uzun illərdir ki, beynəlxalq təşkilatlarla birlikdə uğurlu tədbirlər həyata keçirilir. Xüsusi ilə dərmanlara davamlı xəstələrin müalicəsi üçün dövlət tərəfindən tövsiyə olunan mono və kombinə olunmuş dərman vasitələri təmin olunur. Bununla bərabər, vərəmin aşkarlanması, profilaktikası və uğurlu müalicəsi üçün Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu tərəfindən Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun olaraq, innovativ müayinə və müalicə protokolları tətbiq olunur. TƏBİB tabeliyində yeni yaradılmış Ağciyər Xəstəlikləri Mərkəzinin bu istiqamətdə ÜST tərəfindən

tövsiyə olunan xidmətlərin desentralizasiyası üçün mövcud strategiyası və yerlərdə onun tətbiqi ilə bağlı hesabata ehtiyac vardır.

Hörmətli xanım sədrin tapşırığına uyğun olaraq, Səhiyyə komitəsinin sədri hörmətli Əhliman müəllimin rəhbərliyi altında bu mövzuda parlamentdə dinləmənin keçirilməsi planlaşdırılır.

Sonda təmsil etdiyim Xəzər rayonunda çirkab və qrunt suların idarə olunması üçün hökumət tərəfindən müəyyən işlər görülsə də, bu gün Buzovna, Mərdəkan və Şağan qəsəbələrində qrunt sularının idarə olunması və kanalizasiya sisteminin qurulmasına böyük ehtiyac var. Fürsətdən istifadə edərək bu istiqamətdə hökumətdən dəstək göstərilməsini xahiş edirəm.

Hökumət tərəfindən təqdim olunan hesabat bütün sahələrdə davamlı inkişafın uğurla təmin olunmasını göstərir. Hesabatı dəstəkləyirəm və hesabatın hazırlanmasına görə hökumət nümayəndələrinə öz minnətdarlığımı bildirirəm.

**Şahin İsmayılov.** Dünya sürətlə dəyişir. Texnologiyalar iqtisadiyyatın, siyasətin, idarəetmənin və hətta gündəlik həyatın əsas hərəkətverici qüvvəsinə çevrilib. Bu gün dövlətlərin gücü yalnız təbii resurslarla deyil, həm də rəqəmsal imkanları, innovasiya potensialı və texnoloji inkişaf səviyyəsi ilə ölçülür.

Məhz belə bir dövrdə Azərbaycanda Rəqəmsal İnkişaf Şurasının yaradılması ölkəmizin gələcək inkişaf strategiyasının mühüm mərhələsi kimi qiymətləndirilməlidir. Bu şuraya sədr kimi Birinci vitse-prezident Mehriban Əliyevanın təyin olunması isə rəqəmsal transformasiyanın dövlət səviyyəsində yüksək prioritet məsələ olduğunu bir daha göstərir.

Əslində, bu qərar təsadüfi deyil. Son illərdə Azərbaycan dövlət idarəçiliyində, iqtisadiyyatda və ictimai xidmətlər sahəsində rəqəmsallaşma istiqamətində mühüm addımlar atılıb. “Elektron hökumət” platformalarının genişlənməsi, dövlət xidmətlərinin rəqəmsal müstəviyə keçməsi, innovasiya və startap ekosisteminin formalaşması bu siyasətin real nəticələridir.

Lakin müasir dövrdə rəqəmsallaşma artıq ayrı-ayrı layihələr səviyyəsində deyil, bütöv dövlət strategiyası kimi həyata keçirilməlidir. Rəqəmsal İnkişaf Şurasının yaradılması məhz bu zərurətdən irəli gəlir. Bu qurum müxtəlif dövlət strukturlarının fəaliyyətini koordinasiya edərək rəqəmsal transformasiya prosesinə vahid strateji yanaşma formalaşdıracaq.

Şuranın fəaliyyətinin əsas məqsədlərindən biri dövlət idarəçiliyində rəqəmsal həllərin geniş tətbiqidir. Bu isə vətəndaşlara göstərilən xidmətlərin daha sürətli, daha şəffaf və daha əlçatan olmasını təmin edəcək. Rəqəmsal texnologiyaların tətbiqi bürokratik maneələrin aradan qaldırılmasına, idarəetmədə operativliyin və səmərəliliyin artmasına xidmət edəcək.

Digər mühüm məqam isə rəqəmsal iqtisadiyyatın inkişafıdır. Bu gün dünya iqtisadiyyatında ən sürətlə inkişaf edən sahələr məhz texnologiya, süni intellekt, böyük məlumatların analizi və rəqəmsal platformalardır. Azərbaycanın bu qlobal prosesdən kənarda qalması mümkün deyil.

Rəqəmsal İnkişaf Şurasının fəaliyyəti startap ekosisteminin inkişafına, innovasiya layihələrinin dəstəklənməsinə və yeni texnologiyalara investisiyaların cəlb olunmasına mühüm töhfə verə bilər. Bu isə qeyri-neft

sektorunun inkişafına, yeni iş yerlərinin yaradılmasına və ölkənin iqtisadi modelinin daha dayanıqlı əsaslar üzərində qurulmasına imkan yaradacaq.

Eyni zamanda, rəqəmsallaşma milli təhlükəsizlik baxımından da mühüm əhəmiyyət kəsb edir. İnformasiya sistemlərinin təhlükəsizliyi, kibertəhlükəsizlik infrastrukturu və rəqəmsal suverenlik müasir dövlətlərin əsas prioritetlərindən biridir. Bu baxımdan şura ölkədə vahid kibertəhlükəsizlik siyasətinin formalaşdırılmasına və strateji informasiya resurslarının qorunmasına da mühüm töhfə verə bilər.

Bu prosesdə ən mühüm amillərdən biri isə gənclərin fəal iştirakıdır. Azərbaycan gəncliyi intellektual potensialı, kreativ düşüncə tərzi və texnologiyalara yüksək adaptasiya qabiliyyəti ilə seçilir. Rəqəmsal transformasiya məhz gənclərin ideyaları və təşəbbüsləri hesabına daha sürətlə inkişaf edə bilər. Gənclərin bu prosesə cəlb olunması üçün innovasiya laboratoriyalarının yaradılması, texnoloji müsabiqələrin keçirilməsi, universitetlərdə süni intellekt və rəqəmsal texnologiyalar üzrə tədqiqat mərkəzlərinin fəaliyyətinin genişləndirilməsi mühüm əhəmiyyət daşıyır. Eyni zamanda, dövlət və universitetlər arasında əməkdaşlığın gücləndirilməsi, gənc proqramçı və mühəndislərin dövlət layihələrinə cəlb olunması ölkənin rəqəmsal inkişafına yeni impuls verə bilər.

Əminliklə demək olar ki, Rəqəmsal İnkişaf Şurasının yaradılması Azərbaycanın gələcək inkişaf modelində mühüm rol oynayacaq. Bu təşəbbüs ölkəmizin rəqəmsal dövlət quruculuğu yolunda daha sürətli və sistemli addımlar atmasına imkan yaradacaq.

Azərbaycan artıq regionda innovasiya və texnologiya mərkəzinə çevrilmək istiqamətində ciddi potensiala malikdir. Bu potensialın

reallaşdırılması isə məhz belə strateji qərarlar və effektiv institusional mexanizmlər vasitəsi ilə mümkündür.

İnanırıq ki, Rəqəmsal İnkişaf Şurasının fəaliyyəti nəticəsində Azərbaycan rəqəmsal transformasiya sahəsində yeni uğurlara imza atacaq, müasir texnologiyaların tətbiqi sayəsində dövlət idarəçiliyində və iqtisadi inkişafda yeni mərhələyə qədəm qoyacaq.

**Tənzilə Rüstəmxanlı.** Nazirlər Kabinetinin 2025-ci ildəki fəaliyyətinin icmal hesabatı ötən ildə ölkəmizin keçdiyi mürəkkəb və uğurlu inkişaf yolunu bir daha işıqlandırır. Hesabatın girişində qeyd edildiyi kimi, ötən il Azərbaycanın tarixi və gələcəyi üçün əhəmiyyətli hadisələrlə zəngin olmuşdur.

2025-ci ilin ən yaxşı hesabatı həyatımızın özüdür. Beynəlxalq aləmdə ölkəmizin nüfuzunu qaldıran siyasi, diplomatik proseslər, ictimai həyatımızda və iqtisadiyyatdakı sabitlik, azad olunmuş torpaqlarda görülən işlər ötən ildə dövlət başçısının və Nazirlər Kabinetinin işinin ən əlamətdar cəhətidir.

İcmal bütün bunlar barədə ətraflı məlumat verir. Bununla belə, hökumət üzvlərinin iştirakından istifadə edərək rayonlarımızın bir neçə problemini onların nəzərinə çatdırmaq istəyirəm.

Birincisi, Azərbaycan tarixən kənd təsərrüfatı ölkəsi kimi tanınıb. Sənaye nə qədər inkişaf eləsə də, kəndin əhəmiyyətini azaltmayıb. Təəssüf ki, keçənilki ümumi daxili məhsulda kənd təsərrüfatının payı cəmi 6 faizə yaxındır. Bu bizim kəndə münasibətimizin nəticəsinə olan rəqəmdir və ciddi həyəcan siqnalı ola bilər. Pambığı, üzümü, tütünü, meyvə-tərəvəzi, heyvandarlığı ilə məşhur olan bir ölkənin kənd təsərrüfatının

yekun məhsulu daha çox olmalıdır. Bunun səbəbləri haqqında daha çox düşünmək lazımdır.

İkincisi, hökumətin rayonlarda apardığı islahatların məqsədini və istiqamətini tam başa düşmək çətindir. Rayonlar birləşdirilməyib, amma idarələri birləşdirilib, rayonların çoxunun içərisi boşaldılıb. Xəstəxanaların, məktəblərin, rabitə şöbələrinin, kitabxanaların, mədəniyyət mərkəzlərinin ixtisar olunması hansı niyyəti daşıyır? Deyə bilərlər ki, məktəbdə uşaqların sayı azalır, kəndlərdən şəhərə köç var və sair. Bunu başa düşürük. Lakin həyatın məntiqi ayrıdır. Uşaq sayının azalması məktəbin bağlanmasına səbəb olursa, məktəbin və xəstəxananın bağlanması kənddən köçü bir az da sürətləndirir. Bu məsələdə ancaq iqtisadi və ya maliyyə şərtləri nəzərə alına bilməz. Xüsusən ucqar rayonlarda, dağlıq ərazilərdə və sərhəd boyu yerləşən kəndlərdə əhali qorunmalıdır, hətta dövlət büdcəsindən subsidiya ayrılmalı olsa da, bu yerlər abadlaşdırılmalıdır. Bundan ötrü iş yerlərinin açılması, özünüməşğulluq sisteminin genişləndirilməsi çox vacibdir.

Kooperativlər haqqında qanun yalnız kağız üzərində qalıb. Onun həyata keçirilməsi vacibdir. Ticarət şəbəkələrinin yerli məhsulları sıradan çıxarmasına imkan vermək olmaz. Yerli bazar qorunmalıdır. Kənd təsərrüfatı məhsullarının tədarük sistemi müasir tələblərə cavab vermir.

Biz azad olunmuş torpaqlarımızda görülən işlərlə, müdafiə sistemimizin ildən-ilə güclənməsi ilə qürur duyuruq. Bununla belə, ucqar dağ rayonlarının, sərhəd bölgələrimizin diqqətdən kənarda qalmaması üçün də balanslı bir siyasət aparılmalıdır. Həmin rayonlara diqqət azalmamalıdır.

Məsələn, mənim seçildiyim Neftçala rayonunda bir neçə kənd var ki, ətraf kəndlər qazlaşdırılsa da, onlar unudulmuşdur. Neftçala kimi nefti,

qazı olan rayonda kəndin qazsız qalması ciddi narazılıq doğurur. Elə sahələr var ki, böyük vəsait tələb etmir. Lakin bu az vəsaitlə aparılan abadlıq işləri, mədəniyyət ocaqlarının təmiri və qorunması, xırda iş yerlərinin açılması insanları kəndə bağlayır.

Küll halında hesabat yaxşı hazırlanıb və şübhəsiz, səs verib qəbul edəcəyik.

Azərbaycan Respublikasının Neftçala rayonunun iqtisadi vəziyyəti ilə bağlı təkliflər.

Neftçala rayonu strateji məhsullarla zəngin bir ərazidir. Burada neft, qaz, yod, brom, qara kürü, duz, pambıq kimi qiymətli nemətlər istehsal edilir ki, bunlar da rayonumuzun iqtisadiyyatının inkişafına əvəzsiz təminat ola bilər. Təəssüf ki, bu qədər qiymətli təbii sərvətlərə malik rayonun əhalisi ən ağır iqtisadi çətinliklərlə yaşamağa məhkumdur və bu ərazidə işsizlik baş alıb gedir. İstehsal olunan neft, yod və brom məhsulları ağır tonnajlı maşınlara yüklənir, müxtəlif istiqamətlərə daşınır və xarici ölkələrə yola salınır. Böyük maliyyə hesabına çəkilən yollar, asfaltlar o ağır maşınların təsirindən dağılır, məhv edilir və keçilməz hala düşür.

Neft-qaz çıxarılan bu ərazilərdə hektarlarla boş ərazilər var. Bu ərazilər Xəzər dənizinin sahillərinə kimi uzanır. Vaxtı ilə Xəzər dənizinin bu sahəsində estakada düzəldilmişdi ki, bu körpü-yol 500 metr dənizin içinə uzanırdı. Ələt qəsəbəsində tikilməkdə olan liman çox-çox əvvəl Neftçalada tikilməli idi. Vaxtı ilə Salyandan Neftçalaya dəmir yolu vardı ki, həm nefti, həm yodu, həm də cənubdan, Bakıdan gətirilən bütün yükləri bu yolla gətirib aparırdılar.

Beləliklə, təklif edirik:

Birinci, Neftçalanın neftlə, qazla zəngin olan bu ərazisində neftayırma zavodunun tikilməsi planlaşdırıla bilər. Bu zavodun tikilməsi avtomatik olaraq uzun illər arzuya çevrilən, ancaq həyata keçməyən limanın yaranmasını zəruri edəcək. Üstəlik, vaxtı ilə mövcud olan Neftçala–Salyan–cənub rayonları və Bakıya uzanan dəmir yolu bərpa ediləcək. Bu, cəmi 40 kilometr dəmir yolunun çəkilişi deməkdir. Neftçalanın limanla, yəni dənizlə İrana, Rusiyaya, Qazaxıstana, Türkmənistana və oradan da dünyanın hər yerinə yolu açılacaq. Həm dənizlə, həm də qatar yolu ilə yüklər daşınacaq ki, bu da böyük maliyyə hesabına asfaltlaşdırılan yolları dağılmaqdan xilas edəcək və Neftçalanı strateji iqtisadi zonaya çevirəcək.

Beləliklə, bu ideya həyata keçərsə, Neftçalada xeyli iş yerləri açılacaq.

1. Neftayırma zavodu – 200 nəfərlik iş yeri.

2. Dəniz limanı – 100 nəfərlik iş yeri.

3. Vağzal, stansiya (vaxtı ilə olub, yeri qalır) – 50–60 iş yeri.

4. Nəhəng yük yığılan anbarlar. Dənizdən və qatarla gətirilən yüklər hesabına – 50–60 nəfərlik iş yeri.

5. Ayrıca nəqliyyat idarəsi – 50–60 nəfərlik iş yeri.

Neftçala bu təkliflərin həyata keçməsi üçün ən uyğun ərazidir. Yük daşınan qatarlarla yanaşı, sərnişin qatarları da fəaliyyətini qura bilər.

İkinci, Neftçalanın dənizə yaxın şor torpaqları tarixi boyu həm Xəzər dənizinin, həm də Kür çayının təsiri altında qidalanıb. Həmçinin torpağın altından keçən yod qarışıq su bu torpaqların əhəmiyyətinə ciddi təsir göstərir.

Burada duz zavodu tikmək məqsədəmüvafiqdir. Burada istehsal ediləcək duz həm tərkibi, həm də keyfiyyətinə görə çox fərqli, effektli olar. Bu da 50–100 insanın işləyə biləcəyi iş yeri ola bilər.

Üçüncü, Neftçala rayonunun keçmiş 26-lar qəsəbəsində, hazırda Mirqurbanlı kəndinin yaxınlığında radiozavod tikilmişdi. Çox yaxşı effekt verirdi. SSRİ-nin dağılması ilə iqtisadi əlaqələr də dağıldı, bu zavodun fəaliyyəti də bərbad hala düşdü. Sonra kiçik sexə çevrildi və fəaliyyətini qura bilmir.

Vaxtı ilə 1993–1995-ci illərdə türk iş adamları bu zavodda motosiklet, motorolik və idman motosikletləri istehsal etməyə təşəbbüs etdilər. Onlara sahib çıxan olmadı.

Radiozavod bərpa edilsin. Burada həm motosikletlər, həm də kənd təsərrüfatı texnikalarının hissələrini istehsal edən sexlər açılsın. Bu texnikaların istehsalı, həm də təmiri sexləri təşkil edilsin. Bu, bütün cənub rayonları, Neftçala, Salyan da daxil olmaqla, Azərbaycanın hər yerindən alıcıları ətrafına toplaya bilər. Türk iş adamları bu ideya ətrafında kənd təsərrüfatına əhəmiyyətli şəkildə lazım olan, gəlir gətirən sahələr yarada bilərlər. Bu zavodda 100-dən artıq insan işləyə bilər.

Dördüncü, Neftçala həm də pambıqçılıq rayonudur. Vaxtı ilə 26 min ton pambıq yığılırdı. Bu gün də əkilir. Toxuculuq, tekstil fabriki tikilə bilər. Mütəxəssislər ciddi araşdırsınlar. Türkiyədən iş adamları cəlb edilə bilər. Rayonda pambıq əkən fermerlərlə müqavilə bağlanıla bilər. Pambıq tək toxuculuq, parça, pal-paltar istehsalı deyil, pambıqdan yağ istehsal edilir ki, hazırda Özbəkistan bu yağı mətbəxində istifadə edir. Həm toxuculuq fabriki, həm də pambıq yağı sexi yüzlərcə insanın iş yeridir.

Beşinci, kilkə unu istehsal edən kiçik zavod tikilsin. Bilirsiniz, Neftçala balıqçılıq rayonu kimi də tanınıb. Gəmilərlə kilkə ovlanıb, Neftçalada kilkədən kilkə unu istehsal edən sex fəaliyyət göstərib. Kilkə unu dünyada quşçuluq, heyvandarlıq üçün gözəl yem mənbəyidir. Neftçaladan

Rusiyaya, Azərbaycanın rayonlarına daşıyırdılar. Bu işi yenidən bərpa edək. Bu, 30–50 nəfər üçün iş yeri, həm də ciddi maliyyə imkanları deməkdir.

Altıncı, Neftçala rayonu Xəzər dənizinin sahilində yerləşir. Bu ərazidə turizmin inkişafı üçün hər şərait var. Xüsusən Şirvanlı kənd yaxınlığında, Ələt qəsəbəsinə kimi uzanan dəniz sahilində istirahət mərkəzləri, hotellər, gözəl parklar, bağlar salına bilər. Vaxtı ilə dəniz sahilində, Həsənabad qəsəbəsi tərəfdə uşaqların gözəl istirahəti məqsədi ilə düşərgə fəaliyyət göstərirdi. Dağıdıldı. Şirvanlı ərazisində düşərgə salınarsa, yay tətili zamanı həm iş yeri, həm də dincəlmək üçün gözəl məkandır. Buna nail olmaq yüzlərcə işsizin işləməsi deməkdir.

Yeddinci, Neftçalada yerin altından çıxan yodlu su vasitəsi ilə müalicə mərkəzi açmaq olar. Hazırda yod-brom istehsal edən zavodun mədənləri bu müalicə əhəmiyyətli suyu çıxarır. Neftçalada bu məqsədlə kiçik bir müalicə yeri fəaliyyət göstərir. Mütəxəssislər cəlb edilərsə, sponsorlar tapılarsa, böyük gəlir gətirə bilən müalicə mərkəzi açıla bilər. Bu da yeni iş yerləri deməkdir. Əgər biz təklif edilən və çox real effekt verə biləcək, işsizliyə son qoyacaq, iqtisadiyyatımızı yüksəldə biləcək işləri həyata keçirə bilsək, Neftçalamızın iqtisadi çiçəklənməsini təmin etmiş olaraq. Bunun üçün Türkiyədən, Çindən və başqa xarici ölkələrdən iş adamlarının cəlb edilməsini təmin etməliyik.

Neftçalada yolların çəkilişi və asfaltlaşmasına ciddi ehtiyac var. Uzun illərdir, yol çəkilişində belə bir ideya var – Salyandan yan keçərək Xıdırlı və Şirvanlı dəniz sahili boyu asfalt yolu çəkmək. Bu çəkilərsə, Neftçalanın birbaşa Bakıya çıxışı olar və yol məsafəsi 40 kilometr azalar.

Neftçalanın Xəzər kəndindən keçməklə birbaşa Masallı rayonuna asfalt yolu çəkilərsə, bu yol Neftçala–Masallı yolunu 80 kilometr qısaldar. Həm də bu yol Masallıdan birbaşa Xıdırlıya çıxar.

Neftçalanın Mirqurbanlı, Günəşli, Söyüdlü, Yeniqışlaq, Mikayıllı və 4–5 kənd olmaqla bu ərazilərin sakinləri Xıllı qəsəbəsinə getmək üçün 40 kilometrə qədər yol qət edirlər. Halbuki keçmiş 26-lar – Xıllı yolu çəkilsə, bu yol 15–17 kilometr qısalar. Beləcə, bu kəndin sakinləri artıq əziyyət çəkmək məcburiyyətində qalıblar.

Neftçala şəhərinin 80–90 faiz məhəllə yolları yaxşı vəziyyətdə deyil, asfaltlaşdırılmayıb. Neftçala–Yeniqışlaq–Mikayıllıya 6 kilometr asfalt yol çəkilməlidir. Qədimkəndin kəndarası əsas yolu 1 kilometr asfaltlaşmalıdır. Pirəbbə kəndi (Xəlil Rzanın doğulduğu kənd) 1 kilometr kəndarası yol asfaltlaşmalıdır. Mirzəqurbanlı kəndinin əsas asfalt yolundan kəndə 450 metr yolu asfaltlaşmalıdır. Boyad kənd yolu, 3–4 kilometr yol bərbad hala düşüb. Kürqarabucaq kənd yolu, 2–3 kilometr yol bərbaddır. Qırmızıkənd kənd – Dördlər – Xol kəndarası 3–4 km yol asfaltlaşmalıdır. Mirzəqurbanlı kəndinin girəcəyinə 250 metr yol çəkilməlidir. Neftçala rayonunda şəhid ailələrinin evlərinə gedən yolların asfaltlaşdırılmasına ciddi ehtiyac var. Siyahı tutulmalı, asfaltlaşdırılmalıdır. Ümumilikdə, 8–9 şəhid ailəsinin evinə gedən yol asfaltlaşdırılmışdır.

Neftçala şəhərində yolların işıqlandırılması ürəkaçan deyil, məhəllələr arası yolların, xüsusən kəndlərin işıqlandırılması pis vəziyyətdədir.

Neftçalada bankomatlar azdır. Boyat, Xıllı, Qoltuq, Astanlı, Xol, Dördlər, Kürkənd və sair kəndlərdə vətəndaşlar bankomatla bağlı şikayətlənirlər. Neftçala ərazisində Xol, Yuxarı Qaramanlı inzibati əraziləri, Neftçala şəhəri üzrə (Qoltuq kəndi) və Xıllı inzibati ərazisi üzrə bankomat

aparatının quraşdırılması ilə bağlı müraciətlər edilib. Bunlardan yalnız Xıllı inzibati ərazisi üzrə bankomat quraşdırılmışdır.

Qazlaşmanın vəziyyəti. Neftçalanın şəhər, qəsəbə və kəndləri, əsasən, qazlaşdırılıb. Qaraqaşlı, Cəngan, Bala Surra, Uzunbabalı, Şirvanlı, Qaravəlli, Yeniqışlaq, 1 nömrəli Mayak, 2 nömrəli Mayak, Mikayıllı, Balağa, Mirzəli, Sahil və sair kəndlərin əhalisi qaz xəttinin çəkilməsi ilə bağlı müraciət ediblər. Qaz xətti çəkilmiş Mirzəqurbanlı kəndinin ən azı 30 ailəsi evinə mavi qaz çəkdirə bilmir. Əvvəllər qaz çəkilişi üçün çıxarış tələb edilmirdi. Kimin imkanı var, dərhal çəkdirdi. Qalan sakinlərdən çıxarış istənildiyinə görə hələ də qazsız qalıblar.

Neftçala rayonunda 1 şəhər, 48 kənd, 3 qəsəbə mövcuddur. Neftçalanın qazlaşdırılmayan əsas yaşayış kəndləri – Yeniqışlaq, Mikayıllı, Bala Surra, Uzunbabalı, Qaravəlli massivi (yeni salınıb) Neftçala şəhər, M.Ə.Sabir küçəsi.

Yeni kənd,1 nömrəli Mayak, 2 nömrəli Mayak, Müşfiq, seçki dönəmində Salyan rayonuna tabe edilən ərazilər.

Beştalı, Cəngan, Ərəbqardaşbəyli, Qaraqaşlı, Şorkənd kəndlərinin qazlaşması planlaşdırılıb.

Su xətti barədə. Neftçalanın Xol kəndlərində su evlərə hələ də palçıq arxlar vasitəsi ilə çatdırılır. Mikayıllı, Hacımanlı, Şirvanlı və sair kəndlərə su maşınlarla pulla daşınır. Xol zonasında 10 kəndə boru və ya beton arxlar çəkilməyib. Bura relyefi çətin zona, dağlıq-qayalıq zona deyil, aran zonasıdır. Su xəttinin çəkilməsində heç bir problem yoxdur. Təəssüf ki, su xəttinin çəkilməsi hələ də yubadılır.

Bağçalar barədə. Neftçalanın bir çox kəndlərində bağçaların tikilməsi üçün əhalidən şikayətlər alırıq. Xolqaraqaşlı, Xolqarabucaq kəndlərində.

Kəndlərdə, qəsəbələrdə əksər bağların, parkların ciddi təmirə, bərpaya ehtiyacı var.

Tibb məntəqələri. Qoltuq kəndində, Xolqaraqaşlı kəndində tibb məntəqəsi açılsın. Xolqarabucaqda poliklinika var, amma 10 kənd əhalisinin bir doğum evi yoxdur. 40–50 kilometr məsafədə Neftçala və Salyan yerləşir. Sakinlər doğum evi açılmasını tələb edib. Həsənabad qəsəbəsində aptekə ciddi ehtiyac var.

Xolun 10 kəndinin arasında 43 kilometr məsafədə marşrut yoxdur. Bura avtobus ayrılsın, Salyana, Şorsulu, Xəzər kəndlərinə avtobus işləsin. Neftçaladan Yeniqışlaq, Mikayıllı kəndlərinə avtobus ayrılsın.

Qaçaqkənddə, Haqverdilər kəndində işıq dirəkləri pis vəziyyətdədir. Ümumiyyətlə, Neftçalada bəzi yerlərdə işıq xətlərinin vəziyyəti pisdir və təhlükəlidir.

Neftçala şəhəri Kimyaçılar şəhərciyində yerləşən 2 mərtəbəli binaların dam örtüyü tamam sıradan çıxıb və təcili təmir edilməlidir. Vətəndaşlardan xeyli şikayətlər almışıq. Xıllı qəsəbəsində yerləşən 16 mənzilli yaşayış binasının ciddi təmirə ehtiyacı yaranıb.

Qəhrəmanlar qəsəbəsi kimi tanınan Həsənabad qəsəbəsinin 3 Milli Qəhrəmanı var. Amma o qəsəbənin məktəbi pis vəziyyətdədir.

Neftçalanın bəzi kəndlərində apteklərin olması vacibdir.

Neftçala şəhərində kanalizasiya xətlərinin çəkilişi zəif gedir. Bəzi binalara xətt çəkilsə də, hələ də evlərə birləşdirilməyib. Neftçalanın böyük ərazilərinə gedən su xətlərində nasoslar azlıq təşkil edir, ya da köhnəlib. Məsələn, Yuxarı Qaramanlıda.

Mədəniyyət evləri, klublar, kitabxanalar və məktəblər bərbad vəziyyətdədir və ciddi təmir-tikinti işləri aparılmalıdır. Bildiyimizə görə

Neftçalanın, o cümlədən Azərbaycan üzrə klubların əksəriyyəti bağlanacaq və işçilər ixtisara düşəcək.

Sosial vəziyyət barədə. Əsas məsələ işsizlikdir və yeni iş yerlərinin açılmasına ehtiyac var. Məşğulluq, “Dost İş Mərkəzi” MMC-lər işçiləri kütləvi işdən çıxarırlar.

Vətən yolunda canlarından keçən qazilərin təqaüdləri, müavinətləri 1 ildir ki, artırılmır.

**Vüqar Rəhimzadə.** 2025-ci il Azərbaycan üçün həm daxili, həm də beynəlxalq səviyyədə mühüm hadisə və proseslərlə yaddaqalan il oldu. Ötən ilin Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30-cu və İkinci Qarabağ müharibəsində qazandığımız tarixi Zəfərin 5-ci ildönümü münasibəti ilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən “Konstitusiya və Suverenlik İli” elan edilməsi dövlətçilik ənənələrinin möhkəmləndirilməsi, hüquqi dövlət quruculuğunun yeni mərhələyə yüksəldilməsi, ölkənin beynəlxalq nüfuzunun daha da artırılması baxımından strateji əhəmiyyət kəsb edirdi.

2025-ci il Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində müstəqillik tarixində Azərbaycan üçün beynəlxalq arenada çox ciddi siyasi uğurların əldə edildiyi, o cümlədən ABŞ Prezidentinin iştirakı ilə Ermənistanla sülh sazişinin paraflandığı, möhkəm və dayanıqlı sülhün əldə edilməsi üçün real addımların atıldığı, Çinlə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə çatdırıldığı, D-8 təşkilatının yaranmasından sonra yeganə dövlət kimi Azərbaycanın bu təşkilata yeni üzv qəbul edildiyi, həmçinin Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünə tamhüquqlu üzv seçildiyi il oldu. Eyni zamanda, 2025-ci il makroiqtisadi sabitliyin davamlı olaraq qorunub saxlanıldığı, işğaldan azad

edilmiş ərazilərdə böyük həcmli bərpa və yenidənqurma işlərinin aparıldığı uğurlu bir il kimi qiymətləndirilir.

Ötən il ölkədə sosial-iqtisadi inkişafın davamlılığının təmin edilməsi, dövlət proqramlarının ardıcıl şəkildə həyata keçirilməsi və vətəndaşların sosial rifahının daha da yüksəldilməsi istiqamətində kompleks tədbirlər görüldü. Dövlət idarəçiliyinin təkmilləşdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, infrastruktur layihələrinin genişləndirilməsi və regionların sosial-iqtisadi tərəqqisinin sürətləndirilməsi hökumətin fəaliyyətində əsas prioritet istiqamətlərdən biri oldu. Belə ki, 2025-ci ildə ölkə iqtisadiyyatının maliyyə dayanıqlığı daha da güclənmiş, o cümlədən strateji valyuta ehtiyatları nəzərəçarpacaq dərəcədə artaraq ümumi daxili məhsulun həcmini ötmüş və xarici dövlət borcunu əhəmiyyətli dərəcədə üstələmiş, xarici ticarət balansında müsbət saldo qeydə alınmışdır. Hesabat ilində iqtisadi artım davam etmiş, qeyri-neft-qaz sektorunun iqtisadiyyatda xüsusi çəkisi daha da yüksəlmiş, qeyri-neft-qaz əmtəə ixracının həcmi artmışdır. Hesabat dövründə ölkədə əvvəlki illə müqayisədə real ifadədə 1,4 faiz çox olmaqla 129 milyard manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur.

Bununla yanaşı, 2025-ci ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, məşğulluğun artırılması, sahibkarlıq mühitinin yaxşılaşdırılması, investisiya cəlbediciliyinin yüksəldilməsi və rəqəmsal transformasiya sahəsində mühüm addımlar atılmışdır. Təhsil, səhiyyə, nəqliyyat, energetika və digər strateji sahələrdə həyata keçirilən islahatlar ölkənin dayanıqlı inkişafına mühüm töhfə vermişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən balanslaşdırılmış və milli maraqlara söykənən xarici siyasət, həmçinin proaktiv makroiqtisadi

siyasət və genişmiqyaslı tədbirlər nəticəsində siyasi və iqtisadi sabitlik qorunub saxlanılmış, güclü maliyyə bazası yaradılmışdır. İqtisadiyyatın əsas təkanverici qüvvəsi olan qeyri-neft sektorunda 2,7 faiz artım qeydə alınmışdır. Ölkədə sabit artım tempi əldə edilmiş, qeyri-neft-qaz sektorunda iqtisadi artım həm daxili, həm də xarici tələbi dəstəkləmişdir.

Ötən il ənənəvi investisiya proqramı ilə yanaşı, Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması istiqamətində nəhəng investisiya layihələri həyata keçirilmiş, azad edilmiş bölgələrin enerji, su, nəqliyyat və digər sahələri mərkəzi infrastruktura inteqrasiya edilmişdir. Müxtəlif istiqamətlər üzrə inşa edilən genişzolaqlı avtomobil yolları və tunellər, dəmir yolları, etibarli enerji və su təminatı,  baş planlar əsasında inşa edilən yaşayış evləri əhalinin məskunlaşması tədbirlərini  vaxtında və ardıcıl icra etməyə imkan vermiş, hesabat ilinin sonuna azad edilmiş ərazilərdə yaşayan (məskunlaşan, oxuyan və işləyən ) əhalinin sayı 75 min nəfərdən çox təşkil etmişdir.

Ötən il Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyinin daha da möhkəmləndiyi bir dövr kimi də yadda qalmışdır. Ölkəmiz regional və qlobal təşəbbüslərdə fəal iştirak etmiş, beynəlxalq təşkilatlarla əməkdaşlığını genişləndirmiş və tərəfdaş ölkələrlə siyasi, iqtisadi və humanitar əlaqələrin inkişafına xüsusi önəm vermişdir. Bu proseslər güclü və qüdrətli dövlətə çevrilən Azərbaycanın beynəlxalq nüfuzunun artmasına, regionda sabitlik və əməkdaşlıq mühitinin möhkəmlənməsinə, eləcə də ölkənin strateji maraqlarının təmin olunmasına mühüm töhfə vermişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyətini müsbət qiymətləndirirəm.

**Sadiq Qurbanov. *(çıxışının davamı*)** Qlobal tendensiyalar göstərir ki, enerji təhlükəsizliyi, qida təhlükəsizliyi və ekoloji idarəetmə müasir dövlət siyasətinin əsas strateji istiqamətlərindən birinə çevrilmişdir. Bu sahələrdə həyata keçirilən siyasət yalnız iqtisadi inkişafın təmin edilməsinə xidmət etmir, eyni zamanda, gələcək nəsillərin təhlükəsiz və dayanıqlı inkişaf perspektivlərini müəyyən edir.

Bu baxımdan bir neçə istiqamət xüsusi əhəmiyyət kəsb edir:

- bərk məişət tullantılarının çeşidlənməsi və təkrar emal sisteminin genişləndirilməsi;

- tullantılardan enerji istehsalı texnologiyalarının tətbiqinin stimullaşdırılması;

- iqlim qanunvericiliyinin beynəlxalq standartlara uyğun şəkildə inkişaf etdirilməsi;

- regional və qlobal ekoloji layihələrdə Azərbaycanın fəal iştirakının artırılması;

- cəmiyyətin ekoloji məsuliyyətinin və maarifləndirmə səviyyəsinin yüksəldilməsi.

Dünya sürətlə dəyişir və bu dəyişikliklər dövlətlərin strateji düşüncə modelinə yeni yanaşmalar gətirir. Enerji, qida və ekologiya məsələlərinin vahid sistem kimi idarə olunması gələcək təhlükəsizlik modelinin əsas sütunlarından birinə çevrilir. Azərbaycanın bu proseslərdə fəal mövqe tutması milli maraqların qorunmasına xidmət etməklə yanaşı, qlobal ekoloji sabitliyə töhfə verən mühüm strateji addım olacaqdır.

**Sahib Alıyev. *(çıxışının davamı*)** Cənab Prezidentin ötən ildəki başqa bir sərəncamı ilə Ağdaşın 9 min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Davudlu–Binələr–Güvəkənd–Əmirarx–Qaradeyin–

Eymur–Ərəbşəki–Ağcaqovaq avtomobil yolunun əsaslı təmiri üçün ilkin olaraq 1,5 milyon manat vəsait ayrıldı və təmirə başlandı. Amma burada da görülən işlərin sona çatdırılması üçün əlavə vəsaitə ehtiyac var.

Rayonun elektrik təsərrüfatı da bölgələrimizin bir çoxundakı kimidir. Yəni əsaslı şəkildə yenidən qurulmalıdır və artıq bu yöndə müəyyən işlər də görülür. Amma bütün diqqətlər ilk növbədə işğaldan azad olunan torpaqlarımıza yönəldiyindən elektrik xətlərinin yenilənməsi arzulanan sürətlə getmir və bu da anlaşılandır. Sadəcə, xahişim budur, bir neçə yerdə paylayıcı xətlər üzərində elə də böyük vəsait tələb etməyən ayırıcı avadanlıqlar quraşdırılsın ki, kəndin birində hansısa səbəbdən elektrik kəsiləndə daha bir neçəsi qaranlığa qərq olmasın.

Seçicilərlə görüşdə bir çoxu cərimə təhlükəsi ilə üzləşəcəklərindən çəkinərək həyətlərindəki ağacları hətta budaya bilmədiklərindən şikayətlənirlər. Yaxud da ayrılan pay torpağının, demək olar, hamısı yulğunluqdan ibarət olan adamlar var ki, “Qırmızı kitab”a düşdüyündən nə o yulğuna toxunmaq, nə də öz torpaqlarında əkin-biçin aparmaq olur. Bu qəbildən olan problemlərə bir əncam çəkilməlidir.

Mən təklif edərdim ki, belə məsələlərin operativ həlli məqsədi ilə, yaxud nələrəsə yerində aydınlıq gətirmək üçün uyğun qurumların regional mərkəzlərində çalışanlar deputatların keçirdiyi görüşlərə qatılsınlar. Yəni uğurlu hökumət–parlament əməkdaşlığı belə bir formatda bölgələrdə də reallaşdırılsın.

Son təklifim məktəblərlə bağlıdır. Açıq deməliyik ki, bölgələrdəki məktəblərin bir çoxu çağdaş dövrün tələblərinə uyğun təhsil vermək gücündə deyil. Demoqrafik vəziyyəti nəzərə alaraq, bölgələrdə uyğun yerdə bir neçə kəndin uşaqlarının təhsil ala biləcəyi, güclü kadr və texniki

bazası olan, çağdaş tələblərə tam cavab verən məktəblər tikilməlidir. Piyada getmələri çətin olan uşaqlar ora məktəb avtobusları ilə daşınmalıdırlar. Bunun başqa yolu yoxdur. Hazırda yüzlərcə məktəbin əsaslı təmirə ehtiyacı olduğunu biz yaxşı bilirik. Hətta, tutaq ki, onların hamısına çox qısa müddətdə vəsait də ayrıldı, amma komplektləşdirilmiş siniflərdə keyfiyyətli tədris istənilən halda mümkün deyil, hələ kadr məsələsini demirəm.